RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 05 (9460) 12 YANVAR 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Müasir Azərbaycanın yeni inkişaf dövrü

## Xankəndi zəfəri ilə xalqımızın, dövlətimizin qarşısında parlaq üfüqlər açılıb

**"Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır..."**

Prezident İlham Əliyevin bu il yerli televiziya kanallarına verdiyi ilk müsahibəsində cəmi bir cümlə ilə mükəmməl şəkildə ifadə etdiyi kimi, Xankəndi zəfəri müasir Azərbaycanın qarşısında yeni və parlaq üfüqlər açıb.

2023-cü il sentyabrın 20-də qazanılan qələbə Azərbaycan xalqının, dövlətinin milli hədəflərinə doğru onilliklərin o üzündən çıxdığı, böyük əzm, qətiyyət, qəhrəmanlıq tələb edən və ağır sınaqlarla dolu haqq yolunun Zəfər zirvəsi oldu. Heç şübhəsizdir ki, bu zəfərin Azərbaycanın daha parlaq eralara daşınmasında misilsiz rolu olacaq.

### Milli vəzifə yerinə yetirildi

Prezident İlham Əliyevin şəxsi liderlik qabiliyyəti, siyasi əzmi, qətiyyəti, iradəsi nəticəsində Azərbaycan işğala məruz qalan ölkədən Zəfər ölkəsinə çevrilib. Ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin edilib, bayrağımız Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda - bütün ərazilərimizdə dalğalandırılıb. Qarabağda separatizmin kökü birdəfəlik kəsilib.

→ 4

◆ Müəllifi İlham Əliyevdir

# "Karabakh"ın şəffaf şüşələri



## "Made in Azerbaijan" brendi ilə 14 ölkəyə ixrac edilir

**Bu dəfə Sumqayıt Kimya Sənaye Parkının rezidenti, ölkəmizdə ilk dəfə termoformasiya metodu ilə vərəqə şüşə istehsal edən müəssisə - "AzerFloat"dayıq.**

Obyektin və ya müəssisənin bütün avadanlıqlarının idarə edilməsindən istehsal planlaşdırılmasına, məhsulda ən kiçik qüsurları müəyyənləşdirməyə, bütün prosesləri izləməyə imkan verən "SCADA" sistemi ilə idarə olunan "AzerFloat" 4 ildir ki, fəaliyyətdədir.

Prezident İlham Əliyevin 2021-ci ildə açılışını etdiyi müəssisənin layihələndirilməsi və qabaqcıl texnologiyalarla təchiz olunması Almaniyanın dünyada şüşəəritmə texnologiyaları sahəsində böyük təcrübəyə malik "HORN Glass Industries AG" şirkəti tərəfindən təmin edilib. Müəssisədə İtaliya, Finlandiya və Çin texnologiyalarından da istifadə olunur. Avtomatlaşdırılmış sistem yaradılması nəticəsində mütəxəssislər İdarəetmə mərkəzində oturaraq istehsal prosesini idarə edə bilirlər. Nəticədə dünya standartlarına uyğun, keyfiyyətli, tam şəffaf "Karabakh Glass" şüşə brendi 14 ölkəyə ixrac edilərək Azərbaycanın qeyri-neft sənayesinin inkişafına əvəzsiz xidmət göstərir.

→ 5

# İkitərəfli əlaqələrimiz möhkəmlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

## Latviya Respublikasının Prezidenti zati-aliləri cənab Edqars Rinkeviçsə

Hörmətli cənab Prezident!

Əlamətdar tarix - Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sizi və dost xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Latviya arasında təşəkkül tapmış dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. Ötən dövr ərzində ikitərəfli əlaqələrimiz möhkəmlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, bir çox sahələrdə əməkdaşlığımız dinamik inkişaf etmiş, xalqlarımız arasında tarixən mövcud olmuş təmaslar intensivləşmişdir.

Biz Latviyanın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə daim verdiyi dəstəyinə görə minnətdarıq.

Bu gün ölkələrimiz arasında əməkdaşlığın inkişafı və yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq Azərbaycan-Latviya dostluq və tərəfdaşlıq münasibətlərinin həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində inkişafı və genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Latviya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 yanvar 2024-cü il*

# Latviya-Azərbaycan dostluq münasibətləri 100 ildən artıq tarixə malikdir

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Latviya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza sülh və firavanlıq arzulayıram.

Latviya-Azərbaycan dostluq münasibətləri 100 ildən artıq tarixə malikdir, Azərbaycanda çoxsaylı latviyalı yaşamışdır. Biznes sahəsində tərəfdaşlıq sayəsində ölkələrimiz arasında daha sıx əlaqələr qurulmuş, həmçinin gözəl Bakıdan ilhamlanaraq ədəbi, musiqi və incəsənət şedevrləri yaradılmışdır.

Qarşılıqlı maraq doğuran sahələrdə dialoqumuz və strateji tərəfdaşlığımız dərinləşir. Əminəm ki, birgə səylərimiz Latviya ilə Azərbaycan arasında dinamik mübadiləni daha da inkişaf etdirəcəkdir.

Fürsətdən istifadə edərək, Latviyanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə tam dəstəyini bir daha ifadə edirəm. Müstəqillik və ərazi bütövlüyü beynəlxalq nizama əsaslanan qaydaların təməl daşlarıdır və ölkələr arasında dinc-yanaşı yaşamanın, dialoqun qorunub saxlanılması çox vacibdir. Dinc, sabit və firavan Cənubi Qafqaz bizim ortaq marağımızdır.

İcazə verin, ölkələrimiz arasında əlaqələri daha da dərinləşdirmək əzmində olduğumu ifadə edim. Bu baxımdan mən Sizin 2024-cü ildə Latviyaya səfər etməyinizi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Edqars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

# GUAM PA-ya sədrlik Azərbaycana keçib

**Yanvarın 11-də Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM Parlament Assambleyasının videokonfrans formatında komitələrinin 6-cı birgə iclası, bürosunun 18-ci iclası və qurumun 16-cı sessiyası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirlərdə Milli Məclisin deputatları - Azərbaycanın GUAM PA-da nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev, üzvləri Əli Məsimli, Fatma Yıldırım, Cavid Osmanov iştirak ediblər.

Əvvəlcə qurumun komitələrinin onlayn birgə iclası keçirilib. Tədbirdə GUAM məkanında hərbi və təhlükəsizlik sahəsində son vəziyyət, üzv dövlətlər arasında iqtisadi əməkdaşlıq, üzv dövlətlərin iqtisadi, humanitar davamlılığına və işğaldan azad edilmiş ərazilərin bərpasına yönəlmiş parlament fəaliyyəti və bir sıra digər məsələlərə baxılıb.

→ 2

# Azərbaycan Fransanı bütün qlobal platformalarda məğlub edib

İkinci Qarabağ savaşından üç ildən artıq vaxt keçməsinə baxmayaraq, Fransa keçmiş münaqişənin həllində maraqlı olmadığını və özünün əsl ermənipərəst mövqeyini bu gün də həyasızcasına nümayiş etdirir. Yanvarın 10-da Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, antiterror tədbirlərindən sonra iki ölkə arasında münasibətlər mahiyyətcə dayandırıldı, yenə də bu, bizim günahımız ucbatından baş vermədi. Sadəcə, Fransa artıq başqa amillərlə maskalanmayaraq, açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparmağa başladı - qətnamələrin qəbul edilməsi cəhdləri, bundan sonra BMT Təhlükəsizlik Şurası platformasında Azərbaycana qarşı sanksiyalar tələbi. Dövlət başçısı dedi ki, ən azı 5 dəfə bu cür cəhdlər edilib və onların hamısı tam uğursuzluqla nəticələnib, çünki ölkələrin əksəriyyəti bizi dəstəkləyib, bu qətnaməni qəbul etdirmək üçün onlar dövlətlərin zəruri sayını toplaya bilməyiblər.

→ 8

# Fransanın mədəni soyqırımı

## Görünmək istədiyi kimi ola bilməyən Paris

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan tərəfindən dəfələrlə UNESCO-ya çağırışlar edilsə də, işğal altında olan ərazilərdə, eyni zamanda Qərbi Azərbaycanda tarixi-mədəniyyət irsinin soyqırımına məruz qalması faktına qarşı heç bir addımlar atılmır. Bu kontekstdə Fransa mədəniyyət nazirinin Ermənistandan Azərbaycan əleyhinə boğazdan yuxarı bəyanatlar verməsi gülüş doğurur.

Son günlər sosial şəbəkələrdə Fransanın Evian-Le Ba şəhərində Azərbaycan şairi Xurşidbanu Natəvanın 2017-ci ildə ucaldılmış heykəlinə qarşı vandalizm aktı törədilib və üzərinə qırmızı boya atılıb.

Fransanın "Le Messager" nəşrinin yazdığına görə, 2023-cü il dekabrın 18-də müxalifət nümayəndələri bələdiyyə şurasından şəhərdə bu parkın adıçəkilən bütün lövhələrinin rəsmən götürülməsini tələb ediblər. Şəhərin meri Jozian Leyin sözlərinə görə, artıq "Azərbaycan parkı" ilə bağlı bütün istinadlar silinib.

→ 8

# Yolumuz açıq olacaq



## Bakıda mükəmməl nəqliyyat sisteminin tətbiq edilməsi üçün tədbirlər görülür

→ 5

# B.V.Məsimovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Baba Vəzir oğlu Məsimov (Baba Vəziroğlu) "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 yanvar 2024-cü il*

# GUAM PA-ya sədrlik Azərbaycana keçib



*Əvvəli 1-ci səh.*

İclasda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində əldə etdiyi qələbə, 2023-cü il 19-20 sentyabr tarixlərində həyata keçirdiyi uğurlu lokal antiterror tədbirləri barədə danışıb, hazırda ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edildiyini, Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə intensiv quruculuq işlərinin aparıldığını, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını diqqətə çatdırıb.

Nümayəndə heyətimizin üzvləri Fatma Yıldırım və Əli Məsimli çıxışlarında Ermənistanın ərazilərimizin işğalı zamanı tarixi, mədəni abidələrin dağıdılmasından, ekologiya və ətraf mühitə vurulan ziyandan, bu torpaqlarda basdırılan minaların yaratdığı problemlərdən danışıblar, bu gün işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa tədbirləri barədə söhbət açıblar. Deputatlar həmçinin GUAM ölkələri arasında əməkdaşlığın inkişafı ilə bağlı fikirlərini bölüşüblər.

Sonra GUAM PA-nın büro iclası olub. İclasda qurumun komitə iclaslarının nəticələri, milli nümayəndə heyətlərinin tərkibinin təsdiqi, 16-cı sessiyanın kommünike layihəsi, növbəti iclasın tarixi və yeri ilə bağlı məsələlər nəzərdən keçirilib.

Həmin gün GUAM Parlament Assambleyasının 16-cı sessiyası keçirilib. Onlayn tədbirdə ölkələrin suverenliyi və ərazi bütövlüyü, parlamentlərarası əməkdaşlıq və bir sıra digər məsələlər müzakirə olunub.

Sessiyada Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev "Dünya nizamının, suverenliyin və ərazi bütövlüyünün bərpası GUAM-a üzv dövlətlərin ali məqsədi kimi" mövzusunda çıxış edib. Millət vəkili mövzunun aktuallığını və vacibliyini qeyd edərək, ərazi bütövlüyünün beynəlxalq hüququn vacib prinsiplərindən biri olduğunu söyləyib. O, Azərbaycan ərazilərinin 30 il ərzində Ermənistan tərəfindən işğalının törətdiyi fəsadlardan bəhs edib. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının məsələ ilə bağlı Ermənistan silahlı qüvvələrinin dərhal Azərbaycan ərazilərini tərk etməsini tələb edən 4 qətnamə qəbul etdiyini, lakin bu sənədlərin uzun illər kağız üzərində qaldığını bildirib. Deputat bu gün Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyini, işğaldan azad olunmuş torpaqlara əhalinin geridönüşü üçün tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Tədbirdə GUAM PA-nın 16-cı sessiyasının yekun sənədi olaraq kommünike qəbul olunub.

Sessiyada GUAM PA-ya sədrlik Ukraynadan Azərbaycana keçib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi Türkiyə mediasında geniş işıqlandırılıb

**Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi Türkiyə mediasında geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının fikirləri Türkiyənin TRT, Anadolu Agentliyi, İHA, NTV, "Haber Global", ATV kimi nüfuzlu KİV-ində geniş yayımlanıb.

Anadolu agentliyində dərc olunan yazıda dövlətimizin başçısının İkinci Qarabağ müharibəsi dövründə ən çox Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putin ilə danışıqlar apardığına dair ifadələri əks olunub: "Bu da təbiidir, Türkiyə Prezidenti müharibənin ilk günündən son gününə qədər bizim yanımızda idi, Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bir çoxlarına bir mesaj idi".

TRT-nin yayımladığı xəbərdə isə Azərbaycan Prezidentinin Zəngəzur dəhlizinin açılmasının önəmi barədə fikri xüsusi vurğulanıb, dövlətimizin başçısının çıxışından sitatlar tamaşaçıların diqqətinə çatdırılıb. Məlumatda Prezident İlham Əliyevin "Azərbaycandan Azərbaycana insanlar və yüklər heç bir yoxlama aparılmadan keçməlidir. Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər dediyim marşrut (Zəngəzur dəhlizi - red.) açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik" ifadələrinə yer verilib. Məqalədə həmçinin dövlətimizin başçısının fevralın 7-nə təyin edilən növbədənkənar prezident seçkilərini şərtləndirən əsas amilləri açıqladığı bildirilib.

"Haber Global"da yayımlanan informasiyada isə Prezident İlham Əliyevin Fransanın Ermənistanı müharibəyə hazırlaşdırması barədə sözləri diqqətə çatdırılıb: "Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır". Xəbər dövlətimizin başçısının "Xankəndidə bayrağın qaldırılması Zəfərimizin son nöqtəsi idi", "Əsgərlərimiz böyük qəhrəmanlıq göstərdi", "Bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil", "Zəngəzur dəhlizi açılmasa, Ermənistan zərər çəkəcək", "Ermənistanı silahlandıran, müharibəyə hazırlayan ölkə Fransadır", "Ciddi məsələ olarsa, ilk zəng edəcəyim şəxs Ərdoğandır" və "Azərbaycanlılar Qarabağa qayıdır" fikirlərindən ibarət alt başlıqlarla təqdim olunub. Bundan başqa, xəbərdə dövlətimizin başçısının Qarabağ Zəfəri, Xankəndidə, Xocalıda Azərbaycan bayrağını ucaltması barədə fikirləri də diqqətə çatdırılıb.







"Haber Global" televiziya kanalında da Azərbaycan Prezidentinin müsahibəsinə dair süjet yayımlanıb.

"İhlas" xəbər agentliyi (İHA) dövlətimizin başçısının yerli televiziya kanallarına müsahibəsi barədə xəbəri oxuculara Prezident İlham Əliyevin "Ermənistanı silahlandıran, müharibəyə hazırlayan ölkə Fransadır" ifadəsindən ibarət sərlövhə ilə təqdim edib. Məqalədə bildirilir ki, Azərbaycan Prezidentinin Qarabağ məsələsində ədalətin Zəfər çalması barədə sözləri sitat gətirilib: "Ədalət zəfər çalıb, biz öz haqq işimizi yekunlaşdırmışıq və ədaləti özümüz bərpa etmişik... Halbuki, əfsuslar olsun ki, beynəlxalq aləmin əsas oyunçuları bizim bu fikrimizə şərik olmadılar. Əksinə, bizi ittiham etməyə çalışdılar, bizə qarşı müxtəlif təzyiq mexanizmlərini işə salmağa çalışdılar... Yəni biz bu ədaləti, eyni zamanda beynəlxalq müstəvidə siyasi və diplomatik savaş apararaq əldə etmişik. Ona görə bizim Zəfərimizin əhəmiyyəti daha önəmlidir".

Yazıda Prezident Əliyevin Xankəndi və işğaldan azad edilən digər bölgələrimizdə Azərbaycan bayrağını ucaltması, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması, Fransanın bölgədə təxribatçı fəaliyyəti və Ermənistanın silahlandırılması, dövlətimizin başçısının Türkiyə Prezidenti ilə bağlı fikirlərinə də geniş yer verilib.

"Star" qəzeti isə xəbəri "Əliyev: Ciddi məsələ olarsa, ilk zəng edəcəyim şəxs Ərdoğandır" sərlövhəsi ilə təqdim edib. Yazıda Prezident Əliyevin Vətən müharibəsi dövründə ən çox Türkiyə və Rusiya prezidentləri ilə danışıqlar aparması barədə fikrinə xüsusi yer verilib: "Türkiyə Prezidenti müharibənin ilk günündən son gününə qədər bizim yanımızda idi, Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bir çoxlarına bir mesaj idi".

# Prezident İlham Əliyevin Azərbaycanın televiziya kanallarına müsahibəsi Gürcüstan mediasının diqqət mərkəzindədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi Gürcüstan KİV-inin diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, "newsday.ge", "newsday.ge", "qafqazturk.com", "realnews.ge", "aktual.ge", "interpress.ge", "24news.ge" informasiya portalları, "Marneuli FM" radiosu Azərbaycan Prezidentinin müsahibəsindən materiallar dərc edib, xəbərlər yayımlayıblar.



İlham Əliyev - Bugünkü Azərbaycan, sözün əsl mənasında, dünyanın ən güclü dövlətləri sırasındadır, bizə hədə-qorxu ilə, təkəbbürlə yanaşmaq olmaz




AZƏRTAC-a istinadla Azərbaycan, rus və gürcü dillərində yayımlanan materiallarda Prezident İlham Əliyevin Azərbaycanın bu gün sürətlə inkişaf edərək dünyanın ən güclü dövlətləri sırasında olması fikri xüsusi vurğulanıb. Bildirilib ki, Azərbaycan xalqının düzgün seçim etdiyi 2003-cü il ölkəmizin müstəqil tarixində ən həlledici məqam olub.

Materiallarda fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri barədə dövlətimizin başçısının fikirləri də oxucuların diqqətinə çatdırılıb. Qeyd edilib ki, seçkiləri şərtləndirən ilk növbədə sentyabr hadisələrindən sonra Azərbaycanda yeni dövrün başlanmasıdır.

Bundan başqa, materiallarda Zəngəzur dəhlizinin açılmasının vacibliyinə toxunularaq, Azərbaycan Prezidentinin bu barədə sözləri təqdim olunub: "Əgər bu dəhliz açılmasa, Ermənistan əbədi dalan kimi qalacaq və əgər dediyim marşrut (Zəngəzur dəhlizi - red.) açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir".

Xəbərlərdə Azərbaycan Prezidentinin müsahibəsində diqqət çəkən məqamlardan birinin də ölkəmizə qarşı ikili standartlardan çıxış edən müəyyən qüvvələrlə bağlı olduğu vurğulanıb. Bu barədə yazılarda Prezident İlham Əliyevin aşağıdakı fikirlərinə istinad olunub: "Bizə qarşı olan mənfi münasibət, ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq. Ermənistanı silahlandırma cəhdləri bu məqsədi daşıyır ki, bizi daim təzyiq altında saxlasınlar. Bu, bizi bundan sonra da rahat yaşamağa qoymamaq üçün səylərdir və əfsuslar olsun ki, burada da Fransa yenə də ön plandadır. Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır. Ona görə mən deyəndə ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur, məhz bunu nəzərdə tuturdum".

# Bakıda "Dinin siyasiləşdirilməsi: zərərli təsirlər" mövzusunda konfrans keçirilib

**Yanvarın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi: zərərli təsirlər" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan İlahiyyat İnstitutunda təşkil edilən tədbirdə ölkəmizdə müxtəlif konfessiyalara mənsub dini icmaların sədrləri və din xadimləri iştirak ediblər.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov tədbirdə çıxış edərək əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətlərinə diqqət çəkib. Azərbaycanın din siyasətində dini etiqad azadlığının təminatının prioritet məsələlərdən olduğunu qeyd edən S.Heydərov dövlət tərəfindən dini icmalara, müxtəlif dinlərə məxsus ibadətgahlara göstərilən diqqət və qayğıdan danışıb. Dövlət tərəfindən icmalara hər cür dəstək göstərildiyini, onların müraciətlərinin diqqətdə saxlanıldığını bildirən komitə rəsmisi deyib: "Hər il Prezident tərəfindən rəsmi qaydada ölkədəki dini konfessiyalara maliyyə yardımı ayrılır. Bu yardım bütün dini icmalara, o cümlədən qeyri-müsəlman icmalarına şamil edilir. Heydər Əliyev Fondu tərəfindən tarixi, mədəni, dini abidələr bərpa olunur, yeni ibadət ocaqları inşa edilir. Cəmiyyətimizdə milli və dini həmrəylik ölkəmizin tarixində ən yüksək həddədir. Bu birlik 44 günlük Vətən müharibəsi dövründə özünü bir daha sübut etdi".

Sədr müavini vurğulayıb ki, bu faktların fonunda ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda dini etiqad azadlığının pozulması barədə fərziyyələrə istinadla ölkəmizi heç bir beynəlxalq statusa malik olmayan qrupa (xüsusi izləmə siyahısı) daxil etməsi təəssüf doğurur. ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyası tərəfindən təqdim edilən "nöqsanlar" ölkəmizdəki gerçəkliyi əks etdirmir, reallıqla daban-dabana ziddiyyət təşkil edir. Beynəlxalq Din Azadlığı Komissiyasının hesabatında bir çox məqamların araşdırılmadığı, qeyri-müstəqil və ənənəvi olaraq erməniपərəst mərkəzli məlumatlar yayan mənbələrdən istifadə edilməsi, bəzən isə hadisələrə məqsədli şəkildə yanlış izahatlar verilməsi diqqəti cəlb edir.

S.Heydərov həmçinin bu gün insan hüquqları, dini azadlıqlar meyarlarının bəzi böyük güclər tərəfindən təzyiq vasitəsinə çevrildiyini qeyd edib. O, Azərbaycanda fəaliyyət göstərən dini icmalara çağırış edərək ölkəmizin əleyhinə qarayaxma kampaniyası aparan qüvvələrə qarşı həmrəy və ayıq-sayıq olmanın vacibliyini vurğulayıb.





Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib ki, hər bir cəmiyyətdə, hüquqi dövlətdə ictimai, dini münasibətlərin əsaslarını hüquq tənzimləyir. Bu, ölkəmizdə Azərbaycan Respublikasının Konstitusiyasında, "Dini etiqad azadlığı haqqında" qanunda və digər qanunvericilik aktlarında əksini tapıb. Səmavi dinlərin hər birinin burada yayılaraq insanların milli düşüncəsinə, davranışlarına və həyat tərzinə təsir etdiyini deyən H.Məmmədovun sözlərinə görə, dini dözümlülük, insanların inanclarına hörmət ölkəmizin vətəndaşlarının həyat tərzinə çevrilib.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Fuad Nurullayev qeyd edib ki, illərlə Ermənistanın şər və böhtanlarının qarşısını layiqincə alan xalqımız ölkəmizə qarşı çirkin addımlar atan qüvvələrə qarşı bundan sonra da mübarizə aparacaq. ABŞ Dövlət Departamentinin Azərbaycanda fəaliyyət göstərən dini icmalarla bağlı qərəzli mövqeyini qınayan F.Nurullayev vurğulayıb ki, ölkəmizdə dini etiqad azadlığı yüksək səviyyədə qorunur və dini baxışlarına görə heç kimə təzyiq göstərilmir, şiə-sünni problemi yoxdur. Bizim güclü dövlətimiz var və onu heç kim sarsıda bilməz. ABŞ-nin qərəzli münasibəti gözügötürməzlikdən başqa bir şey deyil.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov bildirib ki, multikulturalizmi və tolerantlığı özünün ideoloji əsaslarından hesab edən Azərbaycanın həmin siyahıya daxil edilməsi ən azından ədalətsizlikdir. Hesabatda guya ölkəmiz tərəfindən Qarabağda xristian dini irsinin məhv olunması iddiası gülüncdür. Azərbaycan hökumətinin Qarabağda təkcə dağıdılan müsəlman ibadətgahlarına deyil, xristian dini abidələrinə qarşı qayğı və diqqəti haqqında onlarla nümunə sadalamaq mümkündür. Azərbaycanda müsəlmanlarla yanaşı, qeyri-müsəlman dini icmaların nümayəndələrinin heç bir diskriminasiya halı ilə qarşılaşmadıqlarını vurğulayan A.Şirinov deyib ki, ABŞ-nin elə özündə diskriminasiya ildən-ilə artmaqda davam edir. Kaliforniya Dövlət Universitetinin Nifrət və Ekstremizm Tədqiqatları Mərkəzi tərəfindən ötən il hazırlanan tədqiqatda ABŞ-də dini nifrət motivli cinayətlərin 27 faiz artdığı qeyd olunur.

Rektor çıxışında Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını, təhsil ocağında müxtəlif dinlər və məzhəblərin fərq qoyulmadan tədris olunmasını da dövlətimizin müxtəlif inanclara tolerant münasibətinin göstəricisi kimi dəyərləndirib.

Bakı Şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravosloav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev, Azərbaycan Katolik Kilsəsinin nümayəndəsi Yozef Marek, Avropa Yəhudilərinin Bakı Dini icmasının ravvini Şneor Seqal, Alban-udi Xristian dini icmasının sədri Robert Mobili, Gürcü Yəhudiləri dini icmasının sədri Zamir İsayev, Azərbaycan Bəhailəri Mərkəzinin katibi Ramazan Əsgərli və "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov çıxışlarında ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatı və Dövlət Departamenti tərəfindən ölkəmizin qondarma xüsusi izləmə siyahısına daxil olan ölkə kimi müəyyənləşdirilməsini yekdilliklə pisləyiblər. Bildirilib ki, həmin sənədlərdə Azərbaycandakı dini etiqad azadlığı ilə əlaqədar yer almış böhtan fikirlər ölkəmizdə mövcud olan dini tolerantlıq mühitinə qarşı qərəzli kampaniyadır. Müxtəlif konfessiyaların nümayəndələri olaraq heç bir zaman Azərbaycanda dini zəmində qarşıdurma, qısnama, ayrı-seçkilik yaşamadıqlarını diqqətə çatdıran natiqlər ABŞ Dövlət Departamentini bundan sonra Azərbaycan həqiqətlərini nəzərə alaraq obyektiv mövqe sərgiləməyə səsləyiblər.

# Baş nazir Əli Əsədov UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru ilə görüşüb



**Yanvarın 11-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru, UNICEF-in Cenevrədəki BMT ofisində Nümayəndəsi və Avropada Qaçqınlar və Miqrant məsələləri üzə xüsusi koordinatoru Regina de Dominitsislə görüşüb.**

Görüşdə Azərbaycanın BMT və onun ayrı-ayrı təsisatları ilə tərəfdaşlığa böyük önəm verdiyi və bu baxımdan UNICEF ilə əməkdaşlığın xüsusi önəm kəsb etdiyi bildirilib.

Azərbaycanla BMT-nin Uşaq Fondu arasında uzunmüddətli və müxtəlif sahələri əhatə edən səmərəli tərəfdaşlığın mövcud olduğu vurğulanıb.

Azərbaycanda uşaqların müdafiəsinin və uşaq hüquqlarının təmin olunmasının diqqət mərkəzində olduğu bildirilərək ötən dövrdə ölkəmizin BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyası daxil olmaqla bir sıra beynəlxalq sənədlərə qoşulduğu vurğulanıb.

Bildirilib ki, 2020-ci ildə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" və bu çərçivədə 5 illik Fəaliyyət Planı qəbul edilmişdir.

Eyni zamanda Azərbaycanda sağlamlıq imkanları məhdud, eləcə də həssas təbəqədən olan uşaqlara dövlət tərəfindən böyük qayğı göstərildiyi vurğulanıb.

Görüşdə həmçinin keçmiş münaqişədən əziyyət çəkmiş uşaqlara yardım, işğaldan azad edilmiş ərazilərdə mina təhlükəsi ilə bağlı maarifləndirmə, cari ildə Azərbaycanda keçiriləcək İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində uşaq hüquqlarının qorunması və digər sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub.

# Azərbaycan və UNICEF arasında gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb

**Yanvarın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya ölkələri üzrə regional direktoru, Avropada qaçqın və miqrant məsələləri üzrə xüsusi əlaqələndirici Regina de Dominitsis ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və UNICEF arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər və gələcək əməkdaşlıq perspektivləri, habelə cari regional vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ölkəmizin müstəqilliyinin bərpasının ilk günlərindən BMT-nin müxtəlif ixtisaslaşmış qurumları, o cümlədən UNICEF-lə yaxından əməkdaşlıq etdiyini, xüsusilə Ermənistanın ərazilərimizin işğalı nəticəsində qaçqına və məcburi köçkünə çevrilmiş uşaqlar üçün daha yaxşı təhsil və səhiyyə imkanlarının yaradılması sahəsində aidiyyəti dövlət qurumları ilə birgə uğurlu proqram və layihələrin həyata keçirildiyini qeyd edib.

Qarşı tərəf hazırkı postmünaqişə dövründə vətəndaşlarımızın öz evlərinə ləyaqətli qayıdışının təmini istiqamətində görülən genişmiqyaslı bərpa və yenidənqurma işləri, mina təhdidinə qarşı mübarizə barədə ətraflı məlumatlandırılıb.

Nazir Ceyhun Bayramov xüsusilə mina təhdidi ilə mübarizə sahəsində UNICEF-lə əməkdaşlıq çərçivəsində aparılan maarifləndirmə fəaliyyətindən bəhs edərək, bu istiqamətdə beynəlxalq ictimaiyyətin diqqətini də bu təhdidə çəkməyin vacibliyini vurğulayıb.

Regina de Dominitsis UNICEF-in Azərbaycanla mövcud uğurlu əməkdaşlıq təcrübəsinin davam etdirilməsində maraqlı olduğunu, xüsusilə Azərbaycanın evsahibliyi edəcəyi cari ildə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) və 2026-cı ildə keçiriləcək Ümumdünya Şəhərsalma Forumu çərçivəsində uşaq hüquqları sahəsində müxtəlif birgə təşəbbüslərin həyata keçirilə biləcəyini qeyd edib.

Postmünaqişə dövründə Azərbaycan tərəfindən məcburi köçkünlərin öz evlərinə qayıdışına istiqamətlənən bərpa və quruculuq fəaliyyətinin təqdirəlayiq olduğu, bu istiqamətdə UNICEF-in də prosesə dəstək göstərməyə hazır olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov öz növbəsində COP29-a hazırlıq prosesində ilkin planlar barədə qarşı tərəfi məlumatlandırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Azərbaycan ilə Latviya arasında əməkdaşlığa əsaslanan əlaqələrin uğurlu inkişafı məmnunluq doğurur

**Yanvarın 11-də Xarici İşlər Nazirliyində Azərbaycan ilə Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə nazirliyin rəhbər heyəti, Milli Məclisin deputatları, Latviyanın Azərbaycandakı səfirliyinin əməkdaşları və digər qonaqlar iştirak ediblər.

Hər iki ölkənin Dövlət himnlərinin səsləndirilməsindən sonra tədbirdə çıxış edən Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Fariz Rzayev iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbriklərini çatdırıb. Azərbaycan və Latviya arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin 30 il ərzində müxtəlif, o cümlədən siyasi, iqtisadi, humanitar, elmi-texniki, mədəni və s. istiqamətlər üzrə inkişafından ətraflı bəhs olunub. Ali və yüksəksəviyyəli səfərlər və təmasların, habelə strateji dialoqun ötən il Bakıda keçirilmiş ikinci iclasının əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli rol oynadığı qeyd edilib.




Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya diplomatik münasibətlərin 30 illiyi münasibətilə təbriklərini çatdırıb, münasibətlərin bundan sonra da inkişaf edəcəyinə ümidvarlığını bildirib. Azərbaycan ilə Latviya arasında münasibətlərin tarixindən bəhs edən səfir tarixi ənənələr, qarşılıqlı dostluq və əməkdaşlığa əsaslanan əlaqələrin bu gün də uğurla inkişafının məmnunluq doğurduğunu diqqətə çatdırıb.

Çıxışlardan sonra iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə bağlı Azərbaycan və Latviya xarici işlər nazirlərinin təbrik məktublarının mübadiləsi baş tutub.

Tədbirin sonunda iştirakçılar Azərbaycan ilə Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin seçkilərdə fəaliyyətinin əsaslarına həsr edilən müşavirə keçirilib



**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar müxtəlif istiqamətlərdə maarifləndirmə layihələrinin həyata keçirilməsi intensiv davam etdirilir. Silsilə tədbirlər çərçivəsində yanvarın 11-də Bakıda Mərkəzi Seçki Komissiyasının (MSK), Medianın İnkişafı Agentliyinin, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin seçkilərdə fəaliyyətinin əsasları mövzusunda müşavirə keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirin məqsədi media subyektlərinin prezident seçkilərində sərbəst fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılıq səviyyəsinin yüksəldilməsindən ibarətdir.

MSK sədri Məzahir Pənahov tədbirdə çıxış edərək media nümayəndələrinin ilk gündən bütün seçki prosesinin içində olduğunu və məsələləri hərtərəfli işıqlandırdıqlarını deyib. O, KİV-in seçkilərdəki rolunun yüksək olmasının vacibliyini qeyd edib. M.Pənahov bildirib ki, KİV həmişə müəyyən çatışmazlıqları aradan qaldırmaq üçün addımlar atmalıdır. Əgər tərəflər həmin iradlardan nəticə çıxarmırsa, ondan sonra məsələni işıqlandırmaq lazımdır. Seçki məsələsində birinci növbədə hamımız Azərbaycan vətəndaşı kimi çıxış etməliyik.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi əzmkarlığı və qətiyyəti sayəsində Zəfərlə başa çatmış Vətən müharibəsindən sonra ölkəmizdə və eyni zamanda regionumuzda yeni siyasi reallıqlar yaranıb. Azərbaycanın liderliyinin ön planda dayandığı bu reallıqlar xalqımızın tarixi arzularının həyata keçməsi, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa olunması kimi vacib amillərlə şərtlənir. Yeni mərhələ cəmiyyət həyatının bütün sahələrini əhatə etməklə ölkəmizdə dərinləşmiş islahatların davamlılığını, həyatımızın müasir dövrün dinamik inkişafına uyğunlaşdırılmasını və beləliklə, ölkəmizin tərəqqisinin daimiliyini təmin edir. Qalib Azərbaycan hər bir soydaşımızın qürur yeri olmaqla yanaşı, ölkəmizin qabaqcıl mövqeyini, beynəlxalq müstəvidə öz layiqli yerini tutmasını istəməyən qüvvələrin də planlarını alt-üst etməkdədir.

"Milli maraqlarımıza xidmət edən müstəqil medianın inkişafını dövlətin əsas prioritetləri sırasında dəyərləndirən Prezident jurnalist əməyinə daim yüksək qiymət verib, Azərbaycan həqiqətlərinin yerli və beynəlxalq auditoriyaya çatdırılmasında medianın rolunu xüsusi qeyd edib. 2022-ci ildə Milli Mətbuat Günündə Şuşada ilk dəfə keçirilən Beynəlxalq Media Forumuna müraciətində Prezidentin jurnalistlər qarşısında qoyduğu mühüm vəzifələr aktuallığını qoruyub saxlamaqdadır", - deyə Əhməd İsmayılov qeyd edib.

Audiovizual Şuranın sədri İsmət Səttarov diqqətə çatdırıb ki, seçkiqabağı təşviqatda ən böyük məsuliyyət ictimai yayımçının üzərinə düşür. Dövlət büdcəsindən maliyyələşən yayımçıların hamısı ictimai yayımçı funksiyası daşısa da, məhz seçkiqabağı təşviqat qanunla ictimai yayımçı kimi tanınan İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən həyata keçirilməlidir. Dövlətə məxsus olan yayımçılar vasitəsilə seçkiqabağı təşviqat aparılmır. İctimai yayımçı seçkiqabağı təşviqatı ödənişli əsaslarla aparmaq üçün ehtiyatda əlavə efir vaxtı saxlamalıdır. Qeydə alınmış bütün namizədlər üçün ödəniş həcmi və şərtləri eyni olmalı, bu barədə müvafiq məlumat seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunduğu gündən başlayaraq ən geci 30 gün ərzində dərc edilməlidir. İctimai yayımçının ödənişli istifadəyə təqdim edəcəyi ehtiyatda olan efir vaxtının ümumi həcmi Seçki Məcəlləsinin 80.5-ci maddəsinə uyğun olaraq ayrılan pulsuz efir vaxtının (3 saat) ümumi həcmindən az və həmin həcmdən iki dəfədən artıq ola bilməz. Qeydə alınmış hər bir namizəd üçün ehtiyatda saxlanmış efir vaxtından ödənişli əsaslarla istifadə norması onun ümumi həcminin qeydə alınmış namizədlərin ümumi sayına bölünməsi yolu ilə müəyyənləşdirilir.

Mətbuat Şurasının sədri Rəşad Məcid Azərbaycan mediasının zəngin seçki təcrübəsinə malik olduğunu deyib. O, eyni zamanda seçkiqabağı təşviqat, xüsusilə ödənişli və ödənişsiz təşviqatın aparılması ilə bağlı Mərkəzi Seçki Komissiyasının üzvlərinin fikirlərinə ehtiyac duyulduğunu qeyd edib.

Rəşad Məcid bildirib ki, media əvvəlki illərdə olduğu kimi, Azərbaycan xalqının həyatında mühüm rol oynayacaq 7 fevral seçkilərində də böyük məsuliyyətlə iştirak edəcək. Eyni zamanda sosial mediada hansısa namizədə qarşı saxta xəbərlərin yayıla biləcəyi şəksizdir. Peşəkar media belə hallarda məsələlərə vaxtında münasibət bildirməlidir.

"7 fevral bir müddətdən sonra Azərbaycan tarixinin ən əzəmətli bayram günlərindən biri olacaq. Bütün bu məsələlərdə, xalqımızın, seçicilərin çiyninə böyük məsuliyyət düşür. Bütün dünya görsün ki, Azərbaycan xalqı öz gələcəyinə biganə deyil. Heç şübhəsiz bu məsələlərdə Azərbaycan mediası ən öndə getməlidir", - deyə Mətbuat Şurasının sədri qeyd edib.

Sonra MSK üzvləri "Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqata dair ümumi tələblər, seçkiqabağı təşviqat subyektləri, onların hüquq və vəzifələri", "Ödənişli və ödənişsiz əsaslarla aparılan seçkiqabağı təşviqat prosesində media subyektlərinin rol və vəzifələri" mövzularında çıxış ediblər.

Təqdimatlar zamanı iştirakçılara həmçinin seçki prosesinin ictimailəşdirilməsi, aşkarlığın və şəffaflığın təmin olunması, eləcə də seçkiqabağı təşviqat mərhələsində və səsvermə günü medianın rol və vəzifələri barədə ətraflı məlumat verilib.

Təşkilatçı qurumların rəhbərləri və təmsilçiləri ilə yanaşı, aparıcı media subyektlərinin rəhbərlərinin və nümayəndələrinin də iştirak etdikləri müşavirə mövzular ətrafında fikir mübadiləsi və sual doğuran məsələlərin müzakirəsindən sonra işini başa çatdırıb.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Seçkilər İlham Əliyevə yüksək etimadın növbəti təntənəsi olacaq

**"Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə torpaqlarımızı işğaldan azad etdik və qalib xalqa çevrildik. Bununla da Azərbaycan yeni mərhələyə qədəm qoydu. Bu gün isə daha iri addımlarla yeni zəfərlərə doğru irəliləyirik. Biz bu mərhələdə dövlətçiliyimizi, müstəqilliyimizi daha da gücləndirməli və təhlükəsizliyimizi qorumalıyıq. Bu mənada fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri xüsusi əhəmiyyətə malikdir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, xalqımızın doğru seçimi bizi gələcəkdə təhdid edə biləcək məsələlərdən qoruyacaq. Xalqımız yenə də ən düzgün seçimini edəcək.

Ceyhun Məmmədov qeyd edib ki, bu, Zəfər seçkisidir, çünki ilk dəfədir ki, prezident seçkiləri ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş Azərbaycan torpaqlarında, bütün şəhər və rayonlarımızda keçiriləcək: "Bizə bu qələbəni yaşadanın isə Prezident İlham Əliyev olduğunu unuda bilmərik. Ulu Öndərin layiqli varisi İlham Əliyev son 20 ildə Azərbaycanın inkişafında müstəsna xidməti olan liderdir. Məhz onun rəhbərliyi ilə Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Bu gün azad və müstəqil bir dövlət kimi fəaliyyətimizi davam etdirdiyimizə, dünyada gündən-günə daha çox nüfuz sahibi olduğumuza görə İlham Əliyevə borcluyuq. Qarşıda isə hədəflərimiz və planlarımız var. Bu məqsədlərimizə nail olmaq üçün prezident seçkilərinin keçirilməsinə ehtiyac vardı".

Deputatın sözlərinə görə, 2024-cü ilin regionda kifayət qədər mürəkkəb olacağı ehtimal edilir: "Ona görə də bizim də dövlət olaraq daha ayıq-sayıq olmağımıza, düşünülmüş və ölçülüb-biçilmiş bir siyasət həyata keçirməyimizə ciddi ehtiyac var. Azərbaycan xalqı hər zaman öz Prezidentinin ətrafında sıx birləşib, vətəndaş mövqeyini ortaya qoyub. Biz əminik ki, budəfəki seçkilərdə də xalqımızın nümayəndələri öz vətəndaş borclarını ləyaqətlə yerinə yetirəcəklər".

Ceyhun Məmmədov əlavə edib ki, vətəndaşlarımız düzgün seçim edərək bizi daha böyük uğurlara, qələbələrə aparacaqlar. Ona görə də siyasi aktivlik nümayiş etdirilməli, prezident seçkilərində fəallıq göstərməliyik. Azərbaycan xalqı dövlətimizin parlaq gələcəyinə, inkişafına, ölkəmizdəki əmin-amanlığa, bir sözlə, yeni zəfərlərə səs verəcək.

Deputatın sözlərinə görə, fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri xalqın İlham Əliyevə ehtiram və etimadının növbəti sübutu olacaq. Bu, təsadüfi deyil, çünki artıq 20 ildən çoxdur Azərbaycanın bütün uğurları məhz Prezident İlham Əliyevin adı ilə birbaşa bağlıdır. Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycanda iqtisadi dayanıqlılığı təmin edən, vətəndaşların sosial rifah halını hər ötən il daha da yaxşılaşdıran, regionun ən güclü ordusunu quran və ən əsası Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad edən dahi şəxsiyyətdir.

## Yeni dövrün başlanğıcı

**"Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı ordumuz 44 günlük Vətən müharibəsində və sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərində Azərbaycanın çoxəsrlik tarixində ən böyük zəfərini qazandı. Uzun müddət işğal altında olan torpaqlarımız azadlığına qovuşdu, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Bu tarixi zəfərlərdən sonra Azərbaycanda yeni mərhələ başladı. Bu mərhələdə prezident seçkilərinin keçirilməsi tamamilə məntiqlidir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat digər seçkilərlə müqayisədə prezident seçkilərinin daha mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qeyd edib ki, dövlət başçısı İlham Əliyevin haqlı olaraq dediyi kimi, əgər seçkilər vaxtında keçirilməli olsaydı, deməli, bələdiyyə seçkiləri daha tez baş tutacaqdı. Ona görə də dövlət başçısı bütün ərazilərimizi əhatə edəcək ilk seçkinin məhz prezident seçkiləri olmasına qərar verib.

"Prezident deyib ki, bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq qələbəsidir. Dövlət başçısının sözlərinə görə, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyin tam bərpa olunması yeni dövrün başlanğıcıdır", - deyə Vüqar Bayramov bildirib.

Vüqar Bayramovun sözlərinə görə, azad edilmiş ərazilərimiz də daxil olmaqla bütün ölkəboyu keçiriləcək ilk prezident seçkiləri həm də tarixi əhəmiyyət daşıyır. Bu, iqtisadiyyatımızın, eləcə də regional geosiyasi və geoiqtisadi mövqeyimizin daha da gücləndirilməsi baxımından əla fürsətdir.

Deputat qeyd edib ki, 2023-cü ildə prezidentliyinin 20 ili tamam olan İlham Əliyevin rəhbərliyi ilə qarşıdakı illərdə yeni və dərinləşdirilmiş islahatlara start veriləcək: "Sözsüz ki, fevralın 7-nə təyin olunmuş növbədənkənar seçkilər Azərbaycan üçün yeni bir mərhələnin başlanğıcı olacaq. Əvvəlki mərhələyə də elə bu prezident seçkiləri ilə yekun vurulacaq. Dövlət başçısının müsahibədə dediyi kimi, prezident seçkiləri bu yeni dövrə xeyir-dua verəcək".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Müasir Azərbaycanın yeni inkişaf dövrü

### Xankəndi zəfəri ilə xalqımızın, dövlətimizin qarşısında parlaq üfüqlər açılıb



*Əvvəli 1-ci səh.*

Xocalıda, Ballıqayada, Ağdabanda, Başlıbeldə və digər neçə-neçə şəhər və kəndlərimizdə dinc sakinlərimizə qarşı soyqırımı törədən erməni canilər bir-bir həbs edilərək törətdikləri qaniçən əməllərin hesabını vermək üçün Bakıya gətirilərək ədalət məhkəməsinə çıxarılıblar.

Bir sözlə, Azərbaycan illər öncə qarşısına qoyduğu milli vəzifəsinə Xankəndi zəfəri ilə son nöqtəsini qoyub. "Qarabağ Azərbaycandır!" həqiqətindən güc alaraq və buna qarşı çıxan istənilən qüvvəyə qarşı layiqincə mübarizə apararaq, döyüşərək, çarpışaraq tarixi ədaləti bərpa edib.

Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziyalara verdiyi müsahibəsində də məhz bu məqama toxunaraq, "Biz əsas vəzifəni, siz də qeyd etdiyiniz kimi, bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz" söylədi.

Dövlət başçısı onu da qeyd etdi ki, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin elə bil ki, son nidası idi: "Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq".

### Hədəfə doğru inamla

Ancaq bu gün qürurunu, fəxrini yaşadığımız bu qələbələrə yetənə qədər xalqımız, dövlətimiz olduqca çətin, sınaqlarla dolu bir yol qət etməli oldu.

1993-cü, xüsusilə də 2003-cü ildən sonra ötən dövrə nəzər salanda görürük ki, torpaqlarının işğal altında olduğu, məcburi köçkünlük problemi yaşandığı və üstəlik də siyasi, diplomatik müstəvidə bəzi beynəlxalq qurum və ölkələrin qərəzi ilə üz-üzə qalaraq daim onlarla haqq işimiz uğrunda mübarizə apardığı dövrün özündə belə Azərbaycan bütün sahələrdə hərtərəfli inkişaf səviyyəsinə yüksəlib. Lakin o da danılmaz həqiqətdir ki, sözügedən problemlərin varlığı ölkəmizin daha sürətli inkişafına başlıca əngəl yaradırdı və dövlətimizin qarşısında duran bir nömrəli vəzifə də məhz bu maneələrin aradan qaldırılmasından ibarət idi. Məhz ötən 30 ildə bu milli hədəf istiqamətində böyük qətiyyət, əzm və iradə ilə dövlətimizin həm daxildə, həm beynəlxalq arenada apardığı məqsədyönlü fəaliyyət sayəsində bu gün artıq yuxarıda sadalanan problemlərin heç biri yoxdur və tamamilə həll edilib.

"Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi" deyən Prezident İlham Əliyev də müsahibəsində hesab etdiyini söylədi ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi: "Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni Heydər Əliyev siyasəti davam etdirildi".

### Dünyanın nüfuzlu ölkəsi

2020-ci il sentyabrın 27-də başlayan haqq işimizin öncə 8 noyabr Şuşa Zəfəri və onun uğurlu davamı kimi 2023-cü ildə Xankəndi Zəfəri ilə məntiqi sonluğuna yetirilməsi Azərbaycanın bütün parametrlərdə sürətli inkişafına birbaşa təkan verib, qarşıda yeni vəzifələrə, yeni hədəflərə yol açıb.

Hər zaman beynəlxalq arenada etibarlı və güvənilən tərəfdaş kimi tanınan, qlobal miqyaslı problemlərin həllinə mühüm töhfələr verən Azərbaycanın adı dünyanın nüfuzlu, eləcə də güclü ölkələri sırasında çəkilir. Təsadüfi deyil ki, bu gün istənilən beynəlxalq məsələ ilə bağlı Cənubi Qafqazın şəksiz lideri Azərbaycanın fikri öyrənilir, mövqeyi mütləq nəzərə alınır.

Təbii ki, Azərbaycanın əldə etdiyi bu qalibiyyətlər qardaş və dost ölkələri sevindirsə də, bunu həzm edə bilməyən bəzi xarici düşmənlərdən də xali deyilik. Xüsusilə də özlərini dünyanın "supergüc"ləri, "yenilməzlər"i sırasında hesab edən Qərb ölkələrinin timsalında ki bunların başında Fransa gəlir. Həmin ölkələr 30 illik işğal dövründə, eləcə də Vətən müharibəsi və ondan sonrakı zamanda, Xankəndi zəfərinə qədər, əllərindən gələn riyakarlığı, bədnamlığı etdilər ki, Azərbaycanı haqq yolundan döndərsinlər, amma bacarmadılar. Azərbaycan torpaqlarını işğaldan azad etdi, ərazi və suverenliyini tam təmin etdi. Özü də heç bir xarici siyasi təzyiqə boyun əymədən, öz gücü hesabına...

Azərbaycanın siyasi iradəsinə heç cür təsir göstərə bilməyən, qarşılarında daha 1990-cı illərin əvvəllərindəki yox, qüdrətli, güclü, onlara, sözün əsl mənasında, istənilən platformada meydan oxuyan qalib, Zəfər çalmış, yüksələn Azərbaycan olduğunu görən "demokratik" ölkələr isə indi qorxaqların getdiyi yollara əl atırlar. Bunu Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın Fransadakı abidəsinin təhqir olunmasının fonunda da aydın görmək olur...

"...Bu, deyə bilərəm ki, artıq kin, gücsüzlük və isterikanın özünü heykəldə göstərdiyi mənəvi deqradasiyanın dibidir", - deyə müsahibəsində Prezident İlham Əliyevin vurğuladığı kimi...

### Xalqımızın, dövlətimizin ən parlaq Qələbəsi

Müzəffər Lider, mahir siyasətçi, ən ümdəsi vətənpərvər şəxs olan İlham Əliyevin böyük əzm və qətiyyətinin nəticəsində son 20 il ərzində Azərbaycan siyasi, iqtisadi, hərbi, diplomatik, ümumiyyətlə, bütün sahələr üzrə möhtəşəm qələbələr, dövlətçilik tariximizdə bənzərinə rastlanmayan zəfərlər qazanıb.

Azərbaycan xalqı Şuşa, Xankəndi zəfərlərini yaşayıb, torpaq nisgilindən qurtulub, şəhidlərimizin qisasının alınmasından mənəvi rahatlıq tapıb.

Ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin təmin olunması, Xankəndidə bayrağımızın dalğalandırılması ilə tariximizin 30 illik bir dövrünə şanlı yekun vurulub, özündən sonra gələcək minilliklərə doğru parlaq yollar açıb.

Necə ki bunu Müzəffər Lider İlham Əliyev müsahibəsində bir daha dünyaya bəyan etdi: "Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar zəfər olmamışdır. Bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan xalqı qalib ölkənin prezidentini seçəcək

**Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, 2024-cü il fevralın 7-də ölkədə növbədənkənar prezident seçkiləri keçiriləcək. Təyin edilmiş prezident seçkiləri ölkə tarixinin ən qürurverici seçkisi kimi yadda qalacaq. Müstəqillik tariximizdə ilk dəfə olaraq, seçkilər bütün ölkə ərazisini əhatə edəcək.**

2020-ci ilin payızında 44 günlük İkinci Qarabağ müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tariximizə şanlı Zəfər salnaməsi yazdı. Şücaətli, qəhrəman Azərbaycan oğulları işğalçı Ermənistanın silahlı qüvvələrini cəbhədə, döyüş meydanlarında məğlubiyyətə uğratdılar. Otuz ilə yaxın yağıların əsarətində qalan Vətən torpaqlarına azadlıq bəxş olundu. Ancaq təcavüzkar düşmən Azərbaycanın Qarabağ bölgəsində məkrli əməllərini davam etdirdi.

Ötən ilin sentyabrında aparılan lokal xarakterli antiterror tədbirləri zamanı peşəkar Azərbaycan Silahlı Qüvvələri həmin ərazilərimizdə qalmış Ermənistan silahlı qüvvələrinin hissələrini və separatçıları məğlub etdi. Beləliklə, Azərbaycanın suverenliyi tam bərpa olundu. Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində qeyd etdi ki, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi: "İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır". Fevralın 7-nə təyin olunmuş prezident seçkiləri məhz belə bir vaxtda, müasir tariximizin yeni dövrünə qədəm qoymuş Azərbaycanda keçiriləcək.

Yerli televiziya kanallarına müsahibəsində ona ünvanlanan "Cənab Prezident, həmkarlar yəqin ki, Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı sualları davam etdirəcəklər. Amma mən mövzudan bir qədər kənara çıxmaq və bu gün ictimaiyyəti düşündürən digər bir mövzuya keçid almaq istərdim. Bu, növbədənkənar prezident seçkiləri ilə bağlıdır. Məlumdur ki, bu il fevralın 7-nə təyin olunub və müxtəlif fikirlər, müxtəlif versiyalar səslənir. Amma ən doğru cavabı Sizdən ala bilərik. Cənab Prezident, belə bir addımın atılmasını şərtləndirən əsas amillər nədən ibarətdir?" sualına cavabında dövlət başçısı məsələyə aydınlıq gətirərək əsas səbəbləri açıqladı. Qeyd etdi ki, birinci səbəb təbii ki, suverenliyimizin tam bərpasıdır, çünki seçkilər bir dövrə yekun vurur. Dövlət başçısı bildirdi ki, sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir: "Yəni Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar zəfər olmamışdır. Bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcı idi. Bu, birinci səbəbdir".

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində diqqətə çatdırdı ki, ikinci səbəb isə ilk dəfə olaraq, müstəqil həyatımızda seçkilərin ərazilərimizin hər bir yerində keçirilməsidir: "Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün mən hesab etdim ki, birinci bütün ərazilərdə keçiriləcək seçkilər prezident seçkiləri olmalıdır. Əgər biz seçkiləri vaxtında, yəni 2025-ci ilin aprelində keçirməli olsaydıq, o zaman bələdiyyə seçkiləri daha tez keçiriləcəkdi. Mən hesab etdim ki, bu, düzgün olmaz. Azad edilmiş ərazilərdə və ölkəmizin hər bir yerində prezident seçkiləri birinci seçkilər olmalıdır".

Dövlət başçısı İlham Əliyev qeyd etdi: "Digər səbəb ondan ibarətdir ki, mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik və 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur. Yəni əsas səbəblər bunlardır. Amma mən bu səbəbləri, bu sıralamanı əhəmiyyət üzrə etmişəm. Birinci səbəb, əlbəttə ki, yeni dövrün başlanğıcıdır və prezident seçkiləri bu yeni dövrə də xeyir-dua verəcəkdir".

Sevindirici, qürurvericidir ki, qarşıdan gələn növbədənkənar prezident seçkilərində Azərbaycan xalqı artıq dövlətinin ərazilərinin iyirmi faizi Ermənistanın işğalı altında qalmış xalq kimi iştirak etməyəcək. Dövlətinin ərazi bütövlüyü tam bərpa edilmiş qalib xalq olaraq seçkilərə gedəcək. Budəfəki prezident seçkiləri otuzillik işğalına son qoyulmuş, azad günlərinə qovuşmuş, düşmənin vurduğu yaraları sarınan, vandalların xarabalığa çevirdikləri yaşayış məskənlərində tikinti işləri aparılan, yeni yollar çəkilən, infrastrukturlar yaradılan Şuşada, Laçında, Xocalıda, Zəngilanda, Qubadlıda, Cəbrayılda, Kəlbəcərdə, Füzulidə, Xankəndidə və digər rayonlarımızda da keçiriləcək. Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Azərbaycan xalqı öz qalib ölkəsinin prezidentini seçəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*









# MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR

# "Karabakh"ın şəffaf şüşələri





## "Made in Azerbaijan" brendi ilə 14 ölkəyə ixrac edilir

*Əvvəli 1-ci səh.*

Azərbaycanda ilk dəfə termoformasiya üsulu ilə şüşə istehsalını həyata keçirən bu müəssisə üç ildir ki, davamlı olaraq, həftənin bütün günü 24 saat işləyir. Avtomatlaşdırılmış sistemdə istehsal prosesini dayandırmaq məqsədəuyğun hesab olunmur, çünki avadanlıqların dayandırılması itkilərə səbəb olur ki, o da əlverişli deyil.

Bu barədə bizə zavodun mütəxəssisləri məlumat verdilər. Müəssisəyə daxil olduqdan sonra ilk üz tutduğumuz otaq da gənc mütəxəssislərin yer aldığı istehsalın idarə edildiyi idarəetmə otağıdır.

### Şüşə necə istehsal edilir?

Kompüterlər üzərindən istehsal prosesini izləyərkən baş mühəndis Bəxtiyar İsakov məlumat verdi ki, idarəetmə prosesi soba və şüşə vərəqənin formalaşdırılması olaraq iki hissədən ibarətdir: "Ərimə, şüşənin formalaşdırılması, bunun üçün ətraf mühitin qorunmasının təmin edilməsi, bütün kimyəvi proseslər, şüşənin tərkibinin müəyyən olunması idarəetmə otağından idarə edilir. Şüşənin istehsal prosesi şüşənin əridilməsi, formalaşdırılması və kəsilib qablaşdırılması olmaqla üç mərhələdə həyata keçirilir. İlkin olaraq şüşənin tərkibi üçün metallar lazımi normada qarışdırılaraq "şıxda" tərkibinə gətirilir".

Mütəxəssis şüşənin tərkibinin "şıxda" adlandırıldığını qeyd edərək əlavə edir ki, o, ərinti halına gəldikdən sonra qalay vannasına axıdılır. Burada xüsusi termoformasiya üsulu ilə şüşənin qalay ərintisi üzərinə yayılaraq formalaşdırılması prosesi gedir. Bu prosesdə sifarişə uyğun olaraq 2-12 mm qalınlıqda dünya standartlarına cavab verən, tam şəffaf şüşələr istehsal edilir.

Kompüterdə istehsal prosesinə diqqət çəkən B.İsakov deyir ki, zavod gündəlik 250-300 ton olmaqla, illik 10 milyon kvadratmetrə qədər şüşə istehsal etmək gücünə malikdir.

Şüşələr formasını aldıqdan, kəsildikdən sonra isə robotlar vasitəsilə toplanılır.

Qeyd edək ki, avtomatlaşdırılmış proqram sistemi, avadanlıqlar Almaniya şirkəti tərəfindən quraşdırılıb və şüşə istehsalında ən son texnologiyadır.

Baş mühəndis bildirdi ki, zavodda gələcəkdə "Karabakh Glass" adı altında rəngli şüşələrin də istehsalı planlaşdırılır. Hazırkı avadanlıqlar buna imkan verir.

"Əsas məhsulun keyfiyyətinin yüksək olmasıdır" deyən B.İsakov vurğulayır ki, elə buna görə də zavodun istehsal etdiyi şüşəyə həm yerli, həm də xarici bazarda tələbat var. Hazırda "Karabakh Glass" şüşələri Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, İrlandiya, Polşa, Hollandiya və digər ölkələrə ixrac olunur.

### 15 il davamlı istehsala malik olan zavod

İdarəetmə otağından istehsal prosesini izlədikdən sonra prosesi bir də yaxından müşahidə etmək üçün istehsal otağına daxil oluruq. İdarəetmə otağından digər otağa açılan qapını keçəndə isti hava kütləsi ilə üzləşirik. Əraziyə daxil olduğumuz an temperaturun 40 dərəcədən yüksək olduğunu hiss edirik. Burada bizi istehsalın sobadan başlayaraq formalaşdırılmasına qədərki prosesinə cavabdeh olan baş mühəndis Okan Altındağ müşayiət edir. İçəridə temperaturun neçə dərəcə olduğunu soruşduğumuz zaman isə "İstilik 50-60 dərəcə üzərindədir. Yay aylarında daha yüksək olur", - deyə o, cavab verir.

Təbii ki, bu temperaturda qışda belə işləməyin çətin olduğunu düşünsək, əslində, sistemin avtomatlaşdırılması və bu baxımdan içəridə əl əməyinə o qədər də ehtiyac olmaması bizi qane etdi. Amma mühəndis qeyd etdi ki, bir neçə saatdan bir əraziyə nəzarət həyata keçirilir ki, hər hansı problem yaranmasın.

Metalların əridildiyi sobaya çatanda Okan Altındağ sözünə davam edir: "Şüşənin istehsalı zamanı yalnız təbii qazdan istifadə olunur. Saatda 2200 kubmetr yanacaq yandırılır. Mavi qazın fasiləsiz verilməsi vacibdir. Əks halda dizeldən istifadə etmək lazım gələr". O bildirir ki, şüşə istehsalında istifadə olunan əhəngdaşı Azərbaycan istehsalıdır, digər xammallar isə Rusiyadan idxal olunur. "Bu, 15 il dayanmadan, hər gün 24 saat işləyə bilən zavoddur" deyir baş mühəndis.

Daha sonra istini geridə qoyub şüşənin formalaşması və kəsim prosesinin baş tutduğu otağa daxil oluruq. Bu zaman istehsalda baş verən itkilərlə bağlı sualımızı cavablandıran Okan Altındağ qeyd edir ki, günlük istehsalın 280 tonu istismara verilsə də, 20 tona qədəri itki ola bilir. Yəni günlük tam istehsal 91-92 faizdir. Sözünə davam edən türkiyəli mühəndis bildirir ki, amma bu, itki sayılmır, çünki həmin şüşə parçaları avtomatik sistemlə yenidən sobaya qaytarılır və əridilərək istifadə olunur.



























### Robotların topladığı şüşələr

Günümüzdə bütün dünyada iqlim dəyişmələrinə təsir edən, hər kəsi narahat edən problemlərdən biri də müxtəlif sənaye zavodları tərəfindən havaya normadan artıq buraxılan karbon emissiyalarıdır. Son illərdə qlobal istiləşmənin qarşısının alınması istiqamətində müxtəlif ölkələr üzərlərinə müəyyən öhdəliklər götürürlər. Bu baxımdan bizi də müasir, tam avtomatlaşdırılmış, dünya standartlarına cavab verən zavodun ekologiyaya təsiri maraqlandırır. Baş mühəndis deyir ki, zavodda ekologiyaya ən az karbon emissiyası buraxan təbii qazdan istifadə olunur ki, bu da müəyyənləşdirilmiş ekoloji normalardan dəfələrlə azdır. Bundan başqa, zavodda su soyutma sistemlərindən istifadə olunur. Bu zaman isə ağlımıza ilk gələn, təbii ki, su israfı olur. Amma tam müasir müəssisədə bunun da həllinin mümkün olduğuna inanıb, nəzərimizi Okan Altındağa yönəldərək məsələnin izahını səbirlə gözləyirik. "Bu zaman qapalı sistemdə eyni su dövr edir. Ən az zərərlə işləyirik", - deyə o, vurğulayır.

Daha sonra Okan Altındağın da dediyi kimi, prosesin ən maraqlı mərhələsinə keçirik. Burada bizi robotlar qarşılayır. İstehsaldan çıxan şüşələri gözləyən robotlar həmin an şüşəni götürərək kənarda toplayırlar. Qablaşdırmadakı say da sistem üzərindən daxil edilir. Bu prosesi xeyli izlədikdən sonra kənarda qablara qoyulmuş şüşələrin diqqətimizi çəkdiyini görən baş mühəndis deyir ki, hazır məhsuldan bir neçə saatdan bir nümunələr götürülür.

Sistem kifayət qədər "ağıllı"dır. Yəni şüşədə olan ən kiçik defektləri aşkarlayaraq standartlara uyğun olub-olmadığını yoxlayıb şüşəni toplayır, əks halda isə məhsulu qırıcıya, oradan isə yenidən əritmə sobasına göndərir.

Robotların topladığı şüşələr isə digər tərəfdə qablaşdırılaraq, üzərlərinə tərkibləri, ölçüləri ilə bağlı məlumatlar və barkodları vurulur.

"AzerFloat" bu gün Azərbaycanın əsas şüşə istehsalçısı olmaqla yanaşı, yüksəkkeyfiyyətli, regional şüşə emalatçıları üçün əvəzolunmaz ünvana çevrilib. Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan zavod modern sənayenin bütün tələblərinə cavab verərək qeyri-neft sənayesinin inkişafına töhfə verən müəssisələrdəndir.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Yolumuz açıq olacaq



## Bakıda mükəmməl nəqliyyat sisteminin tətbiq edilməsi üçün tədbirlər görülür

**Nəhəng şəhərlərin və onların sakinlərinin sayı artdıqca, nəqliyyatın problemləri mütəxəssislərin və alimlərin diqqətini daha çox cəlb edir. Təsadüfi deyil ki, hazırda meqapolislərin böyük nəqliyyat sistemlərinin formalaşması ilə müvafiq təşkilatlar və hətta alimlər məşğul olurlar.**

Onlar tərəfindən meqapolislərdə nəqliyyat siyasətini mükəmməlləşdirmək üçün səmərəli addımlar atılır, ciddi yeniliklər tətbiq edilir. Bunların sayəsində sürətli və elektrikləşdirilmiş dəmir yollarının uzunluğu artır, yol örtüklərinin keyfiyyəti daha yüksək təhlükəsizlik tələblərinə cavab verir. Artıq bütün müasir şəhərdaxili yol layihələrində bir qayda kimi o nəzərə alınır ki, sərnişin yola 30 dəqiqədən artıq vaxt sərf etməsin. Bu, çox ciddi tələbdir. Məhz belə sərt tələblər ona imkan yaradır ki, müasir şəhərlər inkşaf etmiş nəqliyyat sistemləri ilə daha sürətlə təmin edilsin.

Bu gün dünyada müxtəlif nəqliyyat vasitələri - metropoliten, avtobus, taksi və şəhərətrafı nəqliyyat vasitələri geniş yayılmışdır. Bundan savayı, Londonda kanat yollarını, Moskvada trolleybus şəbəkələrini nümunə gətirə bilərik. Asiya şəhərlərində isə relslərin üstündə hərəkət edən nəqliyyat vasitələri daha yüksək reytinqə malikdir.

Onu da qeyd etmək lazımdır ki, planetimizdə müasir sürətli dəmir yollarının və avtomagistralların tikintisi nəqliyyat problemlərinin həllndə ciddi rol oynayır. Bundan başqa, əsas tendensiya şəxsi avtomobillərdən istifadənin azaldılmasına və elektrik enerjisi ilə işləyən nəqliyyat vasitələrinin artırılmasına köklənir. Məsələn, hətta Çində 2035-ci ilə kimi benzinlə işləyən maşınlara qadağaların tətbiq edilməsi gözlənilir. Başqa ölkələrdə də elektrik enerjisi ilə işləyən nəqliyyat vasitələrinin geniş istifadəsi istiqamətində addımlar atılır. Məsələn, Norveçdə elektromobil işlədənlərə müəyyən güzəştlər edilir. Bir sıra ölkələrdə isə velosipedlərdən istifadə stimullaşdırılır.

Bakı da qədim tarixi və unikal gözəlliyi ilə seçilən nadir şəhərlərin sırasındadır. Odur ki, paytaxtımızın mükəmməl nəqliyyat sistemi ilə təmin edilməsi günümüzün aktual məsələsinə çevrilmişdir. Faktiki olaraq Bakıda da şəhər nəqliyyatının inkişafı bütün dünyada olduğu kimi, yalnız paytaxta hesablanmır, həmçinin bütün ətraf məntəqələr nəzərə alınaraq inkişaf etdirilir. Bu gün əsasən ona diqqət yetirir ki, bir yaşayış məntəqəsindən digərinə hərəkət edərkən paytaxtın mərkəzi küçələrinə ağırlıq düşməsin, şəhər rahat nəfəs alsın. Ümumiyyətlə, Bakının nəqliyyat sisteminin təkmilləşdirilməsi zamanı müsbət dünya təcrübəsi nəzərə alınır. Həmin təcrübələri isə aşağıdakı qaydada sadalamaq mümkündür:

- sərnişin daşınmasının vahid sistemi elə təşkil olunur ki, sürət, təhlükəsizlik, sərnişindaşımanın həcminin artırılması önə çəkilir, nəqliyyat infrastrukturu faydalı mühəndis həlləri ilə təmin edilir;
- dövlət innovativ-investisiya layihələrinin həllində önə çıxır, nəqliyyat infrastrukturunun modernləşməsində, investisiyaların tətbiqində fəal mövqedə dayanır;
- paytaxtların və onların ətrafının bir-birinə bağlı olan vahid nəqliyyat siyasəti mükəmməl nəqliyyat mərkəzləri yaratmağa imkan verir və s.

Lakin bütün bunlara, o sıradan son illər ərzində paytaxtın nəqliyyat sisteminin inkişafı və küçə-yol şəbəkəsinin genişləndirilməsi istiqamətində bir sıra əsaslı tədbirlərin həyata keçirilməsinə baxmayaraq, ölkə iqtisadiyyatının sürətli inkişafı fonunda əhalinin nəqliyyat sisteminə artan tələblərinin qarşılanması və mövcud nəqliyyat problemlərinin həlli məsələləri paytaxtın nəqliyyat sistemində yeni yanaşmanın sürətləndirilməsini tələb edir. Paytaxtın ictimai nəqliyyat sisteminin daha təkmil inkişafı və genişləndirilməsi, nəqliyyat yerdəyişmələrinin təmin edilməsində ictimai nəqliyyatın xüsusi payının artırılması zərurətə çevrilir. Bu baxımdan paytaxtın baş planında metro nəqliyyatı sisteminin Bakı şəhərinin ictimai nəqliyyat sistemində aparıcı rol oynamaqda davam edəcəyi təsadüfi sayılmamalıdır. 2040-cı ilədək metro xətləri şəbəkəsinin ümumi uzunluğunun hazırkı 36,6 km-dən 73,4 km-ə, stansiyaların sayının isə 25-dən 46-ya çatdırılmasının nəzərdə tutulması da bu zərurətdən irəli gəlir.

Baş planda həmçinin dəmir yolunun da inkişafına önəm verilir. Belə ki, 2027-ci ilin sonunadək Abşeron yarımadasında 20 sərnişin stansiyasının yenidən qurulması, aktivləşdirilməsi və ya inşası nəzərdə tutulur. 2040-cı ilədək Abşeron yarımadası üzrə dəmiryol şəbəkəsinin ümumi uzunluğu 195,4 km-dən 338,6 km-ə, stansiyaların sayı isə 26-dan 54-ə çatdırılacaq. Bu və görülməsi planlaşdırılan digər tədbirlər isə o deməkdir ki, Bakının mükəmməl nəqliyyat sisteminə malik olan şəhərə çevrilməsi üçün bütün vacib addımlar atılır.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Azərbaycan Respublikası Prezidentinin seçkilərində seçkiqabağı təşviqata dair ümumi tələblər

**Azad, ədalətli və şəffaf seçkilərin keçirilməsi hər bir demokratik cəmiyyət üçün ali prinsipdir. Fikir və söz azadlığının təmin edilməsi bu mühüm meyarın həyata keçirilməsini şərtləndirən ən önəmli amildir desək, yanılmarıq. Bu mənada Azərbaycan Respublikasında mövcud olan seçki qanunvericiliyi sistemi olduqca mütərəqqi normalar müəyyən edir. Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə əsasən, hər kəsin fikir və söz azadlığı vardır. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz. Məhz konstitusiyanın bu norması seçki prosesində fikir və söz azadlığının təmin olunmasını ehtiva edən əsas konstitusion norma olmaqla yanaşı, passiv seçki hüququnun reallaşdırılması üçün də vacib bir vasitədir. Bu gün biz əminliklə deyə bilərik ki, söz və fikir azadlığının tam təmin olunduğu ölkəmizdə seçki qanunvericiliyi istər qeydə alınmış namizədlərin, istərsə də namizədi qeydə alınmış siyasi partiya, həmçinin siyasi partiya bloklarının öz seçkiqabağı təşviqat hüquqlarını da sərbəst həyata keçirməsi üçün çox geniş imkanlar təmin edir.**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin on üçüncü fəsli seçkiqabağı (referendumqabağı) təşviqata həsr olunub. Məlumdur ki, hər bir prosesdə olduğu kimi, seçkiqabağı təşviqat prosesində də bu hüququn reallaşdırılması aidiyyəti subyektlər tərəfindən həyata keçirilməlidir. Seçki Məcəlləsində prezident seçkiləri ilə əlaqədar bu subyektlərin dairəsinə prezidentliyə qeydə alınmış namizədlər, namizədi qeydə alınmış siyasi partiyalar və siyasi partiyaların blokları daxildir.

Aydın görünür ki, qanun seçkiqabağı təşviqat hüququna malik olan subyektlərin dairəsini kifayət qədər geniş müəyyən edir. Bu isə təbii ki, həmin subyektlərə seçki kampaniyasının sərbəst və effektiv aparılması yönündə öz töhfəsini verir.

Seçkiqabağı təşviqatda ən vacib məsələ bu prosesin necə və hansı qaydada həyata keçirilməsidir. Müasir seçki texnologiyaları baxımından yanaşsaq, deyə bilərik ki, təşviqatın üsul və qaydaları ayrı-ayrı ölkələrin qanunvericilik sistemində fərqli normalaşdırılsa da, prinsip etibarı ilə oxşardırlar. Azərbaycanın seçki qanunvericiliyi bu üsulları belə müəyyən edir:

- *media subyektləri vasitəsilə;*
- *kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s.) keçirilməsi yolu ilə;*
- *çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;*
- *qanunla qadağan edilməyən digər üsullarla.*

Media subyektləri vasitəsilə seçkiqabağı təşviqat açıq müzakirələr, "dəyirmi masa"lar, mətbuat konfransları, müsahibələr, çıxışlar, siyasi reklamlar, televiziya və radio verilişləri, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

Diqqətlə nəzər salsaq görərik ki, qanun yuxarıda sadalanan normaları müəyyən etməklə, passiv seçki hüququ subyektlərinə öz seçkiqabağı təşviqat hüquqlarını reallaşdırmaları üçün bütün mümkün imkanları tanımaqla kifayətlənməyərək, qanunla qadağan olunmayan digər üsullardan da istifadə etmək imkanı yaradır. Bununla yanaşı, onlara, yəni qeydə alınmış namizədlərə, namizədi qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına, referendum üzrə təşviqat qruplarına seçkiqabağı təşviqatın forma və üsullarını müstəqil müəyyənləşdirməyə icazə verir.

Bu məqamda haqlı olaraq belə bir sual yaranır: Seçkiqabağı təşviqat aparmaq hüququna malik subyektlərin dairəsi müəyyən edildiyi halda, bəs kimlər bu prosesdə iştirak edə bilməzlər?

Seçki Məcəlləsinin 74.4-cü maddəsinə əsasən aşağıdakılara seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması qadağan edilir:

- *xarici dövlətlərə və xarici hüquqi şəxslərə;*
- *xarici vətəndaşlara;*
- *vətəndaşlığı olmayan şəxslərə;*
- *18 yaşına çatmamış vətəndaşlara;*
- *seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxsinin nizamnamə kapitalında xarici dövlətlərin və xarici hüquqi şəxslərin, xarici vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxslərinə;*
- *beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;*
- *dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına;*
- *dövlət, bələdiyyə təşkilatlarına və idarələrinə;*
- *seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslərə;*
- *hərbi hissələrə;*
- *xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;*
- *aşağıdakı məlumatlardan hər hansı birini göstərməyən anonim ianə köçürənlərə (vətəndaş üçün - soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədinin seriyasını, nömrəsini, verilmə tarixini, yaşayış yerinin ünvanını, doğum tarixini, hüquqi şəxs üçün - vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, adını, qeydiyyat tarixini, bank rekvizitlərini, nizamnamə kapitalında dövlət və ya bələdiyyə payının olmasını, olduğu halda miqdarını, nizamnamə kapitalında xarici kapitalın pay miqdarını göstərməyənlərə və ya qeyri-düzgün göstərənlərə). Lakin göstərilən bu qadağalar tətbiq edilərkən Seçki Məcəlləsinin 12.2 və 12.3-cü maddələrinin tələblərini nəzərə almaq lazımdır. Belə ki, Azərbaycan Respublikasının seçki qanunvericiliyi ilə seçki hüququ olan və qanunun tələblərinə cavab verən, Azərbaycan Respublikasında 5 ildən az olmayaraq daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin prezident seçkiləri zamanı səsvermədə iştirak etmək hüquqları vardır.*

Məlumdur ki, azad, ədalətli və şəffaf seçki sisteminin tətbiqi istənilən halda inzibati resurslardan seçki prosesinə müdaxiləni əsaslı surətdə istisna edir. Seçki Məcəlləsinin 74.4.2-ci maddəsi müəyyən edir ki, öz vəzifələrini və ya xidməti vəzifələrini yerinə yetirərkən, həm də vəzifəsindən və ya xidməti üstünlüyündən istifadə etməklə dövlət orqanlarında, idarələrində, təşkilatlarında və ya bələdiyyə orqanlarında və təşkilatlarında vəzifədə olan şəxslər, dövlət və bələdiyyə qulluqçuları, hərbi qulluqçular seçkiqabağı təşviqat apara bilməzlər.

Seçki komissiyalarına münasibətdə seçki qanunvericiliyi onların tərəfsiz olmağını müəyyənləşdirir. Məhz buna görə qanun seçki komissiyalarına, seçki komissiyalarının həlledici səs hüquqlu üzvlərinə və digər vəzifəli şəxslərinə seçkiqabağı təşviqatın aparılmasını qadağan edir.



Seçkiqabağı təşviqat üçün müəyyən olunmuş qaydalara riayət edilməsi üçün, qanuna nəzarət funksiyasını Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış və əsasən jurnalistlərdən ibarət olan mətbuat qrupu həyata keçirir.

Seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Səsvermə günü və ondan əvvəlki gün hər hansı seçkiqabağı təşviqat aparmaq qadağandır. Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki məntəqəsi otaqlarının daxilində və xaricində yerləşdirilmiş seçkiqabağı təşviqat materialları səsvermə günü yığışdırılır.

Yuxarıda seçkiqabağı təşviqatın üsullarını sadalayarkən media subyektləri vasitəsi ilə bu hüququn reallaşdırılmasına toxunmuşduq. Tam anlaşılandır ki, seçkiqabağı təşviqatın üsulları arasında media vasitəsilə aparılan təşviqat öz populyarlığı ilə seçilir. İstər dünya, istərsə də ölkəmizin seçki təcrübəsinə nəzər salsaq görərik ki, seçki subyektləri tərəfindən bu üsula daha çox üstünlük verilir. Bu da təbii bir haldır. Ona görə Seçki Məcəlləsi seçkiqabağı təşviqat zamanı media subyektlərinin bir çox vəzifələrini müəyyən edir. Seçki Məcəlləsinin 77-ci maddəsinə əsasən, ictimai teleradio təşkilatları və ya dövri nəşrlərin redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olduqda və ya onlar dövlət büdcəsindən maliyyələşdirilərsə, ictimai teleradio təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara və siyasi partiyaların bloklarına seçkiqabağı proqramlarını təbliğ etməkdən ötrü, dövlət hakimiyyəti orqanlarının ayırdığı vəsait hesabına bərabər şərait yaradırlar. Göstərilən təşkilatlar qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının lehinə və ya əleyhinə öz təşəbbüsləri ilə seçkiqabağı təşviqat apara bilməzlər. Dövlətə məxsus olan teleradio verilişləri təşkilatları vasitəsilə isə seçkiqabağı təşviqat aparılmır.

Prezident seçkilərində Seçki Məcəlləsi ilə müəyyən olunmuş audiovizual media vasitəsilə aidiyyəti seçki subyektlərinə seçkiqabağı təşviqat aparmaq üçün şərait yaradılması vəzifəsi müəyyən edilmişdir. Bu vəzifə yalnız ödənişsiz əsaslarla həyata keçirilən seçkiqabağı təşviqata aiddir.

Seçkiqabağı təşviqat kampaniyası aktiv və passiv seçki hüququ subyektlərinin təması baxımından, demək olar ki, həlledici mərhələdir. Ona görə də əksər ölkələrin seçki qanunvericiliyində olduğu kimi, respublikamızda mövcud olan və seçki hüquq münasibətlərini tənzimləyən qanunvericilik aktlarında da seçkiqabağı təşviqat aparmaq imkanları əhatəli şəkildə ehtiva olunur. Ödənişli əsaslarla aparılan seçkiqabağı təşviqat buna bariz misal ola bilər. Bu cür seçkiqabağı təşviqata yer ayrılması, ödənişsiz əsaslardan fərqli olaraq media subyektlərinin hüququdur. Lakin qanun bu hüquqla yanaşı, namizədlərin və digər seçki subyektlərinin bərabər hüquqlarını nəzərə alaraq, imkanların da eyni əsaslarla təmin olunması vəzifəsini media subyektlərinin üzərinə qoyur.

Ödənişli əsaslarla seçkiqabağı təşviqat həm Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş, təsisçiləri dövlət orqanları, təşkilatları və idarələri olan, həmçinin dövlət büdcəsindən maliyyələşən media subyektləri vasitəsilə, həm də özəl media subyektləri ilə aparıla bilər. Müqavilə əsasında ödənişli efir vaxtı və dövri nəşrlərdə yerlərin verilməsinin dəyəri ödənilir. Ödənişin məbləği və şərtləri müvafiq olaraq qeydə alınmış bütün namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları üçün eyni olmalıdır.

Seçki Məcəlləsi ilə müəyyən edilmiş müvafiq media subyektləri efir vaxtının verilməsinin və dövri nəşrlərdə yer ayrılmasının mümkünlüyü barədə qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiyaların bloklarına və Mərkəzi Seçki Komissiyasına bildirişlə yanaşı, ödənişin məbləği barədə məlumatı da seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərcindən sonra ən geci 30 gün keçənədək dərc etməlidirlər.

Özəl media subyektləri və çap mediası seçkiqabağı təşviqat materiallarını dərc etməkdən imtina edə bilərlər. Onlar bu fəaliyyətə məcbur edilə bilməzlər. Lakin bu cür materiallar dərc edilirsə, dərc edilmə şərtləri bütün namizədlərə və digər aidiyyəti subyektlərə münasibətdə eyni olmalıdır.

Qanunun eyni qaydada və bərabər əsaslarla tətbiqini təmin etmək baxımından seçkiqabağı təşviqatın aparılmasına nəzarət funksiyasına əsasən, qanunla səlahiyyətləndirilmiş media subyektləri qeydə alınmış namizədlərə, siyasi partiyalara və siyasi partiyaların bloklarına və digər seçki subyektlərinə pulsuz və ya pullu efir vaxtı və ya dövri nəşrlərdə yer ayrılması ilə əlaqədar efir vaxtının və ya dövri nəşrlərdə yerin həcminin və dəyərinin qeydiyyatını aparmalı və bu qeydiyyat barədə səsvermə gününə azı 5 gün qalmış və səsvermə günündən ən tezi 5 gün sonra onların qeydiyyatını həyata keçirən seçki komissiyasına məlumat verməlidirlər.

Həmçinin müvafiq sorğuya əsasən qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları ödənişli efir vaxtının və dövri nəşrdə yerin dəyərinin ödənilməsinə razılığı təsdiq edən sənədləri müvafiq seçki komissiyasına təqdim etməyə borcludurlar.

Yuxarıda seçkiqabağı təşviqatın aparılması ilə bağlı məsələləri şərh edərkən qeyd etmişdik ki, aidiyyəti seçki subyektləri müvafiq media subyektlərində öz seçkiqabağı təşviqat hüquqlarını həyata keçirərkən qanunla dövlətin onlara pulsuz əsaslarla yaratdığı imkana sahibdirlər. İndi isə həmin hüququn verilməsi şərtlərinin nədən ibarət olmasına dair məqamları bildirmək yerinə düşərdi. Belə ki, Seçki Məcəlləsinin 80-ci maddəsinə əsasən, prezident seçkilərində bu hüquq prezidentliyə qeydə alınmış namizədlərə tanınır. Seçkiqabağı təşviqat prosesi başlandıqdan sonra bir həftə müddətində, qeydə alınmış namizədlər arasında, onların verdikləri ərizə əsasında, Seçki Məcəlləsinin 80.7-ci maddəsinə uyğun olaraq, ayrılmış pulsuz efir vaxtının bölgüsü məqsədi ilə püşkatma keçirilir. Seçki Məcəlləsinin tələblərinə əsasən pulsuz efir vaxtının verilməsi üçün konkret müddət müəyyən olunur. Qanun bu müddəti müəyyən etməklə, media subyektlərinə seçkiqabağı təşviqatın aparılması ilə bağlı şəxsi mülahizələrə yol verməmələrini təlqin edir. Seçki Məcəlləsinin 80.5-ci maddəsində göstərilir ki, aidiyyəti media subyektlərinin seçkiqabağı təşviqat üçün ayırdıqları pulsuz efir vaxtının ümumi həcmi 3 saatdan az olmamalıdır. Ödənişli əsaslarla fəaliyyət göstərən müvafiq media subyektlərinin isə pulsuz efir vaxtının ümumi həcmi həftədə 1 saat 30 dəqiqədən az ola bilməz. Həmin təşkilatların verilişlərinin ümumi vaxtı gün ərzində 2 saatdan az olarsa, göstərilən efir vaxtı verilişlərin ümumi həcminin 1/4 hissəsindən az olmamalıdır. Pulsuz efir vaxtı daha geniş auditoriyanın baxması mümkün olan vaxtda ayrılmalıdır.

Audiovizual mediada seçkiqabağı təşviqatın ödənişli əsaslarla aparılması qanunla müəyyən olunmuş şərtlər daxilində baş verir. Belə ki, bu hüququn əldə olunması üçün ilkin şərt tərəflər arasında bağlanan mülki müqavilə əsasında yaranır. Daha sonra tərəflər arasında mövcud olan müqaviləyə və seçki qanunvericiliyinə əsasən, digər şərtlərin dairəsi müəyyənləşir. Həmin şərtlərin pozulması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləsinə uyğun olaraq, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının seçkiqabağı proqramında, yığıncaqlarda, media subyektlərində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr olmamalıdır. Lakin bu məhdudiyyət Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsində təsbit edilmiş fikir və söz azadlığının məhdudlaşdırılmasına səbəb ola bilməz.

Seçkiqabağı təşviqat aparılarkən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat aparılarsa, bu Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə müəyyən olunmuş məsuliyyət yaradır.

Seçkiqabağı təşviqat hüququnun reallaşdırılmasında aidiyyəti seçki subyektlərinin mülki qanunvericiliyin tələblərindən və əqli mülkiyyət hüququnun qorunmasına dair müvafiq normativ hüquqi aktdan irəli gələn məsələlərə diqqət etməsi olduqca vacibdir. Belə ki, seçkiqabağı təşviqatın aparılması zamanı bilavasitə, yaxud dolayısı ilə seçicilərin hər hansı üsulla ələ alınması qadağandır və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Göründüyü kimi, seçkiqabağı təşviqat hüququ ilə bağlı çox mühüm normaları təsbit edən seçki qanunvericiliyi, ilk dəfə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki subyektlərinin fəaliyyəti üçün hərtərəfli şərait və geniş imkanlar yaradır.

*Qabil ORUCOV,*
*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü*

# ATƏT nümayəndələri Bərdədə seçkilərə hazırlığın gedişi ilə tanış olublar

**Son 30 ildə ilk dəfədir ki, respublikamızda prezident seçkiləri ölkəmizin ərazi bütövlüyü şəraitində keçirilir. 44 günlük müharibənin və bir günlük uğurlu antiterror əməliyyatının parlaq qələbə, tarixi zəfər soraqlı nəticəsinin doğurduğu yüksək əhvali-ruhiyyə, yaratdığı xoş ovqat hələ də vətənsevdalı könüllərin təsəllisidir.**

İşğaldan azad edilmiş ərazilərdə aparılan möhtəşəm quruculuq işləri Ermənistan silahlı qüvvələrinin analoqu olmayan vandallıqla dağıtdıqları, viran qoyduqları kəndlərin, şəhərlərin xarabalıqları üzərində ucaldılan müasir tipli "ağıllı" yeni yaşayış məntəqələri, uğurla reallaşan nəhəng infrastruktur layihələri xalqımızın qələbəyə köklənmiş əhvali-ruhiyyəsinə yeni çalarlar qatır.

Xalqımız qarşıdakı 7 fevral növbədənkənar prezident seçkilərinə qalib, qurucu, sülhpərvər əhvali-ruhiyyə ilə gedir. Bu seçki həm də ən yaxın keçmişin hesabatı olacaq, qarşıdakı hədəflərimizi müəyyən edəcəkdir.

Biz dünyanı heyrətə salan yeni müharibə qaydaları ilə 30 il işğalda inləyən Qarabağı azad etdik. İndi isə Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq. Gündəmdə isə 7 fevral növbədənkənar prezident seçkilərini yüksək səviyyədə, azad, demokratik və şəffaf keçirilməsini təmin etmək kimi son dərəcə məsul və şərəfli vəzifə durur.

Ölkəmizin bütün bölgələrində seçkilərə hazırlıq Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun qaydada davam etdirilir. Dairə və məntəqə seçki komissiyaları növbədənkənar prezident seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planına uyğun fəaliyyət göstərirlər.

99 saylı Bərdə şəhər Seçki Dairəsində də işlər ahəngdar gedir. Dairə seçki komissiyasının sədri Dilsuz Nəcəfov söhbət zamanı bildirdi ki, dairə 58 məntəqəni əhatə edir. Məntəqələrin texniki təminatı yüksək səviyyədədir. Seçki məntəqələrinin 17-si şəhərdə, 41-i isə kəndlərdə yerləşir. 11 məntəqədə VEB kamera quraşdırılıb. Bütün məntəqələr zəruri inventarlarla təmin edilib və telefonlaşdırılıb.

Dilsuz Nəcəfov Dairə Seçki Komissiyasının tərkibindən danışarkən onu da bildirdi ki, 9 nəfərdən ibarət komissiyada 3 nəfər Yeni Azərbaycan, 3 nəfər parlamentdə azlıqda olan Böyük Qurtuluş, Bütöv Azərbaycan Xalq Cəbhəsi və Real partiyalarını təmsil edir. Öyrəndik ki, son məlumata görə, dairə üzrə seçicilərin sayı 51.669 nəfərdir. Seçici siyahıları diqqətlə araşdırılır. Ərazidə yeni qeydə alınan, yaxud köçüb başqa yerlərə gedən vətəndaşların adları dəqiqləşdirilir. Bu isə o deməkdir ki, seçici sayı dəyişə bilər.

99 saylı Bərdə şəhər Seçki Dairəsində hazırlıq işlərinin gedişi ilə tanış olarkən burada ATƏT-in ölkəmizdəki uzunmüddətli missiyasının nümayəndələri ilə görüşdük. ATƏT-i təmsil edən beynəlxalq müşahidəçilər - Varela Serra Ella, Speldel Juergen seçki hazırlığı mühiti ilə tanış olmaq üçün rayonlara səfər etmişdilər. Avropalı qonaqlar dairə seçki komissiyasının üzvləri ilə görüşdə məntəqələrdəki mövcud vəziyyətlə tanışlığın təəssüratlarını bölüşdülər, faydalı təkliflər verdilər. Onlar seçkilərə hazırlıq prosesinin yüksək səviyyədə getdiyini bildirdilər, demokratik tələblərə əməl olunduğunu vurğuladılar.



*Lazım QULİYEV,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

"Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir. Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda fədakarlıq göstərmişlər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



Dövlət başçısı İlham Əliyev 20 illik prezidentlik dövründə daim şəhid ailələrinin, müharibə əlillərinin yanında olub. Ümumxalq məhəbbəti qazanan İlham Əliyev hamı tərəfindən sevilir. Prezident İlham Əliyevin şəhid ailələrinə olan diqqət və qayğısı vətənin müdafiəçilərinə necə böyük önəm verdiyini bir daha göstərir.

## Zəfərə görə şəhidlərə minnətdarıq

Tez-tez şəhid ailələri ilə görüşən Prezident İlham Əliyev çıxışlarında Vətənin azadlığı uğrunda canından keçən oğulların döyüşlər zamanı göstərdiyi qəhrəmanlığı yüksək dəyərləndirir. Şəhidlərdən, onların nakam həyatlarından danışarkən Prezident kövrəlir, şəhid ailələrinin ağrı-acılarını bölüşür. Onların kədərlərini yüngülləşdirməyə, dərdlərinə şərik olmağa çalışır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər görülür. Şəhid ailələrinə sosial qayğı təkcə mənzil və avtomobil təminatı ilə bitmir. Bu kateqoriyadan olan insanların sağlamlıqlarının bərpası, daimi iş yerləri ilə təminatı məsələsi də dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edir.

Dövlət başçısı İlham Əliyev Vətən müharibəsinin davam etdiyi günlərdə də şəhid ailələrini, qaziləri tək qoymadı. Hospitallara, xəstəxanalara gedib yaralılarla görüşdü, onların qayğılarına qalmaq üçün müvafiq tapşırıqlar verdi. Prezidentin şəhid ailələri ilə görüşləri, çıxışları cəmiyyət tərəfindən də böyük sevgi və rəğbətlə qarşılanır. Prezident İlham Əliyev şəhid ailələri ilə görüşərkən yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıqlar göstərərək canlarından keçmiş oğulların fədakarlığını yüksək dəyərləndirərək demişdir: "Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır. Çünki canını fəda edir ki, torpaqlar azad olunsun və ədalət bərpa olunsun, xalqımızın ləyaqəti bərpa olunsun. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib".

Prezident İlham Əliyev Vətən üçün cəsur övladlar böyütmüş valideynlərə minnətdarlıq edir, onlara dərin hörmətini bildirir.

Azərbaycan Prezidenti İlham Əliyev bundan sonra da şəhid ailələrinin yanında olacaq, onlara daim diqqət və qayğı göstərəcək. Tam inamla deyə bilərik ki, bu gün cəmiyyətdə böyük nüfuz sahibi olan, xalqın böyük sevgisini qazanmış dövlət başçısı fevral ayının 7-də keçiriləcək prezident seçkilərində rəqiblərini arxada qoyaraq qalib gələcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Tədbirlər, görüşlər, təltiflər

## "44 günlük müharibədə Azərbaycan Ordusu qəhrəmanlıq göstərdi"

**Bu sözləri Türkiyənin milli müdafiə naziri Yaşar Gülər bir qrup azərbaycanlı Vətən müharibəsi iştirakçısı ilə görüşü zamanı söyləyib.**



Qırx dörd günlük müharibədə Azərbaycan Ordusu yüksək fədakarlıq, qəhrəmanlıq göstərdi. Azərbaycan türkü təxminən 30 il ərzində həlli dondurulmuş, sinəsində qanayan yara olan Qarabağın azadlığı üçün üzləşdiyi çətinliklər qarşısında əyilmədi, əcdadımıza yaraşan şəkildə vətəninə, xalqına, hüququna və öz torpaqlarına sahib çıxdı.

Nazir bildirib ki, bu böyük Qələbə sadəcə Ermənistan üzərində qazanılan Zəfər deyil, eyni zamanda illərboyu haqsızlığa, hüquqsuzluğa göz yumanlara, səssiz qalanlara ən gözəl cavabdır.

"Azərbaycanın Zəfəri Türk tarixinə də yazıldı. Türkiyə olaraq davamlı sülh üçün üzərimizə düşən bütün səyləri göstərdik, bundan sonra da qərarlı bir şəkildə bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik. Vətən müharibəsində olduğu kimi, bundan sonra da hər zaman can Azərbaycanın yanında olacağıq",- deyə Y.Gülər vurğulayıb.

## Azərbaycanın Türkiyədəki səfirliyində Vətən müharibəsi iştirakçıları ilə görüş

**Türkiyə Müharip Qazilər Dərnəyinin dəvəti və "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin təşkilatçılığı ilə qardaş ölkədə səfərdə olan bir qrup Vətən müharibəsi qazisi ilə ölkəmizin Türkiyədəki səfirliyində görüş keçirilib.**



Səfirlik nəzdindəki Hərbi Attaşelik Aparatının əməkdaşlarının, eləcə də Türkiyə Müharip Qazilər Dərnəyinin nümayəndələrinin də iştirak etdiyi görüşdə müşavir Eldar Əliyev və hərbi attaşe general-mayor Müşfiq Məmmədov qonaqları salamlayaraq, qazilərin 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlığı vurğulayıb, onların şücaətinin hər bir Azərbaycan gənci üçün nümunə olduğunu bildiriblər.

Görüş zamanı Azərbaycan dövlətinin qazilərə göstərdiyi yüksək diqqətdən danışılaraq, bir çox hərbçimizin məhz qardaş Türkiyədə müalicə aldığı qeyd edilib.

Səmimi şəraitdə keçən görüşdə qazilər də öz fikirlərini səsləndirərək dövlətin onlara qayğı və diqqətindən razılıqlarını ifadə ediblər.

## Qarabağ müharibəsi qəhrəmanlarının övladları "Ədibin Evi"ni ziyarət ediblər

**"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Qarabağ müharibəsində qəhrəmancasına həlak olan hərbçilərimizin övladları bu günlərdə "Ədibin Evi"ni ziyarət ediblər.**



Burada onlar üçün keçirilən "Yaradıcı təfəkkürümüzü inkişaf etdirək" adlı seminarda məktəblilər İçərişəhərdəki "Ədibin Evi"ndə 1929-1940-cı illərdə yaşayan görkəmli Azərbaycan yazıçısı, alimi və pedaqoqu Mir Cəlalın həyat və yaradıcılığı ilə tanış olub, Azərbaycan ədəbiyyatında hekayə janrı barədə müzakirə aparıb, özlərini kiçik hekayə yazılışında sınayıblar.

Seminarı aparan "Ədibin Evi"nin icraçı direktoru Şəfəq Mehrəliyeva vurğulayıb ki, məktəblilərin valideynləri Vətən uğrunda canlarından keçərək müasir Azərbaycanın ən şanlı tarixi hekayəsini yazdılar. Yeni tariximizin uğurlarını davam etdirmək missiyası indi onların övladlarına keçir.

İştirakçılar "Ədibin Evi"ndən xatirə hədiyyələri ilə ayrılıblar.

## Azərbaycan Ordusunda məharət dərəcələrinin verilməsi üzrə sınaq imtahanları keçirilir

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına əsasən, zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına məharət dərəcələrinin verilməsi üzrə sınaq imtahanları keçirilir.**



İmtahanlar Azərbaycan Ordusunun müxtəlif təlim mərkəzlərində sinif otaqları və çöl-səhra şəraitində keçirilir. Sınaqlara cəlb edilən şəxsi heyətin ümumqoşun nizamnamələri, həmçinin rəhbəredici və digər normativ sənədlərlə bağlı bilikləri, fiziki və sıra hazırlıqları yoxlanılır.

Eyni zamanda hərbi qulluqçular silahlanmada olan döyüş texnikasının ştat silahından və atıcı silahlardan təyin edilmiş hədəflərə müxtəlif məsafələrdən atəş açılması, eləcə də döyüş maşınlarının və avtomobil texnikasının idarə edilməsi üzrə yoxlama tapşırıqlarını yerinə yetirirlər.

Şəxsi heyətin döyüş hazırlığının, ixtisaslara uyğun bilik və bacarıqlarının yoxlanılması, həmçinin peşəkarlığının qiymətləndirilməsi məqsədilə keçirilən imtahanlar davam edir.

● Tarix yazan oğullar

## Onun ən böyük arzusu torpaqlarımızın azadlığı idi

O, Əliyevlər ailəsinin yeganə oğlu idi... Yayda toyunu eləmək, evə gəlin gətirmək istəyirdilər... Şamaxı Rabitə Kollecində təhsil alan İradə adlı bir qızla bir-birinə könül vermişdilər. Lakin həyat axarındakı qəfil dəyişiklik hər şeyi alt-üst etdi - bir ömür yarıda qırıldı, digərini sonsuz dərd, nisgil ağuşuna aldı... Ürəyindəki Vətən eşqi digər sevgilərə üstün gəldi.



44 günlük qalibiyyət dolu Vətən savaşımızın qəhrəman şəhidi Əliyev Rauf İlyas oğlu 1993-cü il fevralın 11-də Şamaxı şəhərində doğulub. 1999-cu ilin sentyabrından şəhid Elşən Hüseynov adına Şamaxı şəhər 2 saylı tam orta məktəbdə oxuyub. 2004-2008-ci illərdə Şamaxı İmadəddin Nəsimi adına 1 saylı musiqi məktəbində tar ixtisası üzrə təhsil alıb, sonra Sumqayıt şəhər Soltan Hacıbəyov adına Musiqi Kollecinə qəbul olunub. 2012-ci ildə kolleci bitirərək oktyabrın 10-da həqiqi hərbi xidmətə çağırılıb. Əmək fəaliyyətinə 2015-ci il yanvarın 5-dən Qobustan şəhər Rəşid Behbudov adına Uşaq İncəsənət Məktəbində başlayıb.

Azərbaycan xalqı şəhadət şərbətini 1990-cı ilin 20 Yanvarında içdi və imperiya qandallarını qıraraq əbədi dövlət müstəqilliyi qazandı. Lakin düşmənlərin təcavüzkar siyasətinin bir hissəsinin acı nəticəsi olan Qarabağ münaqişəsi 30 il idi ki, ərazilərimizin iyirmi faizində bu suverenliyin bərpası və Əsas Qanunumuzun işləməsinin qarşısını alırdı.

Nəhayət, Prezident İlham Əliyevin qətiyyəti və xalqımızın şəhidpərvərliyindən qaynaqlanan 2020-ci ilin 27 sentyabr - 10 noyabr təntənəli Zəfər yürüşü erməni işğalına birdəfəlik son qoydu. Hələ bu tarixə qədər də - 2016-cı ilin aprelində Lələtəpə-Cocuq Mərcanlıda, 2020-ci ilin iyununda Tovuzda - dəfələrlə xain hücuma keçən yağı düşmən geri oturduldu. Artıq Birinci Qarabağ savaşından xeyli vaxt keçmişdi, igid övladlar böyüyüb şəhid atalarının qisasını alırdılar. Əlavə olaraq, yeni bir müqəddəs ənənə də formalaşmışdı: gənclər şəhid Mübarizi, Fəridi, Raqufu, Poladı həyat amalı seçərək onların yolu ilə gedir, müqəddəs cihadın başlanacağı günü səbirsizliklə gözləyir, fürsət düşəndə düşmənə divan tuturdular.

Bu barədə anası Səbinə xanım danışır: "21 sentyabr 2020-ci il tarixdə Silahlı Qüvvələrin hərbi təlim, yoxlama və xüsusi toplanışına çağırılmışdı. Qapıdan çıxanda qarşısını kəsdim, dedim, ay oğul, 3 ildir nişanlısan, toyun yubanır, görüləsi başqa işlərimiz də var, bəlkə getməyəsən... Cavab verdi ki, ana, nə danışırsan, toy gözləyər, Vətən dardadır, Polad Həşimov kimi generalımız şəhid oldu, biz kimik?.."

Yeganə oğul itkisinin ailəyə, xüsusən valideynlərə hansı zərbəni vurduğunu anlamaq çətin deyil. Atası İlyas dayının beli bükülüb, səhhətində müxtəlif problemlər yaranıb, geniş dünyagörüşə malik, dərin adam olsa da, çox danışmağı sevmir, dünyanın ən ağır yükünü ürəyində daşıyır...

Rauf Milli Ordu sıralarında, cəbhə bölgəsində - Ağdamın Yusifcanlı kəndindəki "N" saylı hərbi hissədə xidmət keçir. Bacarıqlı əsgər kimi bölükdə 2012-ci ilin oktyabrında baş atıcı, 2013-cü ilin yanvarında heyət nəfəri, aprelin 2-də məsafə ölçən, oktyabrın 10-da isə manqa komandiri vəzifələrinə təyin olunur. Kəşfiyyatçı koordinator olan çavuş Rauf Əliyev 2013-cü ilin noyabr ayında düşmənin törətdiyi təxribat zamanı öz əsgərlərini qoruyaraq ayağından və kürəyindən yaralanır. Həqiqi hərbi xidmətini 2014-cü il aprelin 3-də təltiflərlə başa vuraraq tərxis edilir...

Uşaqlıq dostu Kamran Kərimov, cəbhə yoldaşları Kamil Vahabov, Abuzər Əliyev və Əhəd Şahverdiyev də şəhidimiz barədə ürək yanğısı, amma qürurla söhbət açdılar: "Vətən müharibəsinin ilk günlərində birlikdə döyüşmüşük. Rauf öndə hərəkət edən kəşfiyyat qrupuna könüllü qatılaraq Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə fəal iştirak etdi. Talış yüksəkliyi və Suqovuşanın azad olunmasında böyük qəhrəmanlıq, şücaət göstərmişdir. İgid döyüşçü, sədaqətli dost idi... Ərazidə "Ağ uçuq" deyilən meşə sahəsi vardı, orada düşmənin minamyot atəşinə düşdü... Bir təsellimiz var ki, işğaldan azad olunmuş Vətənin səmasında azad dolaşan ruhu şaddır!"

Rauf Əliyev 2020-ci il sentyabrın 30-da günorta saatlarında şəhidlik zirvəsinə ucalaraq, oktyabrın 1-də Şamaxı Şəhidlər xiyabanında torpağa tapşırıldı. Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olundu.

*Qurban MƏMMƏDOV*

● Ölməzliyə qovuşanlar

## Düşmən Azərbaycan əsgərinin gücünü gördü

Torpaq yolunda şəhid olanlar heç vaxt unudulmur, heç vaxt yaddan çıxmır. Xalq belə cəsur oğul və qızlarını daim hörmətlə anır, ehtiramla xatırlayır. Əsgər Kərimli Orxan Akif oğlu da 19 yaşında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Ürəyi Vətən eşqi ilə döyünən Orxan lap gənc yaşlarından yurdunun müdafiəsinə atılıb.




27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində Vətən müharibəsi başlayanda Orxan Kərimli əsgər idi. "N" hərbi hissəsində xidmət edir, Vətən qarşısındakı övladlıq borcunu ləyaqətlə yerinə yetirirdi. Keçirilən təlim-məşqlərdə fəal iştirak edir, hərbi bilik və döyüş vərdişlərini böyük həvəslə öyrənirdi. Sentyabr ayının son günlərində erməni işğalçıları yeni ərazilərimizi zəbt etmək üçün qəflətən mövqelərimiz üzərinə hücuma keçdilər. Orxanın xidmət etdiyi hərbi hissənin şəxsi heyətini də döyüşlərə cəlb etdilər...

Kərimli Orxan Akif oğlu 6 oktyabr 2001-ci ildə Göyçay rayonunda anadan olmuşdu. 2007-ci ilin sentyabrında şəhərdəki 7 nömrəli məktəbdə oxumağa başlamışdı. 2018-ci ildə Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinə qəbul olunmuşdu.

Birinci kursu bitirdikdən sonra Orxan Kərimli hərbi xidmətə çağırılmışdı. "N" hərbi hissəsində xidmətə başlamışdı. Üç ay təlim keçib, hərbi biliklərə və silahların sirlərinə yiyələnmişdi. Artilleriya qurğularının sirlərini dərindən öyrənmişdi. Bir müddətdən sonra Tovuz döyüşləri başlamışdı. Hərbi hissələrinə "həyəcan" çağırışı verilsə də, şəxsi heyət döyüşə cəlb olunmamışdı.

Orxangili döyüşlərə 44 günlük Vətən müharibəsi başlayanda cəlb etdilər. Onların hərbi hissələrinin zabit və əsgərləri Kəlbəcər istiqamətində, Murovdağ uğrunda vuruşurdular. Müharibə başlayan gündən Orxan artilleriya qurğusundan düşmənlərin başına od ələyirdi, qəsbkarlara qan uddururdu. Hərbi vəzifəsi baş tuşlayıcı olan O.Kərimli düşmən hədəflərini dəqiq atəş zərbələri ilə məhv edirdi. Əsgər yoldaşları ilə bərabər dəfələrlə ölümlə üzləşsələr də, mövqelərindən bir addım da olsun geri çəkilmədilər.

Müharibənin 12 günü arxada qalmışdı. Təəssüflər olsun ki, qəsbkarların atdığı mərmilərdən biri oktyabrın 9-da Orxangilin atəş mövqeyinin yaxınlığına düşdü. Əsgər O.Kərimli aldığı qəlpə yarasından şəhid oldu.

Həmin gün onun evinin qapısını acı xəbər döydü. Əsgər Orxan Kərimli 19 yaşında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə canından keçmişdi. Yaxınları, doğmaları onu Göyçay şəhərinin Şəhidlər xiyabanında dəfn etdilər. Orxan həmin gündən yaddaşlara köçüb əbədilik qazandı.

Döyüşlərdə göstərdiyi igidliyə və cəsarətə görə ölümündən sonra əsgər Kərimli Orxan Akif oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Cəsur döyüşçü", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medallarına layiq görüldü.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Abşeronda Vətən müharibəsi iştirakçısına dövlət təltifləri təqdim olunub

Abşeron Rayon İcra Hakimiyyətinin inzibati binasında şəhid ailələri və müharibə iştirakçıları ilə görüş keçirilib. Tədbirdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin rəhbərliyi iştirak edib.

Tədbir şəhidlərin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən torpaqlarımızda vüsət alan yenidənqurma, abadlıq-quruculuq işlərindən danışıb.

Daha sonra şəhid Elçin Həsənlinin anası Xatirə İsmayılova ölkəmizdə şəhid ailələrinə və ümumilikdə müharibə iştirakçılarına göstərilən yüksək diqqət və qayğıdan danışıb.

Sonda Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə təltif olunan Vətən müharibəsi iştirakçısı, I qrup müharibə əlili Əliyev Vidadi Rizvan oğluna 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Xocavəndin azad olunmasına görə" medalı təqdim olunub.

# Azərbaycan enerji sahəsində üzərinə götürdüyü öhdəliklərə sadiqdir

## Avropa Komissiyası ölkəmizi etibarlı tərəfdaş, Avropa İttifaqının Enerji Komissiyası isə Pan-Avropa qaz təchizatçısı adlandırıb

**Artıq üç ildən çoxdur Avropa yeni mənbədən və yeni marşrutla - Azərbaycandan "Cənub qaz dəhlizi" ilə mavi yanacaq alır. Qoca qitənin Azərbaycan qazına tələbatı getdikcə artır. Dövlətimiz də əlindən gələni edir ki, istehlakçıların müraciətləri cavabsız qalmasın. Odur ki, indi Azərbaycan bu sahədə də etibarlı tərəfdaş kimi nüfuz qazanıb. Avropa Komissiyası ölkəmizi etibarlı tərəfdaş, Avropa İttifaqının Enerji Komissiyası isə Pan-Avropa qaz təchizatçısı adlandırıb.**



Azərbaycandan qaz idxal edən Avropa ölkələrinin sayı ildən-ilə çoxalır. Buna müvafiq olaraq ixrac infrastrukturu da genişləndirilir, şaxələndirilir, "Cənub qaz dəhlizi"nin yeni "qol"ları yaradılır. 2022-ci il oktyabrın 1-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı oldu. 2023-cü il dekabrın 10-da isə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru işə başladı. Bununla da Serbiya Azərbaycan qazını alan sayca səkkizinci ölkə oldu. Bunlardan altısı Avropa ölkəsidir. Belə ki, həmin vaxta qədər ölkəmizin qaz sisteminə Gürcüstan və Türkiyədən başqa, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan qoşulmuşdu. Gələcəkdə də bu ölkələrin sayı artacaq. Çünki hazırda bir neçə Avropa ölkəsi ilə danışıqlar aparılır və onlar önəmli mərhələdədir. Yeri gəlmişkən, qeyd edək ki, ölkəmizin ümumi qaz ixracının yarısı Avropanın payına düşür.

Prezident İlham Əliyev cari il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bu məsələlərə də ətraflı toxunmuşdur. Təbii ki, artan tələbatı ödəmək üçün ilk növbədə resurslar olmalıdır və onlar var. Dövlət başçısı bu barədə demişdir: "Şahdəniz" qaz yatağı dünyanın ən böyük qaz-kondensat yatağıdır. Keçən il başlamışdır, amma bu il artıq 1,5 milyard kubmetr qaz "Abşeron" qaz yatağından çıxarılacaq. Bu, əlavə resursumuzdur. Ondan sonra, ümid edirəm ki, hər halda qarşıya belə vəzifə qoyulub, bu ilin sonuna - dekabr ayına qədər "Azəri-Çıraq-Günəşli" yatağında "Dərin qaz" adlandırılan layihə çərçivəsində də ilk qaz əldə olunacaq. Orada da potensial çox böyükdür. Bizim digər layihələrimiz və "Abşeron" qaz yatağının ikinci fazası - bu barədə də qərar qəbul edilməlidir, yəni investisiya qərarı. Bu qərar qəbul olunarsa, əminəm ki, olunacaq, "Abşeron"da illik hasilatın həcmi 5 milyard kubmetr təşkil edəcək. Yəni bu, çox əhəmiyyətli rəqəmdir. Ondan başqa, "Şəfəq", "Asiman", "Ümid", "Babək", "Naxçıvan", "Qarabağ" - bütün bu yataqlarda bu gün hazırlığa doğru işlər gedir və onların da resurs bazası kifayət qədər böyükdür. Yəni mən vaxtilə deyəndə ki, 100 il bundan sonra da Azərbaycan tərəfdaşlar üçün önəmli tərəfdaş olacaq, bunu nəzərdə tuturdum və bu gün bu, reallaşır".

Prezident onu da qeyd etmişdir ki, "Cənub qaz dəhlizi" indi tam gücü ilə işləyir və əgər bu dəhlizlə əlavə qaz həcmini göndərmək istəsək, onda o, gərək genişləndirilsin: "Oraya, əlbəttə, əlavə vəsait qoyulmalıdır. Amma bu nasos stansiyaları vasitəsilə genişləndirilə bilər və tələbat da var. Prinsip etibarilə Azərbaycanda gələcəkdə yeni qaz infrastrukturunun yaradılması məsələsinə də baxıla bilər, bunu da biz nəzərdən keçiririk. Avropa Azərbaycanın bu sahədəki fəaliyyətini nəinki dəstəkləyir, hətta bir çox hallarda bizə müraciətlər də olmuşdur və bu müraciətlərə biz müsbət cavab vermişik".

Bununla yanaşı, ölkəmizdə uğurla "yaşıl enerji" layihələri həyata keçirilir. Təsadüfi deyil ki, 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"dir. İşğaldan azad edilmiş ərazilərimiz - Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası bu sahədəki potensialına görə xeyli vaxtdır Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan edilib. Dünya Bankının bir qolu olan Beynəlxalq Maliyyə Korporasiyası Xəzər dənizindəki potensialımızın 157 min meqavat həcmində təsdiqləyib.

Keçən il oktyabrın 26-da 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası artıq işə salındı. Bu, Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovatsaat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. Hazırda Bakıda Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə "Xızı-Abşeron" Külək-Eletrik Stansiyasının tikintisi davam edir. Cəbrayılda bp şirkəti ilə 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikintisi nəzərdə tutulur. Bu və digər şirkətlərlə növbəti yeni layihələrin reallaşması üçün bir sıra sənədlər imzalanıb, danışıqlar gedir.

İmzalanmış kontraktlar və anlaşma memorandumları 10 min meqavat bu cür enerji istehsalını nəzərdə tutur. Prezident İlham Əliyev onların hamısının icra ediləcəyini bildirərək demişdir: "Bu, bizim bütün daxili tələbatımızı ödəyəcək. Təbii ki, bunun iqlim dəyişikliyi məsələlərinə də müsbət töhfəsi olacaq və eyni zamanda bizə imkan verəcək ki, təbii qazı daha böyük həcmdə ixrac edək. Hətta əgər 10 min meqavatın yarısı həll olunsa, bu, bizə kifayət edəcək. Ancaq mən hesab edirəm ki, bu 10 min meqavatla bizim işimiz kifayətlənməyəcək, çünki potensial həddindən artıq böyükdür. Həm quruda, həm dənizdə yerlər təsdiq edildi və növbəti böyük günəş və külək stansiyalarının gələn il istifadəyə verilməsi nəzərdə tutulur. Bax, əsas məsələ bundan ibarətdir və hesab edirəm ki, bunun potensialı həm iş yerlərinin yaradılmasına, yeni texnologiyaların Azərbaycana gətirilməsinə, həm də bölgələrin inkişafına böyük təsiri olacaq. Çünki Xəzər dənizindən kənarda bizim bütün qalan potensial stansiyalarımız bölgələrdə yerləşir, o cümlədən Qarabağ bölgəsində".

Hazırda ölkənin elektrik stansiyalarında il ərzində təqribən 5 milyard kubmetr təbii qaz elektrik enerjisinin istehsalına sərf edilir. Bərpaolunan enerji növləri o cümlədən imkan verəcək ki, elektrik enerjisinin istehsalına 5 milyard kubmetr deyil, təxminən 1-2 milyard kubmetr qaz işlədilsin, qalan qaz isə ixraca yönəldilsin. Qeyd edildiyi kimi, Avropanın Azərbaycan qazına tələbatı getdikcə artır.

Lakin əfsuslar olsun ki, Avropada bəzi siyasətçilər sentyabr hadisələrindən sonra bəyan etmişdilər ki, Azərbaycanla Avropanın qaz əməkdaşlığı dayandırılmalıdır. Dövlətimizin başçısı sözügedən müsahibədə bu məsələ ilə bağlı da fikirlərini səsləndirmişdir: "Belə açıqlamalar, əlbəttə ki, bizim əməkdaşlığımızı gücləndirmir. Düzdür, bu açıqlama Avropa Parlamentinin sədri tərəfindən verilmişdi. Avropa Komissiyası heç vaxt belə açıqlamalar verməyib və təbii ki, verməyəcək. Amma Avropa Parlamentinin sədri kiçik vəzifə deyil və əgər bu şəxs bunu deyirsə, deməli, burada düşünməyə mövzu var. Amma onu bəri başdan bildirməliyəm ki, əgər hər hansı bir səbəbə görə bu mövqe üstünlük təşkil etsə, onda, sadəcə olaraq, bizimlə uzunmüddətli kontraktlar imzalayan şirkətlər 100 milyonlarla, bəlkə də milyardlarla avro dəyərində cərimələr ödəməli olacaqlar. Ona görə belə cəfəng açıqlamalar verən məsul şəxslər daha diqqətli olmalıdırlar. Azərbaycan qaz ixracından neft ixracı ilə müqayisədə qat-qat az gəlir əldə edir. Prinsip etibarilə əgər fərz etsək ki, bu gün bizim qaz ixracımız yoxdur, adi vətəndaş bunu heç vaxt hiss etməyəcək. Əgər bizim qazımızın Avropaya nəqli hansısa səbəbə görə kəsilsə, onda bir çox ölkələr daha çətin vəziyyətə düşəcək və bunu Avropada hər kəs başa düşməlidir, o cümlədən məsuliyyətsiz bəyanatlar verən Avropa Parlamentinin sədri də bunu bilməlidir".

*Flora SADIDLI,*
*"Azərbaycan"*

# Ötən il qeyri-neft məhsullarının ixracı 9,8 faiz artıb

## Bu sektor üzrə 3,3 milyard dollarlıq ixracın 928 milyon dollarlığı ərzağın payına düşüb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın yanvar buraxılışının ilkin rəqəmləri açıqlanıb.**



Bildirilir ki, 2023-cü ilin yanvar-dekabr ayları ərzində Azərbaycanın ümumi ixracının dəyəri 33,9 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz artaraq 3,3 milyard dollar olub. Bunun 928,2 milyon dollarlığı yeyinti məhsullarının payına düşüb.

Buraxılışda daha sonra açıqlanıb ki, ötən il ərzində elektrik enerjisinin ixracı 3,3, spirtli və spirtsiz içkilərin ixracı 1,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 19,3, qara metallardan məmulatların ixracı 13,3, meyvə-tərəvəz ixracı 8,7 faiz artıb. Bu dövrdə aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 6,2 faiz artaraq 969,2 milyon dollar təşkil edib. Qeyri-neft-qaz sektoru üzrə ixracın tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz artaraq 201 milyon dollara çatıb.

Ötən ilin son ayına gəldikdə, dekabrda qeyri-neft məhsulları ixracının dəyəri 314,3 milyon dollar (3,8 faiz çox) olub. Yeyinti məhsulları üzrə ixrac 0,9 faiz artımla 106,6 milyon, qeyri-yeyinti məhsulları üzrə 5,4 faiz artımla 207,7 milyon dollar təşkil edib.

*"Azərbaycan"*

# Azərbaycan Fransanı bütün qlobal platformalarda məğlub edib

**"Fransanın ölkəmizə qarşı qərəzli addımları bu dövlətin xarici siyasətinin tərkib hissəsinə çevrilib və məqsədli xarakter daşıyır. Bütün bunlar Azərbaycana qarşı aparılan nifrət kampaniyasının davamlı olduğunu göstərir".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat qeyd edib ki, Fransanın ermənipərəst mövqeyini açıq şəkildə ortaya qoyması birinci hal deyil. Vətən müharibəsinin ilk günlərində Fransa Prezidentinin "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə verməri" deyə beynəlxalq hüquqa zidd olan bəyanat verməsini yaxşı xatırlayırıq. İkinci Qarabağ savaşından üç ildən artıq vaxt keçməsinə baxmayaraq, Fransa keçmiş münaqişənin həllində maraqlı olmadığını və özünün əsl ermənipərəst mövqeyini bu gün də həyasızcasına nümayiş etdirir. "Yanvarın 10-da Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, antiterror tədbirlərindən sonra iki ölkə arasında münasibətlər mahiyyətcə dayandırıldı, yenə də bu, bizim günahımız ucbatından baş vermədi. Sadəcə, Fransa artıq başqa amillərlə maskalanmayaraq, açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparmağa başladı - qətnamələrin qəbul edilməsi cəhdləri, bundan sonra BMT Təhlükəsizlik Şurası platformasında Azərbaycana qarşı sanksiyalar tələbi. Dövlət başçısı dedi ki, ən azı 5 dəfə bu cür cəhdlər edilib və onların hamısı tam uğursuzluqla nəticələnib, çünki ölkələrin əksəriyyəti bizi dəstəkləyib, bu qətnaməni qəbul etdirmək üçün onlar dövlətlərin zəruri sayını toplaya bilməyiblər", - deyə o əlavə edib.



K.Bayramov bildirib ki, Fransanın siyasi yolla Azərbaycana qarşı istər BMT, istərsə də digər beynəlxalq qurumlar səviyyəsində yanlış iddialarının hər biri nəticəsiz qalıb. Bu gün insan hüquqlarını kobud şəkildə pozmaqdan çəkinməyən Fransa siyasətinin hansı mərama xidmət etdiyi gün kimi aydındır.

Deputat vurğulayıb ki, Parisin bu mövqeyi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına əngəl törədərək xalqların rifahına və təhlükəsizliyinə qarşıdır: "Fransanın Azərbaycana qarşı uğursuz həmlələri, Cənubi Qafqazda möhkəmlənmək cəhdlərinin iflasa uğraması bu ölkənin regiondakı nüfuzuna ciddi zərbə oldu. Azərbaycanın Dövlət Təhlükəsizlik Xidməti Fransa casus şəbəkəsini zərərsizləşdirməklə tək respublikamızı deyil, region ölkələrini və müəyyən qədər MDB dövlətlərini Parisin çirkin siyasətindən qorumuş oldu. İfşa edilən şəbəkə bizim regionda kök salmışdı və onların Azərbaycandakı uzantılarının məhvi Fransa kəşfiyyatının məkrli planlarını pozdu".

Deputat xatırladıb ki, Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində Fransa və Ermənistanın oxşar hərəkətlərinə də diqqət çəkib: "...Yəni burada onlar praktik olaraq ermənilərdən az fərqlənirlər. Çünki ermənilər Natəvanın Ağdamdakı məzarını qazıblar, heykəlini məhv ediblər. Biz onu bərpa etdik, daha doğrusu, yenidən dəqiq surətini ucaltdıq. Fransa isə Natəvanın həmin ölkədə heykəlini təhqir edir. Göründüyü kimi, burada bir oxşarlıq var. Ona görə də indi vəziyyət belədir, biz, əlbəttə ki, bütün bunlara cavab verəcəyik. Biz təkcə müdafiə olunan və özünə bəraət qazandıran ölkə deyilik. Biz adekvat cavablar veririk və verəcəyik".

K.Bayramov sonda əlavə edib ki, Fransanın Azərbaycana qarşı atdığı qərəzli addımlar dövlətlərarası münasibətləri sarsıdaraq, ölkə ictimaiyyətinin haqlı hiddətinə səbəb olur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Fransanın mədəni soyqırımı

## Görünmək istədiyi kimi ola bilməyən Paris

**Fransa sözünü dilə gətirəndə bəlkə də bəzilərinin gözləri önündə incəsənət, mədəniyyət paytaxtı olan bir ölkə canlanır. Yəqin ki, bunu fransızlar da arzulayarlar. Amma həqiqət bunları demir. Təsəvvürə gələnlər rəsmi Parisin həqiqi siması deyil. Fransa özünü nə qədər mədəni, insan hüquqlarının, ədalətin, demokratiyanın qorunduğu ölkə kimi göstərməyə çalışsa da, istəyinə nail ola bilmir. Çünki göstərmək istədiyi mədəniyyətin arxasında canavar xislətli niyyətlər, çirkin məqsədlər dayanır. Ona görə də görünmək istədiyi kimi ola bilmir.**





Tarixi keçmişi soyqırımlarla, qanlı hadisələrlə, münaqişələrlə dolu olan Fransa heç vaxt mədəni ola bilməz. Mədəni olmaq üçün ilk növbədə Paris gərək işğalçılıq məqsədlərindən və neokolonializmdən əlini çəkə. Bunu isə etmək istəmir. Dünyada müstəmləkə ölkəsi kimi tanınan Fransa XVII-XX əsrlərdə planetin bütün bölgələrində demək olar ki, ərazilər zəbt edib. Şimali, Mərkəzi Amerika, Asiya, Asiya Sakit Okean regionu, Afrikada Fransa dövlətinin müstəmləkəsi olan böyük ərazilər mövcud olub. Bu ölkənin işğalları zamanı ən böyük ölçüdə insan qırğınları Afrika qitəsində baş verib. Afrikanın yarısı XIX əsrdə fransızlar tərəfindən zəbt olunub, müqavimət göstərən 10 minlərlə insan öldürülüb. Fransa müstəmləkəsində saxladığı ölkələrdə təkcə insanları öldürməklə kifayətlənməyib, həm də o xalqların mədəni irsinə qarşı soyqırımları törədib. Törətdiyi bu qanlı əməllərə görə, Fransanın mədəniyyətdən, incəsənətdən danışmağa mənəvi haqqı yoxdur.

Fransa Qarabağ münaqişəsinin həllində ATƏT-in Minsk qrupunun vasitəçilərindən biri olub. Qarabağ hadisələri zamanı ermənilər minlərlə azərbaycanlını öldürüblər. Yüzlərlə tarixi abidələrimizi yerlə yeksan ediblər. Fransa bir dəfə də olsun ermənilərin bu yaramaz hərəkətlərini pisləyən bəyanat verməyib. Bütün bunlardan sonra Fransanı necə mədəni və demokratik ölkə adlandırmaq olar?

Uzun illər Ermənistanın işğal etdiyi ərazilərimizdə tarixi abidələrimizi dağıtmasına, mədəni irsimizi məhv etməsinə göz yuman Fransa İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı təxribat xarakterli bəyanatlar verməyə başladı. Fransanın mədəniyyət naziri düşmən ölkəyə səfəri zamanı Qarabağ bölgəsindəki tarixi və mədəni abidələrin təhlükə altına, düşməsi ilə bağlı yalançı iddialar qaldırıb, onların qorunması üçün müxtəlif mexanizmlərin yaradılmasına çağırış edib. 30 il kor olan, Qarabağda ermənilərin tarixi abidələrimizi dağıtdığını görməyən Fransanın sanki Vətən müharibəsindən sonra gözləri birdən-birə açılıb.

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan tərəfindən dəfələrlə UNESCO-ya çağırışlar edilsə də, işğal altında olan ərazilərdə, eyni zamanda Qərbi Azərbaycanda tarixi-mədəniyyət irsinin soyqırımına məruz qalması faktına qarşı heç bir addımlar atılmır. Bu kontekstdə Fransa mədəniyyət nazirinin Ermənistandan Azərbaycan əleyhinə boğazdan yuxarı bəyanatlar verməsi gülüş doğurur.

Son günlər sosial şəbəkələrdə Fransanın Evian-Le Ba şəhərində Azərbaycan şairi Xurşidbanu Natəvanın 2017-ci ildə ucaldılmış heykəlinə qarşı vandalizm aktı törədilib və üzərinə qırmızı boya atılıb.

Fransanın "Le Messager" nəşrinin yazdığına görə, 2023-cü il dekabrın 18-də müxalifət nümayəndələri bələdiyyə şurasından şəhərdə bu parkın adıçəkilən bütün lövhələrinin rəsmən götürülməsini tələb ediblər. Şəhərin meri Jozian Leyin sözlərinə görə, artıq "Azərbaycan parkı" ilə bağlı bütün istinadlar silinib. Fransa şəhərinin meriyasının bu addımı son vaxtlar Fransada hökm sürən mədəni şovinizm, ksenofobiya, qərəz və digər mədəniyyətlərə qarşı dözümsüzlük siyasətini nümayiş etdirir. Qəribədir ki, məsələ ilə bağlı hələlik nə rəsmi Paris, nə də mədəni irsin mühafizəsinə cavabdehlik daşıyan və Fransanın evsahibliyi etdiyi UNESCO reaksiya verib. Azərbaycanın əleyhinə yalan bəyanatlar verən Fransanın mədəniyyət naziri də susur. Susmaq isə, bilindiyi kimi, razılıq əlamətidir.

Fransanın bu addımı onun vəhşi xislətindən xəbər verir. Əvvəlki illər müstəmləkəsi olan ölkələrdə tarixi abidələri məhv edən Fransa bu gün öz şəhərində olan Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın heykəlinə qarşı vandalizm törədir. Siyasət aləmindəki uğursuzluqlarının əvəzini qadın şairin heykəlindən çıxır. Bu hadisə Fransanın mədəni soyqırımı aktı kimi qiymətləndirilməlidir. Özünü dünyaya mədəni ölkə kimi göstərməyə çalışan Fransa üçün bu hadisə olduqca biabırçı, qəbuledilməz və yaramaz bir hərəkətdir. Belə vəhşi hərəkəti ilə Fransa bir daha özünün kimliyini göstərdi. Mədəniyyətdən, mənəviyyatdan uzaq ölkə olduğunu sivil dünyaya nümayiş etdirdi.

Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı iyrənc hərəkət haqlı olaraq ölkəmizdə böyük narazılıqlar doğurub. Bu münasibətlə Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət və elm xadimləri, vətəndaş cəmiyyəti təmsilçiləri bəyanat qəbul ediblər. Bəyanatda deyilir ki, Yelisey sarayının sifarişi ilə Fransanın Evian-Le Ba şəhərində Xurşidbanu Natəvanın heykəlinə qarşı nümayiş etdirilən rəftarı qəbuledilməz sayırıq, abidənin üzərinin bağlanmasını Azərbaycan mədəniyyətinin təhqir edilməsi kimi qiymətləndiririk. Xurşidbanu Natəvan bütün Şərqdə və islam dünyasında görkəmli şair, rəssam, maarifçi və xeyriyyəçi, qadın azadlığı, qadın hüquqları uğrunda mübariz kimi tanınır, onun əsərləri Azərbaycanda dövlət varidatı elan olunub. Görkəmli fransız yazıçısı Aleksandr Dümanın da əsərlərində bəhs etdiyi Natəvan eyni zamanda Azərbaycan və Fransa xalqları arasında dostluğun tərənnümçüsü kimi tanınır.

Bu utancverici hadisə onu göstərir ki, Fransanın son zamanlar kəskin şəkildə güclənən Azərbaycan əleyhinə siyasəti indi mədəniyyət və incəsənət sahəsinə də keçib. Rəsmi Paris bilməlidir ki, mədəniyyət və incəsənət xalqları və ölkələri birləşdirən ən etibarlı və müqəddəs körpüdür. Bu müqəddəsliyə qaldırılan əllər kəsilməli, cinayətkarlar mütləq cəzalandırılmalıdır. Yoxsa Fransa buna görə cavab verməli olacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 3 fevral (Bazar ertəsi günü) tarixli 104-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Düşənbə, 2 cəmadiyələvvəl sənə 1337.
3 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Səşənbə [çərşənbə axşamı] günü 1919 sənəsi fevral ayının 4-ündə gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

## ÜMUM MÜSƏLMAN TƏLƏBƏLƏRİNƏ

Məlum olduğu üzrə, müsəlman tələbələrinin əsgərliyə dəvət olunmaları məsələsində yenə tələbələrdən ötrü bir neçə qaranlıq və anlaşılmamış yerlər vardır. Ona binaən [ona görə] zeyldəki [aşağıdakı] izahatın verilməsinə lüzum görürəm:

1) Bütün darülfünun və sair məkatibi-aliyyədə [ali məktəblərdə] təhsil edənlər və edadi məktəb məzunları neçə il əvvəl edadi məktəbi bitirmiş olsalar da, əxzi-əsgər [hərbi qulluğa çağırış] qanunu qarşısında müsavidirlər [bərabərdirlər].

2) Məktəbi-hərbiyyəyə daxil olub oranı bitirən tələbələr həmişəlik (kadrovı) zabit olub qalmayacaqlar. Vətənimizin yeganə ümidi olan bu tələbələrin ehtiyac rəf olduqdan [aradan qaldırıldıqdan] sonra məkatibi-aliyyədə təhsil üçün göndərilmələrindən ötrü Məclisi-Məbüsan xüsusi məbləğ təxsis edəcəyinə [ayıracağına] ümid ediriz. İndilik ordumuza münəvvər fikirli [ziyalı] əfradın [əsgərlərin] nə qədər zəruri olduğunu hər kəs etiraf edir.

3) Fəqir tələbələrin əsgərə alınanlarının ailəsi təmin edilməsi və onlardan xidmətdə bulunanlarının maaşı kəsilməyərək ailəsinə verilməsi məsələsinə gəldikdə, bu məsələ ümum xidmətdə bulunub da əsgərliyə alınan vətəndaşlar üçün birlikdə həll ediləcəkdir. Hər halda bu məsələ Maarif Nəzarətinə deyil, Daxiliyyə Nəzarətinə aiddir.

*1 şubat 1335*
*Maarif Naziri: Nəsib Yusifbəyli*
*Kargüzar: Əli Yusif*

## MƏCLİSİ-MƏBUSAN VƏ MÜXALİFLƏR

Azərbaycanın siyasi vəziyyəti nə qədər ki, müəyyən deyildi, türklərdən olmayan bütün siyasi firqələr, bolşevik ruhlu menşevikindən tutub monarxist ruhlu kadetinə qədər, Azərbaycan istiqlalı ilə Azərbaycan Parlamanına qarşı barışmaz bir vəziyyət almışlardı. Onlar bu vəziyyətləri ilə Azərbaycan türklərini bir növ mühasirəyə almış, təslimə məcbur etmək istəmişlərdi.

Zənn edirlərdi ki, xaricdən gəlmə Müttəfiqlər qüvvəti də onlara kömək olacaq, ağıllarınca türklər tərəfindən qurulmuş olan Azərbaycan Hökumətini bir deyəndə atacaqlardır.

Azərbaycan türkü ilə bərabər, bu türkün ruhundan doğan idealları tərvic edən [ideallara rəvac verən], onun yolu ilə gedən Azərbaycan xadimləri isə qəflətən üzərlərinə atılan qüvvətlərə qarşı mətanət göstərdilər, durdular. Azərbaycan fikrinin "İstanbuldan" deyil, Bakıdan doğmuş olduğunu isbat etdilər. Bu sübutla hər kəsdən əvvəl bitərəf bir qüvvət olması həsəbilə [səbəbindən] ilk əvvəl ingilis komandanlığı qane oldu. Onun bu qənaəti Azərbaycanın daxili müxaliflərini düşündürdü.

Türk olmayan müxaliflər düşündülər, daşındılar; xətti-hərəkətlərini dəyişmək, nöqteyi-nəzərlərini əvəz etmək məcburiyyətində qaldılar.

Eserlər [sosialist-inqilabçılar] əslən milliyyət əsasına əhəmiyyət verən idealist və ind[ivid]ualist [fərdiyyətçi] bir firqə olduqlarını xatırladılar. Azərbaycan Parlamanı bir "əmri-vaqe"dir [faktdır], olmuş bir işdir – dedilər.

Menşeviklər dəxi "qalu bəla"dan [əzəldən] millətlərin kəndi müqəddəratlarını kəndiləri təyinə haqlı olduqlarını qəbul edənlərdən olduqlarını etiraf etdilər.

Həmkarlar İttifaqı dəxi Azərbaycan Parlamanına getmək haqqındakı qərarına təzədən baxmaq məcburiyyətində qaldı.

Erməni Milli Komitəsi dəxi daşı ətəyindən tökməyə başladı. Yalnız Parlamana deyil, hökumətə də girmək meylini izhar eylədi [göstərdi].

Yerdə yalnız bir Rus Komitəsi qaldı.

Rus Komitəsi yalnız tüfəng təsirilə olmalıdır ki, o da əvvəlcə mövcud olan qərarını təzədən bir "götür-qoy" eylədi. Anladı ki, "Rusiya millətlərinin, son şəkli Rusiyanın iradəsilə biletilaf [uzlaşmayla] təyin edilmək üzrə kəndi başlarına idarə qurmaq haqları vardır və bu haqla parlaman da qura bilərlər və bu parlamana yalnız siyasi bir minbər [kürsü] qazanmaq üçün deyil, vilayətə əmnü asayiş [əmin-amanlıq] vermək işində şərakət etmək [iştirak etmək] üçün dəxi getmək lazımdır."

Bunu anlamaqla bərabər, Rus Komitəsi özünün Parlamana girməsini yalnız bir mətləblə əlaqədar görür. Əvvəlcə bəzi mühüm məsələlər aşkar olmalıdır. Bu məsələlər aşkar olmayınca Parlamana girmək, onlarca faydasızdır. Çünki burada Rusiyanın mənafeyi-aliyyəsinə mərbut [ali mənafeyinə bağlı] olan nöqtələr var ki, onları örtülü olaraq keçmək bərabər işləməyi qeyri-mümkün edər.

Məsələ Azərbaycanın Rusiyaya əlaqəsini təyin etməkdədir.

Zatən yalnız Rus Komitəsindəki kadetlər deyil, digər firqələrdə olan ruslar-rusiyaçılarla bizim aramızda və digər türk partiyalarının arasında olan ixtilafi-nəzər [görüş ayrılığı] dəxi bu nöqtə üzərində idi.

Biz Azərbaycanı müstəqil bir dövlət tələqqi [qəbul] ediriz. Bu tələqqisini Azərbaycan demokratiyası əksəriyyəti-əzimə [böyük əksəriyyət] təşkil edən türk xalqının idarəyi-aliyyəsi [ali hakimiyyəti] ilə bütün dünyaya elan eyləmişdir. Bu bir əmri-vaqedir [faktdır].

Azərbaycan Hökuməti, Azərbaycan Parlamanı, Azərbaycan siyasi firqələrinin bəyannaməsi, Azərbaycan xalqının bu əsasları qəbul və tərvic eyləməsi bu əmri-vaqenin xarici əlamətləridir.

Azərbaycan Hökuməti bütün firqələrinin müməssilliyi [ilə] [nümayəndəlikləri ilə] beynəlmiləl münasibata [münasibətlərə] girişmiş, feilən Müttəfiqlər tərəfindən tanınmışdır. Ondan başqa bu topraq üstündə, bu əhali üzərində başqa nafiz [nüfuz sahibi] və tanınmış bir hökumət yoxdur.

Bizimlə bərabər çalışmaq, türklərlə birlikdə "əmniyyət və asayişin təmini" və yaxud "fevral hürriyyətlərinin bəqası" üçün işləmək istəyən firqələr hər şeydən əvvəl bu cəhəti nəzəri-diqqətə almalıdırlar: Azərbaycan bir əmri-vaqedir – bunu səmimi bir surətdə qəbul etməlidirlər.

Azərbaycanın Rusiya ilə irəlidəki əlaqəsinə gəlincə, bu əlaqəni irəlidə azərbaycanlıların rusiyalılarla dostluqla, azadlıqla, tərəfeynin [hər iki tərəfin] rizası ilə həll olunacaq bir məsələ kimi görməlidirlər.

Parlamana gələcək müxalif, "Siz Rusiyadan ayrılmışsınız, bu ayrılışınızla faydalı bir iş görməmişsiniz, yaxşı olar ki, onunla birləşəsiniz" dersə, onu dinləriz. Fəqət "Siz Rusiyanın bir parçasısınız, nə haqla ondan ayrılmışsınız" dersə, ona təhəmmül etməz [dözüm nümayiş etdirməz], kürsüdən salarız.

Azərbaycan Parlamanına, Azərbaycan istiqlalı bayrağını yüksək qaldırmış olan bu müəssisəyə hər kəs gələrsə, bu Parlamanın feilən təəssüs etmiş, olmuş-bitmiş bir hökumətin Məclisi-Məbusanına gəlmiş və bununla o, Azərbaycan istiqlalını fikirdə deyilsə də, işdə tanımış deməkdir.

Rusiya ilə əlaqəyə gəlincə, bunu müxaliflər bilməlidirlər ki, müvafiqlər heç bir zaman fikirdə Rusiyanın düşməni olmayıb, Rusiya demokratiyası ilə ədavət bəsləməmişlərdir.

Azərbaycan Parlamanının bütün firqələri kəndi bəyannamələrində bu fikri zikr eyləmişlərdir. Müxaliflər nöqteyi-nəzərindən ən müdhiş bir milliyyətçi və iftiraqçı [ayrılıqçı, ayrılma tərəfdarı] təsəvvür olunan "Müsavat" firqəsi belə kəndi bəyannaməsində fikrən təbii və mötədil bir hala gələcək Rusiya ilə əqdi-ittifaq etmək [ittifaq bağlamaq] fikrinə yabançı olmadığını bildirmişdi. Fəqət buna biz öz meylimiz, öz xahişimizlə gedəcəyiz. Bu məsələni Rusiya Məclisi-Müəssisanı deyil, Azərbaycan Məclisi-Müəssisanı həll edə bilər. Bu səlahiyyət başqalarının deyil, bizimdir. Çünki milliyyət haqqı yalnız bu surətlə müdafiə oluna bilər.

Yoxsa bir "menşevik" çıxar da "biz sizə Rusiyadan ayrılmaq haqqını verməyiriz" dersə və bu məqsədinə yetişmək üçün müsəlman sosialistləri ilə birlikdə bizə qarşı mübarizə edə biləcəyinə güvənərsə, biz öylələrinə güləriz, zira öylə düşünən bir türk Parlaman firqəsi təsəvvür edəmməyiz!

Rusiyadan ayrılmaq, Rusiyaya qoşulmaq və yaxud başqa bir şəkil ilə kəndi müqəddəratını təyin eyləmək haqqı Azərbaycan xalqının müqəddəs bir haqqıdır. Bu haqqı ona təbiət bəxş eyləmiş. Bu haqqı o nə kadetlərin ala gözlərinə, nə də sosialistlərin yağlı dillərinə fəda edəmməz!

Müxaliflər bunu bilsinlər, qulaqlarına sırğa etsinlər və böyləcə Azərbaycan istiqlaliyyəti əmri-vaqesinin qulami-halqa-bəguşu [qulağı sırğalı qulu] olaraq Parlamana buyursunlar.

Başqa məsələlərdə keyifləri istədiyi müxalifəti etsin, tənqidatda bulunsun, təbliğatda olsunlar. O, onların haqqı və vəzifələridir.

Biz heç bir zaman onların Parlaman firqələrinin müvafiqləri [müxalif olmayanları, hökumətdən yana olanları] cərgəsində oturacaqlarını zatən təsəvvür eyləməmişdik.

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN KABİNƏSİ RƏİSİ CANİBİ-ALİLƏRİNƏ "ƏHRAR" FRAKSİYASI TƏRƏFİNDƏN BU MƏZMUNDA BİR MÜXTİRƏ [XƏBƏRDARLIQ] VERİLMİŞDİR:

Zaqatala vilayətindən peydərpey [bir-birinin ardınca] hər növ almaqda olduğumuz xəbərlərdən oranın əhvalı qayət məğşuş [qarışıq] olduğu anlaşılır. Vilayət daxilində oğurluq, soyğun və cana sui-qəsd kimi cinayətlər hər gün vaqe olmaqdadır. Vilayətin Gürcüstanla həmhüdud olan Əliabad və Balakənd nahiyələri əhalisi gürcü təzyiqatı, gürcü təhəkkümatı altında inləyir. Kəndi məralarına [otlaqlarına] heyvanlarını çıxarmaq, tarlalarına sərbəst yürümək, kəndi ormanlarından odun kəsmək bu iki nahiyə əhalisi, bilxassə Qovaqçöl camaatı üçün imkan xaricindədir.

Binaənileyh [ona görə], fraksiyamız bu haqda Gürcüstan Hökumətinə müraciətdə bulunulmasını arzu etməklə bərabər, Zaqatala vilayətində fövqdə məruz hadisatın [yuxarıda deyilən hadisələrin] baş göstərməsini ancaq məhəlli [yerli] məmurların fəaliyyətsizliyində görərək, təcili surətdə vilayətin administrasiya məmurlarının qismən təbdil [dəyişdirilməsi], qismən də ixrac və əzl edilməsini [qovulmasını] lazım və labüdədd [hesab] edir. Əks təqdirdə Zaqatala vilayətində məqsudumuzun xilafı olan [arzuolunmaz] hadisatın zühur edəcəyini məəttəəssüf [təəssüflə] görmək məcburiyyətində bulunacağız.

Qeyd: Zaqatala övzasına [vəziyyətinə] dair aldığımız məlumat çox olmaqla bərabər 371 kəlmədən ibarət olan teleqrafı hüzura təqdim etməklə kifayət ediriz.

*"Əhrar" fraksiyası*

## TELEQRAF XƏBƏRLƏRİ

* Yeni mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə, fransız qoşunları Strasburqun üç fərsəxliyində vaqe Kel (Almanya) şəhərini işğal və rəsmi surətdə Fransaya ilhaqını elan etmişlərdir.

* Almanya Bankının məşhur müdiri fon-Qvinner rəvayətə görə Almanyanın birinci rəisi-cümhuru [prezidenti] olacaqdır.

* Məşhur maliyyundan [maliyyəçilərdən] Qoldenin hesabına görə, müharibəyə İngiltərə 6 418, Almanya 8 300, Amerika 2 600 milyon pul sərf etmişlərdir.

* Smets Sülh Konfransında Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] proqramını havi [əhatə edən] bir risalə nəşr etmişdir. Cəmiyyəti-Əqvam vücuda gəlsə, dövlətlərin həyati-ictimaiyyəsində zəruri bir şey olub, mədəni-siyasi fəaliyyətin siyasi bir orqanı olmalıdır. "Avropa" ləğv olunur və Cəmiyyəti-Əqvam onun varisi olur. Cəmiyyəti-Əqvamı biz əski əsas və mənada təsis etməməliyiz. Cəmiyyət bütün cahan əfkari-amməsinin müzahirətinə məzhər [bütün dünyanın ictimai fikrinin dəstəyinə nail] olmadıqca, müvəfəqiyyətlə yaşamaz. Cəmiyyəti-Əqvam mövcüd olmaq istəməsə, hüdudi-miləl [millətlərin sərhədləri] xaricindəki yeni məsələləri həll etmək üçün ayrı bir müəssisə əmələ gətirməli olacaqdır.

* "Havas" acentəliyinin məlumatına görə, De-Korseydə Mütəffiqlər nazirləri ilə əsgəri [hərbi] mütəxəssislərin müşavirəsi vaqe olmuşdur. Müşavirə əvvəlcə Cəmiyyəti-Əqvam məsələsini müzakirə edərək, onun əsas və layihəsini tərtib verəcəkdir.

* "Havas" acentəliyi xəbər verir: Fransız mətbuatı Sülh Konfransının üstü-örtülü hərəkatına istehzakaranə bir surətdə baxır. Vilson rəsmi surətdə fransız hökumətinə bildirir ki, o, konfransda Amerikanın hökümət başçısı sifəti ilə deyil, Baş vəzir sifəti ilə qalmaq istəyir.

* London - Berqandan buraya göndərilən teleqrafda denilir: Rusiyada həbs edilmiş olan və sonra oradan qaçmış olan bir ingilis taciri rəvayət edir ki, 1917-ci sənədə Rusiyaya qayıtmış olan general Kuropatkin bolşeviklər tərəfindən qətl edilmişdir.

* Paris - "Le-jurnal" yazır: Bolqarya ilə mütarikə əqd edildikdən [atəşkəs imzalandıqdan] sonra Makenzen var qüvvəsi ilə çalışırmış ki, Mütəffiqlərin qələbəsinə əngəl törətsin və məğlub edilmiş Romaniyanı dəmir məngənə içində saxlasın. Mütarikə əqd ediləndən 20 gün sonra Makenzen Macaristan təriqi [yolu] ilə Almanyaya qayıtmalı ikən yenə Balkanda qalıb işində davam eyləmişdir.

* Lion (28 yanvar) - Leon Burjuanın təhti-sədarətində [sədrliyi altında] Cəmiyyəti-Əqvam məsələsini müzakirə üçün birinci iclas əqd edildi [baş tutdu]. Bu məsələ ətrafında olan bir qədər danışıqdan sonra iclas böylə qərar qoymuşdur: Bununla iclas bütün qonşu dövlətlərə müraciət edərək, Cəmiyyəti-Əqvamın təlqin etdiyi amallara nail olmaq üçün bir yerə toplanmağı arzu edir. Sülh əqd edilməyincə, həyatın adi halına düşməyəcəyini iclas qeyd və etiraf edir.

## QƏZETƏLƏRDƏN

* Gürcüstan Hökuməti İngiltərədən mal almaq üçün xüsusi vəkil göndərir.

* Sibiryada 80 min yapon əsgəri vardır.

* Şayiata [şayiələrə] görə Tsaritsın əhalisi İdil [Volqa] nəhrinin sol kənarına nəql edilir.

* Kiyevdə olan Finlanda konsulu Finlanda əsgərlərinin Petroqrada daxil olmalarını simsiz teleqrafla xəbər almışdır.

### Könüllü ordu

Ukraynadan ötrü ordu dəstələri təşkil etmək üçün Könüllü ordu zabitləri Yekaterinodardadırlar. Denikin Yekaterinodarda və Pokrovski Tsaritsın cəbhəsində. Kazaklar müharibə etməkdən təngə gəlmişlərdir. Şəhər əhalisi fəna müamilədən [rəftardan] narazıdır. Zabitlərin, kazakların axtarış, qarət və arvadlara təcavüz etmələri ziyalıları təngə gətirmişdir. Zabitlər özləri qabaqlarına gələn malları həcz [müsadirə] edib, bəzən oğurlayırlar. Fəhlələr bimuzd olaraq süngü gücü ilə zavodlarda işləməyə məcbur edilirlər.

Şura Hökuməti tərəfindən buraxılan pullar qəbul edilməyir. Könüllü ordu, məcburi bir surətdə təşkil edilir. Hamını bilatəfavüt [fərq qoymadan] orduya daxil edirlər. Ordu arasında fransız və Romaniya zabitləri vardır. Bunlardan əlavə Könüllü orduya güclə 4 min Avstriya və almaniyalı daxil edilmişdir ki, bunlar kadetlər əlinə düşmələrinə təəssüf edirlər. Stavropol və Armavir müharibələrindən sonra Kornilov alayından 9 nəfər, mühəndis alayından 21 nəfər qalmışdır. Qalanları isə Kuban çayında və Armavir altında vaqe olan müharibələrdə tələf olmuşlardır. Şəhərdə 18 yaşından 40 yaşına, kəndlərdə isə 18-indən 58 yaşınadək istehzari-əsgəriyyə [hərbi çağırış] dəvət edilmişdir. Qocalar isə təhlükəli vaxtlarda dırmıq və yabalarla cəbhəyə getməlidirlər.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Şəki şəhəri nümayəndəsi Hacıbaba bəy Nağıbəyov Rəisi-vükəla [Baş nazir] həzrətləri tərəfindən hüzura qəbul edilərək Şəki əhvalı barəsində mühasibatda bulunmuşdur [hesabat vermişdir]. Şəki nümayəndəsi Yevlax-Şəki yolunun fəna bir halda olduğu barəsində Rəisi-vükəla həzrətlərinə məlumat verərək bildirmişdir ki, həman yolun fənalığından naşi [ötrü] Şəki bir çox nöqtələrlə əlaqədə buluna bilməyir.

Sonra nümayəndə Şəki prixod mollalarına məvacib təyin etmək barəsində istidada [xahişdə] bulunmuşdur. Nümayəndə Şəkidəki müsri [yoluxucu] xəstəliklərin hökmfərma olmaqlarını [hökm sürməklərini] təsvirlə, oraya xəstəliklərlə mübarizə etmək üçün sihhiyyə dəstəsi göndərilməsinin mütəmənna [arzuedilən] olduğunu bəyan etmişdir.

Rəisi-vükəla Hökumətin müavinətini vəd etmişdir.

* Mövsuq [mötəbər] mənbələrdən aldığımız məlumata görə, Hüseyn xan Təkinski Erməni Hökuməti indində [nəzdində] Azərbaycanın siyasi nümayəndəliyinə təyin edilir. Müşarünileyh [adı çəkilən şəxs] bugünlərdə məhəlli-məmuriyyətinə [təyin edildiyi yerə] azim olacaqdır [yola düşəcəkdir].

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

### Ticarət və Sənaye Nəzarətində

* Ticarət və Sənaye naziri həzrətləri Rəisi-vükəla həzrətlərinə müraciətən məlum etmişdir ki, Bakıdakı mərmi zavodu həcz [müsadirə] edilmişdir. Oradakı mühəndisə məlum edilmişdir ki, fəhlələr oradan çıxmalıdırlar. Nazir məktubunun axırında mərmi zavodunun Cümhuriyyətimiz üçün havi olduğu [daşıdığı] əhəmiyyətini bəyanla, geri verilməsi haqqında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica və təmənna [arzu] etmişdir.

* Ticarət və Sənaye Nəzarəti Gürcüstan Hökuməti nəzdindəki siyasi nümayəndə Məhəmməd Yusif Cəfərova müraciətən rica etmişdir ki, Tiflisdə Mədən Departamenti xidmətçiləri və əmvalının [mallarının] Bakıya göndərilməsi barəsində lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunulsun. Zira Azərbaycan Mədən İdarəsi müdiri kanuni-əvvəlin [dekabrın] 16-dan etibarən Nəzarətə müraciətən məmurin [məmurlar] üçün ərzaq və mühimmat istəmişdir.

### Məsai Nəzarətində

* Şubatın [fevralın] 2-də Məsai Nəzarətinə [Əmək Nazirliyinə] Tağıyev fabrikası müdiriyyəti bir kağız göndərib məlum etmişdir ki, qulluqdan ixrac edilən xidmətçilər yenidən qulluğa qəbul edilmişlərdir.

* Bakıda Neft quyuları qazıyan müəssisələr İttifaqı Məsai Nəzarətinə müraciətən rica etmişdir ki, Nəzarət cənbində [nəzdində] təşkil tapan xüsusi müşavirədə onların nümayəndəsinə bir yer verilsin.

* Müttəfiq Zəhmət Cəmiyyətinin mərkəzi komitəsi Məsai Nəzarətinə müraciətən rica etmişdir ki, körpülərdə çalışan fəhlələr Cəmiyyətin izni ilə qəbul edilib, əzl edilmələri [işdən çıxarılmaları] cəmiyyət izni ilə olması barəsində lazımi tədabirdə bulunulsun. Zira işbu məsələdən naşi [ötrü] bir çox qeyri-məmul hadisat [arzuedilməz hadisələr] törəməkdədir.

### Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Müdafiə Nazirliyi] Rəisi-vükəlaya müraciətən müsri [yoluxucu] xəstəliklər və başqa bu kimi məsələlər üçün Nəzarətə 200 000 manat para buraxılması barəsində təşəbbüsatda bulunmuşdur.

* Məşixət Sədarəti [Şeyxülislamlıq İdarəsi] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən füqəra sinfindən vəfat edənləri dəfn və kəfn etmək üçün para təxsis edilməsi [pul ayrılması] barəsində təşəbbüsatda bulunmuşdur. Nəzarət 5000 rublə təxsis etmişdir. Fəqət sədarətdən rica etmişdir ki, fəqirlik barəsində məhəllə mollalarından şəhadətnamə tələb edilsin.

## MƏQSƏDLƏRİ NƏDİR?

Bugünlərdə Ermənistan Hökuməti namından [adından] Ermənistan Xariciyyə naziri Tiqranyanın Hökumətimizə çəkdiyi protesto teleqramı zənnimcə hamını təəccübləndirsə gərəkdir. Ələlxüsus teleqramın son cümləsindəki "Ermənistanın ərazi hüququna təcavüz" ibarəsi təəccüb deyil, heyrətimizi mövcib [heyrətimizə səbəb] olur. Məsələ yenə qara bəxtli Qarabağın məsələsidir. Nüfusca [əhalinin sayına görə] müsəlman əhalisi erməni əhalisindən bir neçə kərə artıq olduğunu erməni statistikçiləri də etiraf etdiyi bir halda, mövqeyi-coğrafisi ilə Azərbaycanın təbii bir sərhədi olduğu göz qabağında ikən və indiki Azərbaycanı təşkil edən xanlıqların içində Qarabağ xanlığı tarixdə ən məşhurlarından ədd [hesab] olunarkən, bu gün erməni milləti və onun min dürlü bəla və məşəqqətlə həqqi-istiqlal qazanmış hökuməti yenə də gözlərini Qarabağdan çəkmək istəməyir və oranı idarə etmək üçün olunan təşəbbüslərə qarşı protesto edir. Bu cəsarətə artıq siyasi protesto deyil, başqa dövlətin daxili idarəsinə qarışmaq namı verilməlidir ki, buna da heç bir müstəqil hökumət təhəmmül edəmməz [dözüm nümayiş etdirə bilməz]. Ələlxüsus Ermənistan kimi yeni törəmiş, gələcək mövcudiyyəti əsaslı şübhələri mövcib olaraq, ərazi hüdudu bir işareyi-sualdan (?) ibarət olan bir dövlət, qonşusunun daxili hərəkatını xaricdən tənqidə qalxışması qətiyyən lüzumsuzdur. Ermənistan böylə bir təşəbbüsdə bulunarsa, açıqdan-açığa "Nə mən yaşayacağam, nə də səni yaşamağa qoyacağam" demiş olur. Ermənistanın Qarabağa ümid etməsi, deyil "samoopreledeniye" [öz müqəddəratını təyin etmək] əsasına, hətta ən ibtidai məntiqə belə sığmaz bir röyadır ki, bu röya təbir edilərsə, nəticədə yenə dəhşətli mənzərələr, yenə mədəniyyət və ülfət yerinə xarabazarlar görünər.

Hal-hazırda Ermənistanın cüz'ü [bir hissəsi] olan bir çox yerlər, gərək əhalinin milliyyəti etibarı ilə, gərək tarixi vəsiqələrin şəhadəti ilə Azərbaycanın ən şər'i [halal], qanuni hissələri olduğu halda, Azərbaycan Hökuməti məhz dostluq və asayişin xələldar olmaması niyyəti ilə və hər üç cümhuriyyətin qazandığı haqqi-istiqlalın möhkəmləşməsi xatirəsi üçün o yerlər barəsində bir kəlmə olsun danışmayır. Çünki əgər qonşu cümhuriyyətlərin arası pozularsa, bundan şübhəsiz bir yabançı qüvvə müstəfid olacağı bədihidir [faydalanacağı aşkardır].

Bu gün Azərbaycan Hökuməti əgər Şuşa və Cavanşir qəzalarını bir general-qubernator təhti-idarəsində [idarəsi altında] dolandırmaq istəyirsə, bundan yeganə məqsəd yalnız oralarda asayiş və intizam bərpa edib, neçə vaxtdan bəri asudəlik üzü görməyən əhalini yenidən rahat və mədəni yaşamağa dəvət etməkdir. Böylə bir təşəbbüsün önünə çıxmaq asayis və intizam tərəfdarı olan bir cümhuriyyətdən deyil, pərişanlıqdan istifadə edib, qara fikirlərini yürütmək xülyasında olan macərapərəstlərdən gözlənməlidir.

Bir dəfə diqqət olunsun, Azərbaycan kəndi daxilində olan iki mahalı idarə etmək üçün general-qubernator təyin edirmiş, bu isə başqa bir qonşu dövlətin "ərazi hüququna təcavüz" imiş. Məncə burada məntiq aramaq belə lazım deyil. Yalnız bunu düşünməlidir ki, qurdun qarnı doymaq üçün quzuya hər nə nəhv [tərz, yol] ilə olursa, bir günah, bir təqsir ixtira etməlidir. Lakin Azərbaycan millətinin də öyləcə sadədil quzulardan olduğunu kimsə sübut edəmməz.

Heç olmazsa bunu düşünməli idi ki, Qarabağa general-qubernator təyin etmək, oranı Paris Konfransının qoyacağı qanunların təhtindən [altından] çıxarmaq deyildir. Həpimiz ədalətinə inandığımız o məhkəmənin mübahisəli ərazi haqqında çıxaracağı qərardadlara qədər hər hökumət sərhədi daxilində kəndi başına idarə etməlidir. Bu idarəyə qarışmaq, qonşu dövlətin beynəlmiləl hüququna riayətdən imtina etməkdir. Məsələyə bitərəfanə baxan olarsa, bizim "Ermənistanın ərazi huququna təcavüzümüzü" deyil, onların Azərbaycan beynəlmiləl hüququna təcavüzünü görər.

*Əli Yusif*

## İRƏVAN: ERMƏNİ-MÜSƏLMAN MƏSƏLƏSİ

### Yeni vicdansız təcavüzlər

İrəvan quberniyasında Göyçə gölünün cənubi-şərqi tərəfində və Novo-Bayəzid mahalı daxilində olaraq 34-35-ə qədər müsəlman kəndləri mövcuddur.

Türklər İrəvan quberniyasına gəlməzdən qabaq ermənilər 1918 sənəsi may aylarında məzkur [deyilən] müsəlman kəndlərinin üstünə hücum etmişlərdi. Fəqət o zaman bura müsəlmanları tüfəngləri və badironları [patronları] çox olduğu üçün erməni hücumlarının qabağında dayana bilmişlərdi. Hətta ermənilərə beş-altı yüzə qədər tələfat vermişlərdi.

Sonra hücum edən ermənilər İrəvandan, Erməni Hökumətindən kömək istəmişlər. Binaənileyh [ona görə] Erməni Cümhuriyyəti 1918 sənəsi iyul və avqust aylarında top və pulemyotlarla müsəlləh [silahlanmış] 20-30 min miqdarında bunların üstünə erməni əsgərləri göndərmiş.

Lihəzə [bu səbədən] yerli müsəlman kəndliləri daha bunlara müqavimət edəmməyib təslim olmuşlardı. O zaman ermənilər yalnız Böyük Məzrə kəndinə 109 top gülləsi buraxmışlardı. İndi Göyçə göl müsəlmanları içindən yanvarın 17-sində çıxıb gəlmiş məlumat sahibi bir cavan orada gözü ilə gördüyü əhvalatı bizim üçün böylə səhih surətdə danışdı:

*"Mən Qazaxlıyam. Göyçə gölü ətrafı müsəlman kəndlərindən Daşkəndinə qonaq getmişdim. Məndən beş-altı gün qabaq çox hissəsi "qaxtaqan" [qaçqın] ermənilərdən və yarısı atlı, yarısı da piyada olaraq 750 nəfərdən ibarət erməni əsgərləri 3 pulemyot və 2 ədəd topla bərabər Novo-Bayəzid müsəlman kəndlərindən rəsmi surətdə xərc yığmaq adı ilə bu kəndlərin üstünə gəlmişlər. Bu erməni əsgərlərinin müsəlman kəndlərindəki rəftar və müamilələri [davranışları] böylə idi: Erməni əsgərləri hər müsəlman kəndinə yetişirdilərsə, qabaqca o kənd camaatının qalan silahlarını alırdılar. Sonra kəndlilərin öhdəsindən gələmməyəcəkləri surətdə cəbrən [zorla] ağır-ağır xərclər alırdılar. Belə ki, məzkur əsgərlər mən özüm mövcud olduğum Böyük Məzrə kəndi müsəlmanlarını 34 min manat xərc verməyə məcbur etdilər. Bundan əlavə, həmin kənddən 50 arabaya qədər ot, 5 xarvar taxıl, 10 xarvar arpa, 20-30-a qədər at apardıqları kimi, evlərdən arvad ziynətləri qəbilindən daha bir çox cəvahirat, arvad və kişi təzə paltarları[nı] talayıb apardılar. Sonra "Daşkənd" denilən kənddən otlu, taxıllı, neftli və talan olaraq 280 min manatlıq qarət və zəbt etdilər. Bundan savayı həmin kəndin sakini Məşhədi Qasımın 120 baş qoyununu, 24 baş qaramalını, 50 araba otunu və 10 min manatlıq miqdarında ev müxəlləfatını [ev əşyasını] aldılar.*

*Hakəza [eləcə də] Canəhmədli kəndindən 15 at, 30 araba ot, nəğd və taxıl olmaqla 15 min manatlıq əşya və neft aldıqları kimi arvad, kişi, hər kəsin əynində təzə paltar görürdülərsə, "bunlar kazyonnıdır" [xəzinəyə məxsusdur] deyib, libasını əynindən çıxarırdılar.*

*İnəkdağı kəndindən dəxi taxıl, ot, at və qeyri bu kimi camaatın mayehtacını [lazımlı şeylərini, avadanlığını], 50-60 min manatlığa qədər alıb apardılar. Bunun kimi Qaraimanlı, Sucalı, Bala Məzrə və daha qalan o ətrafdakı müsəlman kəndlərini bu növlə cəbrən xərcləyib, taladılar.*

*Erməni əsgərləri hər kəndin üstünə getdikləri vaxt ümumən yəni 750 nəfəri də topları, pulemyotları ilə bərabər o kəndin üstünə gəlib müsəlmanları xərcləyirdilər, talayırdılar. Sonra genə birlikdə o hal ilə o biri müsəlman kəndinin üstünə gedirdilər.*

*Böyləliklə, İrəvan quberniyasının Novo-Bayəzid mahalında ermənilər içində qalıb, erməni hökumətinə təslim olmuş olan 35 para müsəlman kəndlərinin camaatı fəcianə [faciəvi] bir hal keçirməkdədirlər. Yolları qalın qar təbəqələri basdığı üçün bir tərəfə qaçammayırlar.*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 3 fevral (Bazar ertəsi günü) tarixli 104-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*Binəvaların səsləri və harayları da bir yana çatmayır. Sizi inandırıram, əgər mən çı-xıb bu tərəfə gəlməsəydim və sizinlə görüşməsəydim, nə bilim onların halından kim xəbər tuta biləcəkdi."*

Müxatibimiz [həmsöhbətimiz, söz danışan şəxs] burada dərin suzişli [yanıqlı] bir ah çəkəndən sonra məhzun [hüznlü] bir hal ilə sözünə davam etdi:

*"Daşkənd sakinlərindən bir kişi namusunu saxlamaq üçün arvadını özgə bir kəndə qaçırmaqla, erməni əsgərlərinin təcavüzündən qurtara bilmişdi. Çünki nizami erməni əsgərləri camaatdan xərc yığdıqları əsnada, müsəlman qızlarına və arvadlarına da təcavüz etməkdədirlər."*

İştə, Azərbaycanımızda rahat və azadə yaşamaqda olan erməni təbəələrimizin rifahətinə [firavanlığına] qarşı erməni insaniyyətkarlığı!

Azərbaycan Parlamanımızda və Azərbaycan Kabinəsində ermənilərə məbusluq və vəzirlik mənsəbləri ayırdığımıza qarşı, Erməni Cümhuriyyətinin mükafatı!

*M[ir] A[bbas] Mirbağırov*

## ÖMƏR FAİQİN BAŞINA GƏLƏNLƏR

Daha 1918 kanuni-əvvəlində [dekabrında] Batuma getmək üzrə Tiflisdə bulunduğum vaxt möhtərəm qələm arxadaşım Ömər Faiqin Tiflis komandanlığı dairəsində məhbus olduğunu eşitdim və həman gün ziyarətlərinə getdim. Nə üçün həbs edildiklərini anladım. Məlum olduğu üzrə Batum-Qars sancağındakı müsəlmanlar cilovu gürcülərin əlinə vermək istəməyirlər. Ömər Faiq də əhalinin hissiyyatına bir tərcüman vəzifəsi gördüyündən, gürcülüyə "zərərli" görülmüş və həbs edilmişdir. Fəqət əhvaldan öylə anladım ki, Gürcüstan Hökuməti Ömər Faiqi tezlikdə sərbəst buraxacağını vəd etmişdir. Bütün safdil millətimlə bərabər mən də gürcüləri dost olaraq tanıdığımdan, Azərbaycan mətbuatına bu xüsusda bir şey yazmadım. O dostluğun xatirəsi üçün bu məsələyə o qədər də əhəmiyyət verməyib Batuma getdim. Bir də möhtərəm yoldaşım özü araya pozğunluq düşməsinə bizzat [şəxsən] razı olmadı. Batumdan döndükdən sonra Gəncədə Ömər Faiqin Tiflisdən çıxmamaq qeydi ilə sərbəst buraxıldıqlarını eşitdim və sevindim.

Bu dəfə kanuni-saninin [yanvarın] 22-də bir daha Tiflisə getdim. Ömər Faiqin təkrar həbs edildiyini təəssüflərlə anladan yoldaşlara rast gəldim. Bu dəfəki həbsin əvvəlkinə bənzəmədiyini də əlavə etdikləri vaxt, pək ziyadə maraqlandım. İcab edən vəsiqəni əldə etdikdən sonra görüşə bildim. Mən Ömər Faiqi yenə əvvəlki üç arxadaşı ilə bərabər komandanlıq həbsxanasında buldum. Yarım saat sürən mülaqatımız [görüşümüz, söhbətimiz] anlatdı ki, Ömər Faiqi bu dəfə həbs etdikləri kimi arxadaşları ilə bərabər Tiflisin mərkəzi həbsxanasında qapatmışlar. Bu həbsxana qatillərin, canilərin yatağıdır. Bu həbsxananın daxili, Allah göstərməsin, nə qədər murdar hərəkətlərin yuvası imiş. Buraya Gürcüstan Hökuməti caniləri bıçaqları, ilanları dişləri ilə bərabər olaraq toplamışdır. Bu həbsxananın içərisində Gürcüstan Hökumətindən başqa bir hökumət var imiş. Buraya yeni daxil olan bir məhbus təbəəlik vergisi verməli imiş. Bu yeni hökumətin buyurduğuna əməl etməyənlərin vay halına! Pekin və Tehran həbsxanalarında olmayan işgəncələr altında can verənlərin həddü hesabı yoxdur. Əski əsrarəngiz bu qalanın hər qaranlıq guşəsi bir çox qurbanların məqtəli [qətl yeri] imiş. Bir sözlə, o qalada adam öldürmə dərsi yenidən böyük bir məharətlə öyrədilməkdə imiş.

İştə bu dəfə Qafqaz türklərinin sevgili yazıçısı böylə bir məhbəsdə müsafir olaraq günlərcə qalmışdır. Vergi istənildiyi vaxt verməkdən aciz qalan mühəririmiz dəhşətli bir yumruq və təkmə tufanı altında qalmışdır. Dışarıdan dostların göndərdiyi yeməklər verilmədiyi kimi, içəridəki "qanlı lokanta" [yeməkxana] hökuməti də dustaqxananın yeməyini verməmişdir. Onu müşayiət edən qaraqol əsgərlərin anlatmış olması ilə "vətən xaini" (?) Ömər Faiq sabahdan axşama qədər ölümə müntəzir olmuşdur [ölümü gözləmişdir].

Bir qaç gün bu cəhənnəm əzabından sonra Ömər Faiqin Tiflisdəki dostları işi anlayıb, hökumətə söyləmişlər. Həbsxanasından xəbəri olmayan hökumət də Ömər Faiqi təkrar Şəhər komandanlığı həbsxanasına nəql etmişdir. Məsələ bununla bitməmiş, onun yoldaşlarından biri yenə orada qalmışdır. O da Axısxanın mötəbər əşxasından [şəxslərindən] birisidir. Kəskin dişli bıçaqlar Ömər Faiqin hesabını bir gün bir gecə o zavallıdan sormuşdur. İkinci günü o zat da oradan ötəki həbsxanaya nəql edilmişdir.

Zamanə yazıçıları vüquatı [hadisələri] kəndi duyğularına uydurub meydana çıxarırlar. Fəqət mən bunu, bu məlumatı Ömər Faiqdən və digər üç arxadaşından eşitdiyim kimi yazdım. Burada göstərdiyim, olunan həqarətin bir cüzisidir. Mən bu həqarəti Ömər Faiqə deyil, millətimə edilmiş hesab etdiyim üçün gürcü millətinin dostluğunu ürəyimdə saxlamaqla bərabər, gürcü hökumətinə qələm arxadaşlarım naminə etiraz edirəm. Ömər Faiq Axısxanın deyildir, bütün millətin malıdır. Bununla izzəti-nəfsi təhqir edilən millətim, dostluğunun sui-istemal [sui-istifadə] edildiyini hiss etməz deyildir.

*Cavad*

## "QAFQAZ CİBALİYYUN İTTİHADI" CÜMHURİYYƏTİNİN İLK PARLAMENTOSU

*(Xüsusi müxbirimizdən)*

Hökuməti-cümhuriyyənin ilk Parlamentosunun rəsmi-güşadı [açılış mərasimi] kanuni-saninin [yanvarın] 20-də icra ediləcəyi əvvəlcə elan edilmiş və Şimali Qafqazda yaşayan hər bir millətdən vəkillər dəvət edilmişdi.

Əhali bu günü böyük bir səbirsizliklə bəkləyirdi. Müstəqil və hürr Şimal Qafqaz Hökumətini vücuda gətirmək üçün yüzlərcə sənədən bəri həyatlarını fəda etmiş olan müəzzəm [böyük] Şamilin övladları artıq bu günü görmək səadətinə nail oldular. Bu gün Şimali Qafqaz millətləri üçün böyük və tarixi bir gün, tarixi bir bayramdır. Bu gün şəhərdə büsbütün başqa bir həyat, əhalidə büsbütün başqa bir ruh!

Bu gün hər kəsin üzündə istiqlal qüruru, böyük bir məsudiyyət hiss edilirdi. Bu gün Cənabi-haqq Cibaliyyun İttihadı millətlərinə əsrlərcə bəslədikləri müqəddəs əməlləri [arzuları] gözü ilə görmək nemətini bəxş etmişdir. Bu gün bütün hökumət dairələrində rus imperializm bayrağı deyil, yeddi ulduzlu Şimali Qafqaz bayrağı böyük bir əzəmət, böyük bir heybətlə təməvvüc edirdi [dalğalanırdı].

Ey müəzzəm Şamil! Kim bilir bu gün ruhun nə qədər şaddır! İslamın ülviyyəti üçün ixtiyar etdiyin o xariqüladə qəhrəmanlıqlarına mükafat olmaq üzrə Qadiri-mütləq həzrətləri bu gün övladlarına istiqlal lütf buyurmuşdur!

Parlamentonun rəsmi-güşadı saat 1-də icra ediləcəyindən, saat 12-yə doğru əhali güruh-güruh [dəstə-dəstə] olaraq Parlamento binasının ətrafına toplanmaqda idilər. Parlamentonun önündə bir müfrəzə [qrup, dəstə] əsgər və musiqiçilər səfbəstə olaraq [sıraya düzülərək] Məclisin rəsmi-iftitahını [açılışını] bəkləyirlərdi. Nəhayət saat 1 radələrində heyəti-hökumət binadan dişarıya çıxdı. Musiqi bunları milli marş oynayaraq istiqbal etdi [qarşıladı]. Parlamentonun müvəqqət rəisi sifətilə mühəndis Zübeyr Teymurxanov əhalini Parlamentonun açılması münasibətilə təbrik etdikdən sonra, əlini binaya uzadaraq: *"İştə əfəndilər, bizim həyatımız bu binaya mərbutdur [bağlıdır]. Bizim bütün müqəddəratımız bu binada həll ediləcəkdir. Cənabi-haqqdan tövfiq [kömək] diləriz."* dedi.

Sonra şeyxülislam Nəcməddin əfəndi həzrətləri kamali-xüşu və xüzu [təvazö] ilə Parlamentonun müvəffəqiyyati-həsənəsi [gözəl müvəffəqiyyətlər qazanması] üçün bir dua oxudu. Bütün əhali böyük bir sükut içində "amin" avazı ilə əldə etdikləri istiqlalın bəqası [əbədiliyi] üçün Cənabi-xaliqi-kainatın [kainatın yaradıcısı olan Allahın] hüzuri-əzəmətində [uca hüzurunda] təzərrö və niyazda bulunurlardı [yalvararaq dua edirdilər].

İftitah [açılış] duasından sonra məclis salonu açıldı. Salonun divarları cümhuriyyət bayraqları ilə donadılmış [örtülmüş], döşəməsi xalılarla təzyin edilmişdi [bəzədilmişdi]. Məbuslar mövqelərini işğal etdilər [Millətvəkilləri öz yerlərini tutdular]. Hökumət lojasında Baş vəkil ilə bərabər bütün heyəti-hökumət və diplomasi lojasında ingilis əsgəri vəkilləri [hərbi nümayəndələri] bulunurlardı. Seyirçilərə təxsis edilən [ayrılan] mövqe də xıncaxınc [ağzına qədər] dolmuş idi.

Saat bir buçuq radələrində Zübeyr Teymurxanov həzrətləri müxtəsər bir nitq ilə Məclisi rəsmən açdı. Zübeyr həzrətləri hürriyyətin və Rusiya inqilabi-kəbirinin [Böyük Rusiya inqilabının] bizə bəxş etmiş olduğu nemətlərin ən böyüyü bu Məclis olduğunu, Şimali Qafqaz millətlərinin səadət və istiqbalları[nın] [gələcəklərinin] buna mərbut [bağlı] olub bütün müqəddəratları burada həll ediləcəyini bəyan etdikdən sonra, bunun əsası "Hər bir millət müstəqillən yaşamaq haqqına malikdir!" prinsipi olduğunu söyləyir.

Sonra rəis, Şimali Qafqaz millətləri[nin] heç bir vaxt ayrılmamaq üzrə ittifaq etdiyini və bu ittifaqda ufaq-böyük hər bir millət müsavi [bərabər] olub, heç bir millət digər bir millət üzərində təhəkküm etmək caiz olammayacağını, əks təqdirdə bu ittifaq və istiqlalın bəqa və davamını təmin etmək pək müşkül olacağını anladır.

Sonra rəis Rusiyaya nəqli-kəlam edərək [sözü gətirərək]: *"Rusiya ilə olacaq münasibətimiz bu gün məchuldur. Bu məsələ Parisdə iniqad edilməkdə [yığışmaqda] olan Sülhi-Ümumi Konfransında həll ediləcəkdir. Fəqət bu yeni cümhuriyyətimizin Avropa və sair düvəli-müəzzəməsincə etiraf edilməsi [böyük dövlətləri tərəfindən tanınması] bizim kəndi-kəndimizi və daxili asayişimizi mühafizə edə bilməmizə mütəvəqqifdir [bağlıdır]. Əgər biz buna qadir və müstəqillən yaşamağa layiq olduğumuzu göstərə bilsək, bizim cümhuriyyətimizə heç bir qorxu mütəsəvvir [təsəvvür olunan, mümkün olan] deyildir."* deyir.

Rəis: *"Ufaq millətlərin təxlisi [xilası] üçün bu cahanşümul [bütün dünyanı əhatə edən] müharibəyə girişmiş olan İttifaq heyəti-düvəliyyəsi [İttifaq dövlətləri, Antanta dövlətləri] də heç şübhəsiz bizim bu haqqımızı etiraf edəcəkdir"* deyir və diplomasi lojasına əlini uzadaraq: *"İştə, yeni cümhuriyyətimizin ilk Parlamentosunda böyük İngiltərənin əsgəri vəkillərini də görürsünüz"* deyir. Parlamento əzaları [üzvləri] ingilis mürəxxəslərini [nümayəndələrini] sürəkli alqışlayır.

Sonra rəis Parlamentonun böyüklüyünü, millətin istiqbalı pək sıxı bir surətdə buna mərbut olduğunu bəyan etdikdən sonra Parlamentonun əzalarını yeni cümhuriyyətin səadəti naminə müttəhidən [birgə] və əldən gəldiyi qədər çalışmağa dəvət edir və *"Yaşasın yeni Cümhuriyyətimiz! Yaşasın ilk Parlamentomuz!"* deyə nitqini bitirdikdən sonra sözü Baş vəkilə [Baş nazirə] verir.

Baş vəkil Kotsev həzrətləri mütəmadi alqışlar arasında kürsiyi-xitabətə çıxır və yeni cümhuriyyətin birinci parlamento[sun]a xitabən nitq irad etmək [nitq söyləmək] şərəfinə nail olduğu üçün kəndisini çox bəxtiyarədd [hesab] etdiyini bəyan edir. Baş vəkil həzrətləri zamanın fövqəladə əhəmiyyətini böylə təsvir edir:

*"Ətrafımızda müdhiş alovlar davam edir. Bütün cahan böyük bir fırtınaya tutulmuşdur. Biz bu fırtınadan sahili-səlamətə çıxa bilmək üçün mindiyimiz gəmini müttəhidən və fövqəladə bir tədbiri-məharət ilə komanda etmək lazımdır. Biz bu gəmini son nəfəsimizə qədər mühafizə etməliyiz."* deyir.

Sonra Baş vəkil, hökumət[in] qətiyyən Parlamentonun göstərdikləri yollardan çıxmayacağını bəyan etdikdən sonra Parlamento əzalarını ufaq cidalların [xırda dava-dalaşın] tərki ilə müttəhidən çalışmağa dəvət edir və şəxsi qərəzlər üçün hökumətin fəaliyyətinə müşkülat çıxarmamalarını hökumət naminə rica edir. Böylə müttəhidən çalışıldığı təqdirdə yeni əldə edilən istiqlalın mütləqa əlimizdən çıxmayacağına Baş vəkil qətiyyən əmin olur və *"Yaşasın gənc Cümhuriyyətimiz! Yaşasın Parlamentomuz!"* sözləri ilə nitqinə xatimə [son] verir. (Sürəkli alqışlar!)

Sonra təbrik nitqləri başlanır. Təbrik nitqlərindən sonra rəis bəy qonşu hökumətlərdən gəlmiş olan təbrik teleqraflarını oxuyur. Əzaların əzalıq vəsiqələrin[in] təhqiq və təftişi üçün üç kişidən mürəkkəb [ibarət] bir Təhqiq komisyonu intixab edildikdən [seçildikdən] sonra, saat 4 radələrində məclis qapandı. İkinci məclis ertəsi gün axşam saat 6-da iniqad ediləcəkdir.

*H. Bürhanəddin*

## BAKI XƏBƏRLƏRİ

**Yeni qəzetə**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən nəşr olunan həftəlik "İstiqlal" qəzetəsinin birinci nömrəsi bu gün düşənbə [bazar ertəsi] çıxır. Qəzetə ancaq firqə və fəhlə həyatına münhəsirdir [həsr edilmişdir].

**Balaxanıda fəhlə klubu**

Şubatın 1-ində Sabunçu ambulatoriyasında fəhlələrin xüsusi bir iclası vaqe olaraq, fəhlə təşkilatı qurmaq və fəhlə klubu layihəsi tərtib vermək üçün bir komissiya seçilmişdir.

**Gəncədə Kəsbkarlar İttifaqı**

Bakı Kəsbkarlar İttifaqları Şurası [Həmkarlar İttifaqları Şurası] Gəncədə Kəsbkarlar İttifaqı təsis etmək üçün oraya vəkillər göndərir.

**Aptek xidmətçilərinin tətili ətrafında**

Aptek əmələlərinin [işçilərinin] tətili hənuz davam etməkdədir. Ermansdan sonra indi də Rayqorodetski tətil komisyonuna məktub yazaraq, xidmətçilərin tələblərini tamamilə qəbul etdiyini bildirmişdir.

**General Biçeraxov**

"Qafqazya-Kaspi Hökuməti" deyilən təşkilat tərəfindən iki etibarnamə alaraq general [Lazar] Biçeraxov iki konfransa gedir. Birincisi Mərmərə dənizində Rusiya firqə və cərəyanları nümayəndəsi konfransı, ikincisi Versal Ümumi Sülh Konfransına. General Biçeraxova tapşırılmışdır ki, ümum Rusiyanın qoşma [federativ] xalq cümhuriyyəti əsası ilə birləşdirilməsi və Rusiya tərzi-idarəsi və xırda millətlərin müqəddəratı məsələsinin həlli üçün ümum Rusiya Məclisi-Müəssisanı çağrılmasını müdafiə etsin.

## AZƏRBAYCANDA

**Lənkəran**

Xüsusi müxbirimizdən:

Kanuni-saninin [yanvarın] 23-də məşhur Lənkəran tacirləri və sərvətdarlarından [varlılarından] Hacı İbad Əkbərovun vəfatı günü erməni saldatlarının sərkərdə və rəisi olan Makarov və Samborus ilə məə [birgə] oraya gəlib evin təxliyəsini cəbrən təhəkküm etmiş, qışın zamanı yağmağına baxmayıb onları həyətə qovub özləri evində müsamirə [yığıncaq; əyləncə] etmişlər. Onlar həyətində yağışın altında gecə sabah edib, sübh zamanı Hacı İbad vəfat etmişdir.

## GÜRCÜSTANDA

* Gürcüstan Xariciyyə naziri Ermənistan Parlamanı sədri [Avetik] Saakyanın bilamümaniət [maneəsiz] Tiflisə buraxılması üçün binagüzarlıqda bulunmuşdur [təşəbbüs göstərmişdir].

**Müsəlman Milli Şurasında**

Gürcüstanda olan Müsəlman Milli Şurasının 26-sı yanvarda vaqe olan fövqəladə iclasında heyəti-rəyasət intixab edilmişdir [rəyasət heyəti seçilmişdir]:

Sədr - Əbdürəhim bəy Haqverdiyev, sədr müavinləri - Əlimirzə bəy Nərimanov və Abbasqulu xan Əhmədov, xəzinədarlığa [müsahibliyə] - İsmayıl Xəlilov.

Məzkur [adı çəkilən] Şura bu yaxınlarda Tiflisdə bütün Gürcüstan müsəlmanları ictiması [yığıncağı] dəvət etmək niyyətindədir.

**Müsəlman qlasnı siyahıları**

Tiflis Bələdiyyə İdarəsi qlasnı namizədləri siyahısını elan etmişdir. Gürcüstanda olan Müsəlman Milli Şurasının altı nömrəli siyahısında yeddi nəfər namizəd göstərilmişdir. Namizədlər: Əli Bayramov, Mirzə Hüseyn Həsənzadə, Fətəli Axundov və qeyriləri.

**Protesto mitinqi**

Soçidə yanvarın 25-də Rus Milli Şurası təşkilinə qarşı protesto eyləmək üçün böyük bir mitinq təşkil edilmiş imiş. Mitinq müttəhidülqövl [yekdilliklə] zeyldəki [aşağıdakı] qərarı qəbul eyləmişdir:

1) Soçi demokratiyası Könüllü dəstələrin təcavüzündən xilas edən Demokratik Gürcü Cümhuriyyəti himayəsində yaşayaraq demokratik üsulu ilə özünün ictimai və siyasi vəziyyətini müdafiə edir və milli əsasla təşkil edilmiş heç bir müəssisəyə ehtiyacı yoxdur.

2) Soçi demokratiyası nəinki bu işdə iştirak etmiyəcəkdir, biləks [əksinə] hər milli şuraya ciddi surətdə protesto edir.

3) Məhəlli [yerli] sağ ünsürlərin fitvası ilə təşkil edilmiş Rus Milli Şurası bizim Gürcüstan demokratiyasına qarşı fitnədir. Bu şura, Kubanda olan mürtəcelər ilə əlaqədə bulunub bütün demokratiyaya zərbə endirir.

**Qəzetə qapanması**

Batumda general-qubernator bina-güzarlığı [göstərişi] ilə qapanmış olan "Musulmanskaya Qruziya" (İslam Gürcüstanı) nam [adlı] qəzetə hələ çıxarılmayır.

## TEATRO VƏ MUSİQİ

Bu gün (düşənbə) [bazar ertəsi] "Mikado" teatrında Üzeyir bəy Hacıbəyli cənablarının neçə illərdən bəri Bakı səhnəsində oynanmamış olan "Ər və arvad" operettası mövqeyi-tamaşaya qonulacaqdır. Bu tamaşanın təntənəli bir surətdə oynanması üçün müdiriyyət lazımi hazırlıqlar görmüşdür.

## İDARƏYƏ MƏKTUB

**- 1 -**

Möhtərəm müdir!

Qəzetənizin 100-cü nömrəsində "Batum oblastı və gürcülər" ünvanında Əhməd Həmdi Qaraağazadə tərəfindən yazılan əhvalatı oxuyub rəf'i-iştibah [yanlışı düzəltmək] üçün bu məktubumun dərcini rica edirəm.

Əhməd Həmdi Qaraağazadə cənabları Batum oblastında gürcü propaqandası artmasından bəhslə, Abaşidze Hafiz Məhəmməd Tağı bəy cənablarını töhmət etmişdir. Burasını deyə bilərəm ki, bir çoxlarınca məşhur olan Məhəmməd bəy Abaşidze cənabları həməvəqt [daim] öz dini və milləti uğrunda canü dildən çalışan qəyur [qeyrətli; çalışqan] bir zatdır. Abaşidze cənabları türklük haqqında bilümum [ümumiyyətlə], Azərbaycan haqqında bilxüsus [xüsusilə] heç vaxt düşmənçilik bəsləməyib, bəlkə həmişə hüsntəvəccöh göstərib və göstərməkdədir. Və əlavə, Abaşidze nəslindən bugünə qədər xəfiyyəlik və başqa rəzalətlərə mürtəkib olan [bulaşan] bir zat olmadığı həm türklərə və həm də gürcülərə məlumdur. İştə bu qədərlə Abaşidze haqqında yazılan əsassız fəqərəni [hadisəni] təkzib etməyi kəndi vəzifəm ədd [hesab] etdim əfəndim.

*Yəhya Hacıyev*

**- 2 -**

Möhtərəm müdir əfəndi!

Xahiş edirəm bu neçə sətiri möhtərəm "Azərbaycan" cəridəsinin [qəzetinin] sütunlarında səbt [dərc] edəsiniz:

Rus "Azərbaycan" qəzetəsinin 16-cı nömrəsində bu tövr yazılmışdı: Yusif Qəribova Ərzaq naziri tərəfindən Lənkəran camaatı üçün 6000 arşın ağ və çit verilibdir. Yenə də hal-hazırdakı Azərbaycan Parlamanında Lənkəran nümayəndəsi hesab olunur. Rəbiüləvvəlin 5-də Hacı Zeynalabidin fabrikasının kantoruna gedib, axtarışdan sonra həman qayırılma vəkalətnaməni tapdım. Vəkalətnamə noyabrın 7-si 1918-ci tarixdə üç nəfərin adı ilə yazılıbdır. Yəni Lənkəran camaatı tərəfindən guya həmin bu üç nəfər arşın malı almağa vəkil olmuşlarmış: 1) Yusif Qəribov; 2) Teymur bəy Bayraməlibəyov; 3) Böyükağa bəy Mirəlibəy oğlu.

Vəkalətnamə imza edənlər: Seyfulla Cabbar oğlu, Yunis Axundov, Mirhüseyn Talışxanov, Əhməd Axundov, Hacıəli Məhəmmədov və Abbasqulu Murtuza oğlu.

Mən bu xüsusda Ərzaq Nəzarətindən sual edib ələn [hələ] iki həftədir cavab almamışam. Xahiş edirəm Ərzaq İdarəsi cavab versinlər. Əvvəla, 6 nəfərin imzası ilə 3 nəfərin iki yüz min cana baliğ [çatan] camaat tərəfindən vəkil olması dürüst və həqiqət olarmı?

2) Bərfərz [fərz edək ki], 6 nəfərin imzası ilə vəkalətnamə dürüst oldu. Aya [bəs], lazımdırmı yazılan qolların xətti tamamən ayrı-ayrı olsun, yainki hamısı bir xətdə, iki xətdə olsa da kifayət edər?

3) Bu 6 min arşın əşya Lənkəranın hansı hissəsi üçün təyin olunubdur?

Və bir də möhtərəm müdir! "Azərbaycan"ın keçmiş nömrəsində Yunis əhvalatı yazılmışdı ki, guya, Lənkəran dairəsində zülmlər edibdir və edir. Bu da səhvdir. Gələn nömrədə Yunis əhvalatından filcümlə [qısaca] xidmətinizə ittila [xəbər] verərəm.

*Lənkəran məbusu:*
*Hacı Mirzə Səlim Axundzadə*

**- 3 -**

Müdiri-möhtərəm! Bu qaç kəlməyə rica edirəm möhtərəm qəzetənizdə yer verəsiniz.

"Azərbaycan" qəzetəsində Ərzaq naziri vəkili Yusifəli [Əliyev] cənabları tərəfindən məzkur [adı çəkilən] qəzetədə Tağıyevin kantorundan yazılmış ki, Abbasqulu Kazımzadəyə verilib 1 top bez, 1 top kətan, 1 top bomazı, 1 top madepulam, 1 top qətifə. Mən məlum edirəm ki, doğrudur Ticarət nazirindən mənə məzkur əşyanı almaqda müsaidə verilmiş idi. Amma mənim məzkur kantordan aldığım əşya 1 top bez, 1 top kətan, 6 ədəd qətifə olmuşdur. Bunlardan başqa mənə bir şey vüsul olmamışdır [çatmamışdır].

*Kazımzadə Abbasqulu*


**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9-12-yədək; axşam saat 4-6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**İslamiyyə mehmanxanası (lokantası)**

Bir çox sənələrdən bəri davam edən və Mart hadiseyi-əliməsində [kədərli Mart hadisələrində] yanan "İslamiyyə" mehmanxanası yenidən təmir edilib bu gündən etibarən mehmanxanada gözəl lokanta [yeməkxana] açılmışdır. Mahir aşbazların təhti-idarəsində [idarəsi altında] hər növ Avropa və Asiya xörəkləri hazır edilir. Nahar və şam vaxtı Avropa və Asiya musiqi dəstəsi çalacaqdır. On beş ədəd nömrə hazırdır. Adres: Bazarnı və Qubernski küçələrin küncündə, telefon nömrə 12-51.

Kamali-ehtiramla: İsmayıl Mahmudzadə.

*2670*

**Elan**

Mexaniçeski və tökmə zavod "Amiz şirkəti" hər növ gəmi, mədən sifarişləri qəbul edir. Bayılovda Lbovun 3 nömrəli evində.

Burada ustadlar, şagirdlər yaxşı məvaciblə qəbul edilir. Şəraitini Armyanski küçədə 13 nömrəli evdə səhər saat 9-a kimi və axşam 3-dən 5-ə kimi "Amiz şirkəti"nin nümayəndəsi Süleyman Abdullayevdən bilmək olar.

*2671*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Operetta**
**Axşam tamaşası**

Mikado teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşlarının müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü
cəmadiyələvvəl ayının 2-sində
(fevralın 3-ündə) 1337 – 1919-cu ildə
Mikado teatrosunda müdiriyyətin
aktyorları tərəfindən təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
neçə illərdən bəri Bakı səhnəsində oynanılmayan
Üzeyir bəy Hacıbəylinin yazmış olduğu məşhur
"Ər və arvad" operettası 3 pərdədə.
Kəblə Qubadın rolunu
Mirzəağa Əliyev ifa edəcəkdir.
Qeyri iştirak edən əşxas müfəssələn
məramnamədə məlum olacaqdır.
Biletlər indidən teatrın kassasında
satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Dirijor: Müslüm bəy Maqomayev.
Müdir: Üzeyir bəy Hacıbəyli.


***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Ümum müsəlman tələbələrinə***

"1 şubat 1335": burada il, rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1 fevral 1919-cu il tarixinə uyğundur.

***Məclisi-Məbusan və müxaliflər***

"…türk xalqının idareyi-aliyyəsi…": ehtimal ki, "…türk xalqının iradeyi-aliyyəsi…" [uca iradəsi] olmalıdır; qəzetdə "idareyi-aliyyə" şəklindədir.

"fevral hürriyyətlərinin bəqası": Rusiyada 1917-ci ilin fevral ayında baş verən Burjua-demokratik inqilabı (yaxud Fevral inqilabı) və bu inqilabın nəticələri nəzərdə tutulur. Fevral hadisələri köhnə təqvimlə 23 fevral – 6 mart (yeni təqvimlə 8-16 mart) tarixləri arasında cərəyan etmişdir.

"qulami-halqa-bəguş": "qulağı sırğalı qul". Keçmişdə qulların qulağına sırğa taxılırdı, sırğa qulluq rəmzi idi.

***Teleqraf xəbərləri***

"…fərsəx…" yaxud "fərsəng", "ağac": Keçmişdə işlədilmiş məsafə ölçüsü. İşlədildiyi coğrafiyaya və dövrə görə dəyişiklik göstərməklə birgə, təxminən 5 kilometrə bərabər idi. Atın adi yerişlə bir saatda qət etdiyi məsafə, fərsəxin ölçüsü kimi qəbul edilirdi.

"Almaniya Bankı": Almaniyanın ən böyük bankı olan Döyçe Bank [Deutsche Bank] nəzərdə tutulur.

***Vükəla Şurasında***

"prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

***Nəzarətlərdə***

"Mədən İdarəsi": qəzetdə "Müavin İdarəsi" getmişdir.

***İrəvan: Erməni-müsəlman məsələsi***

"xarvar": çəki vahidi; 1 xarvar 25 puda, 1 pud 16,4 kiloqrama bərabər idi.

***Ömər Faiqin başına gələnlər***

"sancaq": "il" (vilayət) ilə "ilçə" (rayon) arasında inzibati-ərazi vahidi.

"Əski əsrarəngiz bu qalanın…": söhbət Tiflisdəki Metex qalasından gedir; Metex qalası XIX əsrin əvvəllərindən etibarən həbsxanaya çevrilmişdir.

"Cavad": bu imza Əhməd Cavada məxsusdur.

***"Qafqaz Cibaliyyun İttihadı" Cümhuriyyətinin ilk Parlamentosu***

"Qadiri-mütləq həzrətləri": Hər şeyə qadir olan, mütləq qüdrət sahibi olan Allah.

***Bakı xəbərləri***

"General Biçeraxova tapşırılmışdır ki…": bu cümlə qəzetdə müəyyən səhvlərlə getmişdir.

***İdarəyə məktub***

"Rəbiüləvvəlin 5-də": burada tarix hicri təqvimlə verilmişdir; miladi tarixlə 9 dekabr 1918-ci ilə uyğundur.

"Yunis əhvalatı": Cümhuriyyət dövründə Azərbaycanın cənub bölgələrində fəaliyyət göstərmiş Qaçaq Yunis nəzərdə tutulur.

"bomazı": xovlu, isti pambıq parça növü.

"madepulam" (yaxud madepolam): sıx toxunmuş ağ pambıq parça; əsasən alt paltarı tikməyə yarayır.

"qətifə" (yaxud qətfə): böyük ölçülü bədən dəsmalı.

# "Məni Şaiqdən ayırmayın - Kamal Talıbzadə"

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Muzey Mərkəzində akademik Kamal Talıbzadənin 100 illik yubileyinə həsr olunmuş "Məni Şaiqdən ayırmayın - Kamal Talıbzadə" adlı tədbir keçirilib.**








Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru akademik Kamal Talıbzadənin qızı Ülkər Talıbzadə qonaqları salamlayaraq görkəmli ədəbiyyatşünas alimin yaradıcı irsi, tədqiqatları haqqında danışdı. Qeyd olundu ki, XX əsr Azərbaycan bədii fikrinin öyrənilməsinə həsr edilmiş mötəbər tədqiqatların müəllifi olan K.Talıbzadə milli ədəbiyyatşünaslıq elminə qiymətli töhfələr verib. Alim Azərbaycanın tanınmış ictimai və mədəniyyət xadimi Abdulla Şaiqin və böyük qardaşı Yusif Ziya Talıbzadənin yaradıcılığını araşdırıb, həmçinin Abdulla Şaiqin Mənzil-Muzeyinin yaradıcısı olub.

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli Kamal Talıbzadəni klassik bir ziyalı adlandırdı: "Mənim Kamal müəllimdən öyrəndiklərim 30 ilə yaxın bir dövrü əhatə edir. Kamal müəllimi orta məktəbdən tanıyırdım və bilirdim ki, Abdulla Şaiqin oğludur. Yaxından tanışlığımız, ünsiyyətimiz isə aspirantura imtahanı verdiyim gün olmuşdu". Akademik maraqlı xatirələrlə böyük alimin xeyirxahlığı, tövsiyələri, elmi irsi barədə söhbət açdı.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi Məhərrəm Qasımlı sevinc hissi ilə vurğuladı ki, ona ilk xeyir-duanı Abdulla Şaiq ocağının davamçısı Kamal Talıbzadə verib: "Elm yolumdakı ilk işığı Kamal müəllim yandırıb və mən bunu heç vaxt unutmaram. Onun səmimiyyəti, müdrikliyi yaddan çıxmır. Kamal müəllim 26 yaşında olanda akademiyada şöbə müdiri işləyirdi. Bu yaşda şöbə müdiri olmaq sovet məkanında bəlkə də yeganə hadisə idi. Yaşını qabaqlayan müdriklik onu yaşıdlarından fərqləndirirdi. Ensiklopedik biliyə malik olan Kamal müəllim sözün böyük mənasında Ədəbiyyat İnstitutunun pasportu idi. O, A.Şaiq muzeyini də yaratdı. İndi bu muzey ən dəyərli mədəniyyət ocaqlarından biridir".

AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə dedi: "Kamal Talıbzadənin "Ədəbi tənqidin tarixi" kitabını 1990-cı illərin ortalarında oxudum. Baxmayaraq ki, artıq fəlsəfə doktoru idim, bu kitabı bir tələbə kimi qeydlər apararaq oxudum. Kamal müəllimin bu kitabı mənim üçün bir metodoloji mənbə oldu. Böyük alimin bu əsəri baxmayaraq ki ədəbi tənqidə həsr olunub, ədəbiyyatşünaslığı bir elm kimi bütövlükdə əhatə edir. Onun elmi fəaliyyəti ədəbiyyatın elmi uğurlarının sədlərini çoxdan aşıb".

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar artist Şövqi Hüseynov Abdulla Şaiqin "Yad et məni!" şeirini xüsusi ilhamla səsləndirdi.

Xəzər Universitetinin təsisçisi, alim, yazıçı, ictimai xadim, professor Hamlet İsaxanlı dedi ki, tədbirə dəvətnaməni alanda çox sevindim. Hər şeydən əvvəl bu tədbirin adı məni cəlb etdi: - "Məni Şaiqdən ayırmayın". Kamal müəllimi Şaiqdən ayırmaq mümkün deyil. Abdulla Şaiq ədəbiyyatımızda və müəllimlik sənətində əvəzsiz bir şəxsiyyətdir.

AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Asif Rüstəmli, Bakı Dövlət Universitetinin professorları Knyaz Aslan, Vaqif Sultanlı və AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi Nəzakət Qafqazlı da akademik Kamal Talıbzadə ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşdülər. Qeyd etdilər ki, Kamal Talıbzadə böyük və dəyanətli əqidələri olan bir nəslin nümayəndəsidir. Onun dərs dediyi tələbələr sonralar Azərbaycan ədəbiyyatında və mədəniyyətində xüsusi yer tutmuşlar. Abbas Səhhətin həyat və yaradıcılığı ilə bağlı dissertasiyası dövrünün ən populyar ədəbiyyatşünaslıq əsərlərindən biri olub. O, kamilliyi ilə zirvələri fəth edən, yaddaşlarda səmimi, mehriban, sədaqətli bir insan kimi qalacaq.

Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Ülviyyə Hacıbəyova bəstəkar Zülfüqar Hacıbəyovun Abdulla Şaiqin eyniadlı əsərinə bəstələdiyi "Nüşabə" operasından uvertüranı fortepianoda ifa etdi.

Abdulla Şaiqin sözlərinə bəstələnmiş Səid Rüstəmovun "Sevirəm səni", Əşrəf Abbasovun "Oxu, bülbülüm" romanslarını respublika və beynəlxalq müsabiqələr laureatları Nigar Əsgərova (vokal), Ayan Aslanova (fortepiano) ifa etdilər.

Tədbirdə Abdulla Şaiqin Mənzil-Muzeyinin hazırladığı "Kamal Talıbzadə - 100" adlı foto-sərgi və alimin kitabları nümayiş etdirildi. Yubiley gecəsi boyu alimin həyatı və geniş elmi, ictimai-mədəni fəaliyyətini əks etdirən slayd-şou nümayiş olundu.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

# Şəhid anasının problemləri həll edilib

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Vətən müharibəsi şəhidi Hacı Rauf Əsgərovun anası Brilliant Əsgərova ilə görüşüb.**



N.Bayramov şəhid anası ilə söhbət zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək canlarını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçılarına göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, onların sosial problemlərinin həlli, o cümlədən mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində mütəmadi işlər görülür.

Görüş zamanı Brilliant xanım şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz adından və şəhid anaları adından təşəkkürünü bildirib. Daha sonra bir sıra müraciətlərini dilə gətirib.

Şəhid anasının müraciətlərinin bəziləri yerindəcə həll olunub, digərləri isə qeydiyyata alınaraq nəzarətə götürülüb.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Şəhidin övladı dünyaya gəlmişdir





**Ərazi bütövlüyümüzün təmin olunmasında öz canından keçən minlərlə igid oğullarımızın arasında Şikar Hüseynov da var.**

O, keçən il sentyabrın 19-da başlanan lokal xarakterli antiterror tədbirləri zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş, öz xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur. Prezident İlham Əliyevin sərəncamı ilə igid Azərbaycan oğlu "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Bu günlər şəhidin ailəsində böyük sevinc yaşanır. Belə ki, qəhrəman şəhidin övladı dünyaya gəlmişdir. Goranboy rayonunda doğulan körpəyə Mələk adı verilmişdir. Şəhid övladının zəruri xərclərini öz üzərinə götürən "YAŞAT" Fondu şəhidin həyat yoldaşının hesabına 1000, dünyaya yeni göz açan körpənin adına isə depozit hesabı olaraq 5000 manat köçürmüşdür.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Səhiyyə Nazirliyi risk qrupuna aid ölkə vətəndaşlarını mövsümi qripə qarşı peyvənd olunmağa çağırır

Qış mövsümü və havaların kəskin soyuması ilə əlaqədar ölkə ərazisində kəskin respirator virus infeksiyalarının yayılması gözləniləndir. Bununla əlaqədar, əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əks epidemik tədbirlərin gücləndirilməsi məqsədilə ölkəmizdə mövsümi qripə qarşı vaksinasiya kampaniyası davam edir.

Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, respirator xəstəliklərə görə yüksək risk qrupuna aid olan səhiyyə işçilərinin, hamilə qadınların, xroniki tənəffüs sistemi xəstəlikləri olan 6 aylıqdan yuxarı uşaq və böyüklərin qış mövsümündə qripə qarşı peyvənd olunması xüsusilə vacibdir. Əhalinin sağlamlığının qorunması və kəskin respirator virus infeksiyalarına yoluxma hallarının qarşısının alınması məqsədilə Səhiyyə Nazirliyi risk qrupuna aid ölkə vətəndaşlarını mövsümi qripə qarşı peyvənd olunmağa çağırır.

Qripə qarşı peyvənd olunmaq istəyən şəxslər yaşayış yeri üzrə uşaq və böyüklərə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət edə bilərlər.

# Yaşlılıq xəstəliyi "cavan"laşır

**Əqli qabiliyyətin zəifləməsi ilə müşayiət olunan xəstəliklər arasında ən geniş yayılanı alsheymerdir. Bu, adətən, 65 yaşdan yuxarı insanlarda rast gəlinən, yaddaş itkisi və ağır koqnitiv davranış pozuntuları ilə müşayiət olunan baş-beyin xəstəliyidir.**

Alsheymerin səbəbi beyin hüceyrələrinin ölməsindən qaynaqlanır. Beyin hüceyrələrinin ölümü yaşdan asılı olaraq, hər insanda olur, lakin proses bu xəstəlikdə daha sürətli və erkən baş verir. Yaş, irsilik, ekoloji amillər, həyat tərzi və ümumi sağlamlıq da daxil olmaqla bir sıra faktorların buna səbəb olduğu ehtimal edilir.

Mütəxəssislər qarşıdakı illərdə alsheymerin pandemiya halını alacağını proqnozlaşdırırlar. Hazırda qeydiyyatda olan alsheymer xəstələrinin sayı 13 milyon olsa da, 2050-ci ildə bu göstəricinin dünyada 150 milyona çatacağı ehtimal edilir.

## Ən gənc alsheymer xəstəsi 19 yaşındadır

Mütəxəssisləri narahat edən məqamlardan biri də yaşlı xəstəliyi hesab edilən alsheymerin "cavan"laşmasıdır. Ötən ilin əvvəlində Çinin 19 yaşlı vətəndaşında bu xəstəlik aşkarlanıb. Müvafiq testlər aparıldıqdan sonra o, rəsmi olaraq, dünyada alsheymer diaqnozu qoyulan ən gənc insan olub.

Gənc oğlan hələ 17 yaşında olanda ev tapşırıqlarını yerinə yetirərkən diqqətini cəmləyə bilməyib, qısamüddətli yaddaş itkisindən əziyyət çəkməyə başlayıb. O, tədricən bir gün öncə baş verənləri belə xatırlamayıb, duyğularını ifadə etməkdə çətinlik çəkib. Həkimə müraciət etdikdə isə gənc nə vaxt yemək yediyini belə unudub. Müayinə zamanı xəstədə heç bir genetik mutasiya aşkar edilməyib.

Qeyd etmək lazımdır ki, bu hadisədən öncə diaqnozun qoyulduğu ən erkən yaş 21 idi. Lakin Çin vətəndaşından fərqli olaraq, o xəstədə gen mutasiyası aşkarlanmışdı.

## Xəstəliyin erkən diaqnozu ilə bağlı araşdırma aparılır



Alsheymerin klinik simptomlarına daha çox yaşlı adamlarda rast gəlinsə də, xəstəlik, əslində, 40-50 yaşlarından başlayır. Sadəcə olaraq, xəstəlik 10-15 ildən sonra kliniki olaraq özünü göstərir. 40 yaşından sonra orqanizmdə müəyyən dəyişikliklər gedir. Baş-beyində hüceyrələrdə toxumalar arasında xüsusi patoloji zülal olan amilod zülalları toplanır. Bu toksiki zülalların getdikcə miqdarı artır və onlar düyünlər əmələ gətirir. Düyünlər nəticəsində sinir ötürücüləri arasında əlaqə pozulur. Bu uzun prosesdən sonra xəstəlik formalaşır, simptomlar özünü göstərir. Xəstəlik dərinləşdikcə düyünlərin də sayı artır.

Müasir tibb nə qədər inkişaf etsə də, təəssüf ki, alsheymer də daxil olmaqla bəzi xəstəliklərin hələ də çarəsi tapılmayıb. Lakin xəstəliyin əlamətləri özünü göstərməmişdən əvvəl diaqnoz qoyulsa, prosesin sürətini azaltmaq olar. Qazi Universiteti Tibb Fakültəsi Xəstəxanasının mütəxəssisləri 2018-ci ildən etibarən alsheymerin erkən diaqnozu ilə bağlı elmi araşdırmalar aparırlar. Nəhayət, tədqiqatlar öz nəticəsini verib, "Amiloid Pozitron Emissiya Tomoqrafiyası" ("Amiloid PET") ilə xəstəliyin erkən mərhələdə, simptomlar görünmədən əvvəl müəyyən edilə biləcəyi aşkarlanıb.

Universitet alimləri bəzi xəstələrdə yeni metoddan istifadə edərək onlarda alsheymerin əsas zülalını təşkil edən "amiloid lövhə"nin varlığını müəyyən etməyə nail olublar. Mütəxəssislər bildiriblər ki, demans növlərində beyindəki neyronlar bir müddət sonra "qlükoza"dan istifadə edə bilmir və ölürlər: "Ancaq bu vəziyyət xəstəlik irəlilədikdən və yaddaşın itməsi kimi ciddi simptomlar ortaya çıxdıqdan 15-20 gün sonra başlayır. Halbuki proses bir il əvvəl başlayır. Xəstənin gözəçarpan şikayətləri olmadığı halda, onun beynində arzuolunmaz amiloid zülalları yığılmağa başlayır. Bunlar tədricən beyin hüceyrələrinin ölümünə səbəb olur".

Nüvə təbabətində yeni inkişaf etdirilən bir molekulun istifadə edildiyini və bu mövzuda müxtəlif ölkələrdə araşdırmaların davam etdiyini bildirən universitet alimləri bu molekuldan ilk dəfə olaraq Türkiyədə istifadə olunduğunu bildirirlər: "Amiloid PET"dən istifadə zamanı xəstələrimizə venadaxili olaraq "amiloid" zülalına bağlanan radioaktiv marker veririk və beyindəki "amiloid" yükünün ədədi dəyərini ölçürük. Tomoqrafiya zamanı xəstənin erkən mərhələdə alsheymer olub-olmaması da müəyyən edilir. Ölçmə sistemi sayəsində bu, rəqəmlə də sübut edilir. Yeni üsul vasitəsilə xəstələrimizə çox erkən mərhələdə, hətta 15-20 il öncə düzgün diaqnoz qoyulmasını və onların düzgün müalicəyə yönəldilməsini təmin edirik", - deyə universitetin alimi bildirib.

## Xəstəliyin riskini azaldıb, gedişatı ləngitmək mümkündür

Abşeron Rayon Mərkəzi Xəstəxanasının nevroloqu Elçin Rəhimli deyir ki, demensiyanın bir növü olan alsheymer yaddaş, düşüncə və davranışa təsir edərək ən bəsit bacarıqları belə yerinə yetirməyi unutduran və səssiz irəliləyən xəstəlikdir: "Demensiyanın 60-70 faizi alsheymer xəstələrinin payına düşür. O, daha çox yaşlılarda göründüyü üçün xəstəliyin erkən dövrləri çox vaxt gözdən qaçırılır. Alsheymer xəstələrini MRT və ya KT müayinəsi etsək, baş-beyində, əsasən gicgah payında dəyişikliklər görəcəyik. Elə bu səbəbdən də xəstəlik özünü yaddaş pozulması ilə göstərir".

E.Rəhimli qeyd edir ki, 3 mərhələli xəstəliyin ilk etapında xəstələrdə ciddi şikayət olmur. Azca unutqanlıq hiss etdiklərinə görə bunun xəstəlik olduğunun fərqinə belə varmırlar. Lakin xəstəliyin ikinci mərhələsində yaddaş pozulması dərinləşir. Ətrafdakı insanlardan şübhələnir, hansısa əşyalarını məhz onların götürdüklərini düşünürlər. Öncə əşyaların yeri yaddan çıxırdısa, artıq hər hansı bir əşyanın adını demək üçün bir neçə sözdən istifadə edirlər. Ən ağır olan sonuncu mərhələdə isə xəstələr bəsit gündəlik tələbatlarını belə ödəyə bilmirlər.

"Alsheymer xəstəliyində əsasən yaşlılar risk qrupundadırlar. Lakin irs faktoru da olduqca önəmlidir. Bu zaman xəstələrin ailə hekayəsi analizi aparılır, birinci dərəcəli qohumların xəstəlik daşıyıcısı olub-olmadığı öyrənilir. Passiv həyat tərzi keçirənlər, spirtli içki və tütün məmulatlarından istifadə edənlər, artıq çəkidən, yüksək təzyiq, xolesterin, diabet, insult və qan-damar xəstəliklərindən əziyyət çəkənlər də risk qrupundadırlar", - deyə nevroloq vurğulayır.

Xəstəliyin riskini azaldıb, gedişatı ləngitmək mümkündür. Bunun üçün beyin onurğa mayesindən nümunə götürülərək testlər edilir. Mütəxəssis bildirir ki, bahalı müayinə üsulu olduğuna görə xəstələr bu prosedura üstünlük vermirlər: "Ona görə də anemnez, fiziki müayinə və neyro-psixoloji testlərə əsasən diaqnoz qoyulur. Alsheymer xəstəliyinin tam müalicəsi yoxdur. Prosesi yavaşlatmaq üçün fiziki aktivliyi artırmaq, zərərli vərdişlərdən uzaq durmaq, yeni dil öyrənmək, şahmat oynamaq, kitab oxumaq kimi zehni fəaliyyətlərlə məşğul olmaq, bunlarla birlikdə sosial aktivliyi də artırmaq tövsiyə olunur".

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Almaniyadakı etirazlar Avropanı təhdid edir

**Almaniyada hökumətin kənd təsərrüfatı güzəştlərini ləğv etmək planlarına qarşı fermerlərin birhəftəlik kütləvi etiraz aksiyaları davam edir. Minlərlə traktor ölkəboyu magistral yolları bağlayıb. Paytaxt Berlinin mərkəzində Brandenburq darvazasının ərazisində fermerlər nümayiş keçirirlər.**



Baden-Vürtemberq əyalətinin Daxili İşlər Nazirliyinin məlumatına görə, Almaniyanın cənub-qərbində təqribən 25 min avtomobilin iştirakı ilə fermerlərin 320-dən çox etiraz aksiyası keçirilir. Nəticədə çoxlu sayda yollarda vaxtaşırı nəqliyyatın hərəkətində böyük fasilələr yaranır.

DPA agentliyi xəbər verir ki, Almaniyanın müxtəlif yerlərində bir neçə federal magistralda qovşaqlar bağlanıb. Səhər tezdən Meklenburq-Ön Pomeraniya və Saksoniya federal əyalətlərində fermerlər öz maşınları ilə bir sıra avtobanların hissələrində barrikadalar yaradıblar.

Bundan əlavə, Mayns şəhəri yaxınlığındakı magistral yolda mindən çox traktor və yük maşını qeydə alınıb. Yerli polisin məlumatına görə, avtomobil zənciri təxminən 20 km uzunluğunda olub və magistral yol tamamilə bağlı qalıb.

Bavariya polisi bildirib ki, onlar şəhərdənkənar müxtəlif istiqamətlərdən Bavariyanın paytaxtı Münhenə gedən 5500-ə yaxın traktoru müşayiət edir. Hüquq-mühafizə orqanlarının məlumatına görə, şəhərin mərkəzində keçirilən mitinqə 8 minə yaxın nümayişçi toplaşıb.

Fermerlərin tətilinin nəticələri təkcə pik saatlarda tıxaclara düşən işçilərə deyil, həm də əhalinin digər təbəqələrinə də təsirsiz ötüşmür - məktəb avtobusları hərəkət edə bilmir və şagirdlər evdə qalır, xəstələr və tibb personalı klinikalara yollanmaqda çətinlik çəkirlər. Aşağı Saksoniyanın Emden şəhərində fermerlərin etirazları səbəbindən Volkswagen avtomobil zavodu istehsalı dayandırıb - etirazçılar fabrikin girişlərini bağlayıblar, buna görə də işçilər müəssisəyə gedə bilməyiblər.

Traktorların üzərinə müxtəlif şüarlar yerləşdirilib: "Kəndlilər ölsə, ölkə öləcək", "Almaniyaya yeni seçkilər lazımdır", "İşıqfor"-da (hakim koalisiya - red.) qırmızı yanır", "İşıqfor getməlidir", "Köləlikdən ölüm yaxşıdır" və sairə.

Xatırladaq ki, yanvarın 5-də Almaniya Kəndlilər İttifaqı öz saytında yanvarın 8-dən 12-dək bütün ölkədə kənd təsərrüfatı və nəqliyyat sənayesi işçilərinin birgə nümayişlər keçirəcəyi ilə bağlı bəyanat yayıb.

Fermerlər federal hökumətin planlaşdırdığı kənd təsərrüfatı vergisinin artırılmasını ləğv etməyə çağırır, Malların Nəqliyyatı, Logistika və Təkrar Emalı üzrə Federal Assosiasiyası (BGL e.V.) isə dövlət orqanlarından CO2 tullantıları üçün ikiqat rüsumların və dizel yanacağı üçün yeni ödəniş tariflərinin qarşısının alınması ilə bağlı öhdəliklərini yerinə yetirməyi tələb edir.

Etirazları elan edən birlik vurğulayıb ki, bu cür tədbirlərə əhali arasında dəstək böyükdür, son dərəcə vacibdir və daha da gücləndirilməlidir.

Qeyd edək ki, yanvarın 10-da Düsseldorf, Kassel, Auqsburqda da etiraz aksiyaları və Drezdendəki Teatr Meydanında böyük nümayiş keçirilib. Yanvarın 11-də Frankfurt və Kotbus şəhərlərində etiraz aksiyaları baş tutub. Bu gün isə Münhen, Nürnberq və Kildə etiraz aksiyaları davam etdiriləcək.

Ekspertlərin sözlərinə görə, alman fermerlərinin narazılığının ciddi əsasları var. Onlar iqtisadi çətinliklərlə üzləşirlər. Almaniyada dövlət büdcəsi hələ qəbul edilməyib, indi Berlində kənd təsərrüfatı işçilərinə verilən müavinətləri kəsməklə vəziyyətdən çıxmağa çalışırlar. Amma bu baş verərsə, nəticədə ərzaq qiymətləri qalxacaq ki, bu da bütün Almaniya əhalisinin rifahına zərbə vuracaq.

Avropa iqtisadiyyatının hərəkətverici qüvvəsi sayılan Almaniya hazırda iqtisadi böhran səbəbilə etirazlar bataqlığında qalıb. Bu böhran çox güman ki, digər Aİ ölkələrinə də yayılacaq, çünki Almaniya Aİ-nin donoru və flaqmanıdır. Bununla bağlı Avropa əhalisinin etirazları daha da artacaq. Konkret Almaniyaya gəlincə, ölkənin kansleri Olaf Şolts vətəndaşların onsuz da minimal olan dəstəyini qoruyub saxlaya bilməyəcək. Son sorğulara əsasən, almanların üçdəikisi artıq hökumət başçısının dəyişməsinin tərəfdarıdır. Lakin problem ondadır ki, Vaşinqton Almaniyada ölkənin özündən asılı vəziyyətdə olmayan kanslerin seçilməsinə imkan verməyəcək.

Əsas magistralların bağlanmasına səbəb olan fermerlərin kütləvi etirazları hazırkı kanslerin siyasi karyerasında son akkord ola bilər. Çünki Berlin fermerlərin tətillərinin səbəbini aradan qaldıra bilməyəcək. Ona görə ki, Almaniya büdcəsində onlara əvvəlki səviyyədə subsidiyalar vermək üçün kifayət qədər vəsait yoxdur.

Fermerlərə dəstəyin azaldılması tədbirləri son nəticədə bir sıra orta və kiçik təsərrüfatların müflisləşməsinə gətirib çıxaracaq.

Son məlumata görə, fermerlərin etirazlarını başqa peşələrin nümayəndələri də dəstəkləyə bilər. Sürücülər artıq onlara qoşulacaqlarına söz veriblər. Analoji addımı müxtəlif etiraz və tətillərin ənənəvi iştirakçıları - dövlət sektoru işçiləri, məsələn, hazırkı iqtisadi və sosial vəziyyətlərindən narazı olan müəllimlər və ya həkimlər də ata bilər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Paytaxtda hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda yanvarın 12-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 2-4°, gündüz 7-10° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 750 millimetr civə sütununa enəcək. Nisbi rütubət 55-65 faiz təşkil edəcək.



Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər yolların buz bağlama ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-5° isti olacağı ehtimal edilir.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gündüz yağıntıda fasilə olacaq. Gecə və səhər yolların buz bağlama ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 2-7° isti olacağı ehtimalı var.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda fasilə olacaq. Gecə və səhər yolların buz bağlama ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6° şaxta, gündüz 0-5° isti, bəzi yerlərdə 8°-dək isti olacağı gözlənilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında gün ərzində havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-9° isti olacaq.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 4° şaxtadan 1°-dək isti, gündüz 5-9° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı proqnozlaşdırılır.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə havanın arabir yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 6-11° isti olacağı bildirilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Səhər tədricən kəsiləcək. Bəzi rayonlarda arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək, gecə və səhər arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-3°, gündüz 5-9° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-7° isti olacağı gözlənilir.

# Bakıda turizm sənayesi subyektlərinin forumu keçirilib

**Yanvarın 11-də Bakı Konqres Mərkəzində Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının təşkilatçılığı ilə "Turizm sənaye subyektlərinin ilin yekunları və COP29 ərəfəsində çağırışlar" mövzusunda forum keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov çıxış edərək 2023-cü ilin ölkə turizmin inkişafı üçün uğurlu il olduğunu və turizmin qeyri-neft sektorunun bir qolu olaraq xüsusi mərkəzə çevrildiyini bildirib. Ümummilli Lider Heydər Əliyevin turizmə ayırdığı xüsusi diqqət və qayğı sayəsində bu sahənin yeni dövrə qədəm qoyduğunu söyləyən sədr deyib: "Prezident İlham Əliyev turizm sahəsini daha da inkişaf etdirir. Bu, turizm sahəsinin beynəlxalq aləmə inteqrasiyasını təmin edir".

Onun sözlərinə görə, pandemiya dövrünü nəzərə almasaq, Azərbaycana səfər edən əcnəbilərin sayı son illər 3 dəfə artıb. Mehmanxana və mehmanxana tipli gecələmələrin sayında 8 dəfə artım müşahidə olunub.

Azərbaycan Hotel Assosiasiyasının İdarə Heyətinin sədri Eldar Əlimuradov assosiasiyanın fəaliyyəti barədə danışıb. O qeyd edib ki, məhz Prezident İlham Əliyevin diqqəti və qayğısı turizmin inkişafına böyük töhfə verib. Onun sözlərinə görə, 2011-ci ildən sonra turizmin inkişafı yeni mərhələyə qədəm qoymuşdur. "Azərbaycanda bir çox beynəlxalq hotel brendi təmsil olunur. Hazırda ölkəmizdə 757 hotel fəaliyyət göstərir", - deyə o əlavə edib.

E.Əlimuradov diqqətə çatdırıb ki, beynəlxalq təcrübəyə malik olan yerli kadrlar nəyinki Azərbaycanda, həmçinin bir çox xarici ölkədə yüksək vəzifələr tuturlar.

"2003-2019-cu illərdə Azərbaycana səfər edən əcnəbilərin sayı 3 dəfə artıb. 2019-cu ildən etibarən pandemiya hotelçilik industriyasına böyük zərbə vurdu. Bir çox hotel karantin hotellər kimi fəaliyyət göstərirdi. Postpandemiya dövründən sonra hotelçilik sahəsi yenidən canlanmağa başladı", - deyə E.Əlimuradov bildirib.

Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının baş katibi Tural Musayev bələdçilərin fəaliyyətinin turizmin inkişafına təkan verən əsas xidmət sektoru olduğunu qeyd edib. O bildirib ki, ötən dövr ərzində ölkəmizdə turizm bələdçilərin sayı 9 dəfə artıb.

Azərbaycan Turizm Blogerləri Assosiasiyasının İdarə Heyətinin sədri Azər Qəribov səyahət etdiyi ölkələrin adət-ənənələri və fərqli xüsusiyyətlərindən söhbət açaraq, Azərbaycanın COP29-a evsahibliyi edəcək ölkə kimi seçilməsinin əhəmiyyəti barədə danışıb.

Forum çərçivəsində turizm sənayesində ixtisaslaşmış assosiasiyalar birgə bəyanat qəbul edib. Bəyanatda dövlət başçısı tərəfindən aparılan siyasətə tam dəstək ifadə olunub.

Açılış mərasimindən sonra forum işini "Turizmin inkişafında biznes-dövlət əməkdaşlığı, son 20 il ərzində əldə edilən uğurlar" və "COP29 ərəfəsində imkanlar və çağırışlar, turizm sənayesindən gözləntilər" adlı panel müzakirələrlə davam etdirib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və komissiyanın üzvləri Milli Məclisin deputatı Elman Nəsirova anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Elman Nəsirova anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədova əmisi

**FƏXRƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədova əzizi

**FƏXRƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin deputatı Elman Nəsirova anası

**ZƏRİFƏ NƏSİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin deputatı Elman Nəsirova anası

**ZƏRİFƏ NƏSİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədova əmisi

**FƏXRƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru professor Natiq Cavadov siyasi elmlər doktoru, professor, Milli Məclisin deputatı Elman Nəsirova anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3693
Sifariş 17

Qiyməti 60 qəpik